Xalqın qəzeti!

# Xalq qəzeti

№ 246 (30940) 20 noyabr 2025-ci il, cümə axşamı

Gündəlik ictimai-siyasi qəzet

1919-cu ildən çıxır

Azərbaycan Respublikası Prezidentinin İşlər İdarəsi

# Azərbaycan Türküstanın qardaşlıq ailəsində

## *Azərbaycan Respublikasının Prezidenti Zati-aliləri cənab İlham Əliyevə*

**Hörmətli İlham Heydər oğlu!**
**Əziz qardaşım!**

Sizi və Sizin simanızda bütün Azərbaycan xalqını Mərkəzi Asiya Dövlət Başçılarının 7-ci Məşvərət Görüşündə "Azərbaycan Respublikasının Mərkəzi Asiya Dövlət Başçılarının Məşvərət Görüşündə tamhüquqlu iştirakı haqqında" qərarın yekdilliklə qəbul edilməsi münasibətilə səmimi-qəlbdən təbrik edirəm.

Sözsüz ki, bu, tarixi miqyasda hadisədir. O, Mərkəzi Asiya və Azərbaycanın vahid geosiyasi və geoiqtisadi məkana çevrilməsini, beləliklə, xalqlarımızın və dövlətlərimizin qardaşlıq, mehriban qonşuluq, bərabərhüquqlu və əməkdaşlıq zəminində güclü birliyini, onların ayrılmazlığı və bölünməzliyi üzrə tarixi talelərinin düzgün qavranılmasını təcəssüm etdirir.

Qəti əminəm ki, qəbul edilən qərar tamamilə qanunauyğundur, Mərkəzi Asiya ölkələrinin və Azərbaycanın tarixi inkişaf yolunu, onların zəruri ehtiyaclarını və həqiqi maraqlarını obyektiv şəkildə əks etdirir.

Əsrlər boyu xalqlarımızı coğrafi qonşuluq, ortaq sivilizasiya kökləri, mədəniyyət, adət-ənənə və mənəvi dəyərlərin yaxınlığı birləşdirib. Bununla da müstəqillik şəraitində qarşılıqlı münasibətlərin nadir arxetipik nümunəsi yaradılıb və bu gün o, hazırkı və gələcək kontinental proseslərin inkişafında - siyasətdə, iqtisadiyyatda, sosial məsələlərdə və humanitar sahələrdə güclü amildir.

Məhz Mərkəzi Asiya və Azərbaycan transkontinental, çoxvektorlu qarşılıqlı əlaqədə əsas vəsilə olmaq vəzifəsini öz öhdələrinə götürüblər, bu olmadan tarazlaşdırılmış, uğurlu və davamlı müasir iqtisadi arxitekturanın yaradılması mümkün deyil. Artıq ölkənizin bu ali məqsədin reallaşmasında iştirakı əlavə güclü siyasi-hüquqi təməllə möhkəmləndirilib.



Əziz qardaşım, Məşvərət Görüşü formatı bütün iştirakçılar üçün sülh, etimad, harmoniya, mehriban qonşuluq və qarşılıqlı faydalı tərəfdaşlığın təmin edilməsi üçün vacib platforma rolunu oynayır. Fəxr edirəm ki, Türkmənistan bu siyasi qarşılıqlı fəaliyyət formasının başlanğıcında dayanıb. Ölkəmizin Məşvərət Görüşünün yaradılması təşəbbüsü on beş ildən də çox əvvəl Özbəkistanda elan edilib və tam şəkildə dəstəklənib.

Növbəti addım Qazaxıstanda ilk rəsmi Məşvərət Görüşü oldu, burada çoxtərəfli dialoqun ideoloji təməlləri qoyuldu, onun uzunmüddətli məqsədləri və perspektivləri müəyyən edildi.

Bunun ardından razılaşdırılmış plana uyğun olaraq görüşlər Türkmənistanda, Qırğızıstanda və Tacikistanda keçirildi. Regiondaxili əməkdaşlığın əsas məsələləri və beynəlxalq gündəlik etimad əsasında və açıq atmosferdə müzakirə edildi, əhəmiyyətli qərarlar və razılaşmalar əldə olundu. Zaman bu formatın yaradılmasının düzgünlüyünü, onun aktuallığını və səmərəliliyini, xalqların və istisnasız olaraq bütün iştirakçı dövlətlərin fundamental maraqlarına uyğunluğunu göstərdi.

Qarşılıqlı anlaşmanın inkişafında, Məşvərət görüşlərinin əhəmiyyətinin və nüfuzunun artmasında yeni bir mərhələ Mərkəzi Asiya Dövlət Başçılarının Fəxri nişanının təsis edilməsi idi. Onun ilk laureatı Tacikistan Respublikasının Prezidenti oldu.

Hörmətli İlham Heydər oğlu, mənim üçün xüsusi qürur və şərəf hissi doğuran fakt ondan ibarətdir ki, ölkəmizin təklifi ilə bu ilin avqust ayında "Avaza" Milli Turizm Zonasında BMT-nin Dənizə Çıxışı Olmayan İnkişaf Etməkdə Olan Ölkələr üzrə üçüncü Konfransı (UNCLDC) zamanı Mərkəzi Asiya Dövlət Başçılarının növbədənkənar Məşvərət Görüşü təşkil edildi. Məhz bu görüşdə Türkmənistan Azərbaycanın Məşvərət Görüşünə tamhüquqlu üzv kimi qoşulmasını və bununla da bu formatda əsas iştirakçıya çevrilməsini, əlaqələrini və qardaş xalqlar ailəsinə hərtərəfli inteqrasiyasını daha da gücləndirməsini təklif etdi. Böyük sevinc hissi ilə qeyd etmək istəyirəm ki, bu təşəbbüs Daşkənddə Mərkəzi Asiya ölkələrinin prezidentləri tərəfindən tam dəstəklənib və ortaq rifaha doğru irəliləyişimiz üçün olduqca əhəmiyyətli və perspektivli bir fakta çevrilib.

İnanıram ki, Sizin ölkənizin siyasi nüfuzunu, onun nəhəng resurs, sənaye, texnoloji potensialını, mədəni və humanitar sahələrdə əldə olunmuş nailiyyətlərini nəzərə alaraq, Azərbaycanın Məşvərət görüşləri formatına qoşulması ölkələrimizin və xalqlarımızın hərtərəfli yaxınlaşmasında həlledici amil, müasir regional və beynəlxalq inkişaf istiqamətlərində fəal iştirakın stimulu olacaq, məsuliyyətli, vahid mövqedən çıxış edən tərəfdaşlar, qlobal koordinasiya sistemində özünün layiqli rolunu və yerini dərk edən, qarşıya qoyulan məqsədlərə birlikdə çatmağa hazır olan Mərkəzi Asiya dövlətlərinin və Azərbaycanın rolunu, çəkisini artıracaq.

Hörmətli İlham Heydər oğlu, Sizi gələn il Türkmənistanda keçiriləcək Mərkəzi Asiya Dövlət Başçılarının 8-ci Məşvərət Görüşündə əziz qardaş və dost qismində gözləyirik.

Ən səmimi təbriklərimi qəbul etməyinizi bir daha xahiş edirəm.

Sizə möhkəm cansağlığı, uzun ömür, ali dövləti vəzifənizdə və beynəlxalq fəaliyyətinizdə uğurlar, qardaş Azərbaycan xalqına isə sülh, səadət, əmin-amanlıq və tərəqqi arzulayıram.

**Hörmətlə,**

***Qurbanqulu BERDİMƏHƏMMƏDOV,***
***Türkmən xalqının Milli Lideri,***
***Türkmənistan Xalq Məsləhətinin sədri,***
***Mərkəzi Asiya Dövlət Başçılarının***
***Fəxri nişanının laureatı***

## Milli dilçilik elmi və Azərbaycan dövlətinin dil siyasəti



Səhifə ⇨ 12

## Milli Məclisdə gələn ilin büdcə müzakirələri

### *Dinləmələrin ilk dövrəsi yekunlaşdı*

**Dünən Milli Məclisin növbəti plenar iclası keçirildi. Noyabrın 21-nə qədər davam edəcək plenar iclasın ilk günündə Baş nazir Əli Əsədov, maliyyə naziri Sahil Babayev, iqtisadiyyat naziri Mikayıl Cabbarov, Azərbaycan Mərkəzi Bankının (AMB) sədri Taleh Kazımov, Hesablama Palatasının sədri Vüqar Gülməmmədov, Milli Məclisin sədri Sahibə Qafarova və digər deputatlar iştirak etdi.**



Müzakirələrin əsas mövzusu "Azərbaycan Respublikasının 2026-cı il dövlət büdcəsi haqqında" Azərbaycan Respublikası Qanununun layihəsi idi. Milli Məclisin sədri Sahibə Qafarova bildirdi ki, 2026-cı ilin dövlət büdcəsi sosial-iqtisadi inkişaf kursunu davam etdirən, iqtisadi sabitliyi möhkəmləndirməyə yönəlmiş sənəddir. Gələn ilin büdcə gəlirləri 38,6 milyard manat, xərcləri isə 41,7 milyard manat səviyyəsində nəzərdə tutulub. Gəlirlərin 57,4 faizi qeyri-neft sektorundan formalaşacaq ki, bu da 2025-ci illə müqayisədə təxminən 11 faiz artım deməkdir. Büdcənin əsas prioritetləri müdafiə qabiliyyətinin gücləndirilməsi, sosial müdafiə tədbirləri, təhsil sahəsinə dəstək, azad edilmiş ərazilərin bərpası və "Böyük Qayıdış" proqramının icrasıdır. Hökumətin effektiv idarəetməsi bu istiqamətlər üzrə planlaşdırılan hədəflərə çatmağı təmin edəcək.

*(ardı 3-cü səhifədə)*

## "Böyük Qayıdış" modelinin strateji uğurları



Səhifə ⇨ 7

## Hakan Fidanın mesajı – Ermənistan üçün ev tapşırığı



Səhifə ⇨ 4

## Top İrəvanın meydanındadır



Səhifə ⇨ 4

## "Benilüks effekti"




Səhifə ⇨ 5

## Tərəflər niyə güzəştə getmirlər?



Səhifə ⇨ 6

## Qarakənd səmasının qara tarixçəsi



Səhifə ⇨ 6

## Ermənistanda müxalifət vəziyyəti gərginləşdirir



Səhifə ⇨ 7

## “Kəşfiyyat və əks-kəşfiyyat fəaliyyəti ilə əlaqədar maliyyə-təsərrüfat fəaliyyətinə nəzarət, habelə dövlət büdcəsindən və qanunla qadağan olunmayan digər mənbələrdən kəşfiyyat və əks-kəşfiyyat fəaliyyəti ilə əlaqədar ayrılan vəsaitin istifadəsi üzərində maliyyə nəzarəti tədbirlərinin həyata keçirilməsi Qaydası”nın təsdiq edilməsi haqqında

*Azərbaycan Respublikası Prezidentinin Fərmanı*

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq, “Kəşfiyyat və əks-kəşfiyyat fəaliyyəti haqqında” Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə” Azərbaycan Respublikasının 2024-cü il 10 dekabr tarixli 85-VIIQD nömrəli Qanununun icrası ilə əlaqədar **qərara alıram:**

**1**. “Kəşfiyyat və əks-kəşfiyyat fəaliyyəti ilə əlaqədar maliyyə-təsərrüfat fəaliyyətinə nəzarət, habelə dövlət büdcəsindən və qanunla qadağan olunmayan digər mənbələrdən kəşfiyyat və əks-kəşfiyyat fəaliyyəti ilə əlaqədar ayrılan vəsaitin istifadəsi üzərində maliyyə nəzarəti tədbirlərinin həyata keçirilməsi Qaydası” təsdiq edilsin.

**2**. Azərbaycan Respublikasının Nazirlər Kabineti bu Fərmandan irəli gələn məsələləri həll etsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

**Bakı şəhəri, 19 noyabr 2025-ci il**

## K.B.Əliyevin 1-ci dərəcəli “Vətənə xidmətə görə” ordeni ilə təltif edilməsi haqqında

*Azərbaycan Respublikası Prezidentinin Sərəncamı*

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 23-cü bəndini rəhbər tutaraq **qərara alıram:**

Azərbaycan Respublikasının prokurorluq orqanlarında uzunmüddətli səmərəli fəaliyyətinə görə Kamran Bayram oğlu Əliyev 1-ci dərəcəli “Vətənə xidmətə görə” ordeni ilə təltif edilsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

**Bakı şəhəri, 19 noyabr 2025-ci il**

## Hikmət Hacıyev Alison Huker ilə görüşüb



**Azərbaycan Prezidentinin köməkçisi – Prezident Administrasiyasının Xarici siyasət məsələləri şöbəsinin müdiri Hikmət Hacıyev ABŞ Dövlət katibinin siyasi məsələlər üzrə müavini Alison Hukerlə görüşüb və Azərbaycanla ABŞ arasında strateji tərəfdaşlığı müzakirə edib.**

Hikmət Hacıyev bu barədə özünün "X" sosial media hesabında paylaşım edib.

"Alison Hukerin rəhbərlik etdiyi Birləşmiş Ştatlar nümayəndə heyəti ilə görüşməkdən məmnun oldum. Müzakirələrimiz Ermənistan–Azərbaycan sülh gündəminin irəlilədilməsi və regional əlaqə layihələrinin icrası da daxil olmaqla geniş məsələləri əhatə etdi. Həmçinin regional və qlobal proseslər barədə fikir mübadiləsi apardıq və Azərbaycanla ABŞ arasında strateji tərəfdaşlıq ruhunu bir daha təsdiqlədik", – deyə paylaşımda qeyd olunub.

**XQ**

## “Xəzər-Qara dəniz-Avropa Yaşıl Enerji Dəhlizi” layihəsinin təqdimatı





**Azərbaycanın Almaniyadakı səfirliyinin, Alman İqtisadiyyatının Şərq Komitəsinin və “Yaşıl Enerji Dəhlizi Enerji Şirkəti”nin birgə təşkilatçılığı ilə Berlindəki Azərbaycan Mədəniyyət Mərkəzində “Xəzər-Qara dəniz-Avropa Yaşıl Enerji Dəhlizi” layihəsi üzrə təqdimat keçirilib.**

Ölkəmizin Almaniyadakı səfiri Nəsimi Ağayev tədbirdə çıxış edərək, Azərbaycan-Almaniya münasibətlərinin bir çox istiqamətlərdə, o cümlədən iqtisadi sahədə uğurla inkişaf etdiyini diqqətə çatdırıb. Diplomat Prezident İlham Əliyevin son iki ildə Almaniyaya dörd dəfə səfər etməsinin, Almaniya Prezidenti Frank-Valter Ştaynmayerin bu ilin aprelində ölkəmizə ilk rəsmi səfərinin ikitərəfli münasibətlərin yüksək səviyyəsinin göstəricisi olduğunu vurğulayıb.

Azərbaycanın Avropanın enerji təhlükəsizliyində mühüm rol oynamasından söz açan N.Ağayev ildə 3 milyard kubmetrlik Azərbaycan qazının Almaniyaya ixracını nəzərdə tutan müqavilələrin əhəmiyyətini vurğulayıb.

Alman İqtisadiyyatının Şərq Komitəsinin Şərqi Avropa üzrə regional direktoru Alena Akuliç çıxışında assosiasiyanın fəaliyyət istiqamətləri və Azərbaycanla iqtisadi əməkdaşlığın genişlənən gündəliyi barədə məlumat verib. O, Azərbaycanın regionda aparıcı iqtisadi platforma kimi yüksələn rolunu qeyd edərək, tərəfdaşlığın əsas istiqamətlərinin yaşıl enerji, rəqəmsal transformasiya, innovasiya və institusional islahatların dəstəklənməsi olduğunu bildirib. Akuliç bu il imzalanan ticarət, iqtisadiyyat və investisiyalara dair birgə yol xəritəsində kimya sənayesi, səhiyyə, rəqəmsallaşma və yaşıl keçid üzrə 10-dan çox konkret layihənin əksini tapdığını qeyd edib.

Sonra “Yaşıl Enerji Dəhlizi Enerji Şirkəti”nin baş direktoru Fərhad Məmmədov “Yaşıl Enerji Dəhlizi” və layihənin reallaşması istiqamətində görülən işlər, eləcə də bu prosesdə Azərbaycanın fəal rolu barədə geniş təqdimatla çıxış edib.

Məlumat verilib ki, ümumi uzunluğu 3 min kilometr olan dəhliz vasitəsilə yaşıl enerji Qara dənizin dibi ilə Avropaya ötürüləcək. Bu kabel vasitəsilə ildə təxminən 4 gigavat gücündə yaşıl enerjinin Avropaya ötürülməsi planlaşdırılır.

Daha sonra Azərbaycan Dövlət Neft Şirkətinin (SOCAR) törəmə müəssisəsi olan “SOCAR Green”in baş direktoru Elmir Musayev şirkətin bərpaolunan enerji sahəsində fəaliyyəti barədə təqdimatla çıxış edib.

Çıxış və təqdimatlardan sonra tədbir iştirakçılarının sualları cavablandırılıb və mövzu ətrafında səmərəli müzakirələr aparılıb.

**XQ**

## ABŞ Dövlət katibinin müavini XİN-də



**Noyabrın 19-da Azərbaycanın xarici işlər naziri Ceyhun Bayramov ABŞ Dövlət katibinin siyasi məsələlər üzrə müavini Alison Hukerlə görüşüb.**

Görüş zamanı Azərbaycan-ABŞ ikitərəfli əməkdaşlığının cari vəziyyəti və inkişaf perspektivləri, Azərbaycan-Ermənistan sülh prosesi, eləcə də regional və qlobal təhlükəsizlik məsələləri ətrafında geniş fikir mübadiləsi aparılıb.

Avqustun 8-də tarixi Vaşinqton görüşü zamanı əldə edilmiş razılıqlar məmnunluqla xatırlanaraq, iki ölkə arasında strateji tərəfdaşlığın inkişafı istiqamətində birgə səylərin vacibliyi qeyd olunub. Regional sabitlik, enerji təhlükəsizliyi və nəqliyyat dəhlizlərinin genişləndirilməsi sahəsində əməkdaşlığın gücləndirilməsinin əhəmiyyəti vurğulanıb. Bu çərçivədə Azərbaycanın əsas hissəsi və onun Naxçıvan Muxtar Respublikası arasında maneəsiz bağlantının təmin edilməsi məqsədilə ABŞ tərəfindən həyata keçiriləcək “Beynəlxalq Sülh və Rifah naminə Tramp Marşrutu” üzrə işlərin sürətləndirilməsində maraqlı olduğumuz diqqətə çatdırılıb.

Qarşılıqlı maraq kəsb edən sahələrdə strateji tərəfdaşlığın gücləndirilməsinə xidmət edəcək Strateji Tərəfdaşlıq Xartiyasının hazırlanması məqsədilə iki ölkə arasında Strateji İşçi Qrupunun fəaliyyət istiqamətləri nəzərdən keçirilib, ikitərəfli praktiki əməkdaşlıq üçün institusional çərçivənin təsis edilməsinin vacibliyi diqqətə çatdırılıb.

Cənubi Qafqaz regionunda sülh və sabitlik gündəliyi, ikitərəfli və çoxtərəfli platformalar çərçivəsində qarşıdakı dövr üçün fəaliyyət istiqamətləri müzakirə olunub.

Görüşdə, həmçinin Yaxın Şərqdə vəziyyət və qarşılıqlı maraq doğuran digər regional məsələlər ətrafında fikir mübadiləsi aparılıb.

**XQ**

## TDT-yə üzv dövlətlərin Qızıl Aypara Şəbəkəsi Bakıda



**Bakıda Türk Dövlətləri Təşkilatına üzv olan dövlətlərin Qızıl Aypara Şəbəkəsinin rəhbərlərinin iclası keçirilib.**

Açılış mərasimində Azərbaycan Qızıl Aypara Cəmiyyətinin prezidenti Novruz Aslanov qeyd edib ki, Azərbaycan Türk birliyinə sədaqətini sözlə deyil, əməli işləri ilə nümayiş etdirir. “Prezident İlham Əliyevin uğurlu siyasəti nəticəsində Azərbaycan TDT-nin əsas geosiyasi və iqtisadi dayaqlarından birinə çevrilib. Təşkilata üzv dövlətlərin Qızıl Aypara cəmiyyətlərinin rəhbərləri tərəfindən “Qırmızı Şəbəkə” platformasının yaradılması haqqında memorandumun imzalanması, vahid humanitar reaksiya mexanizmlərinin formalaşdırılmasına doğru atılan mühüm addımdır. Biz əməkdaşlığımızı daha da gücləndirmək niyyətindəyik.”, - deyə N.Aslanov əlavə edib.

Azərbaycanın xarici işlər nazirinin müavini Samir Şərifov bildirib ki, regionda və beynəlxalq arenada cərəyan edən geosiyasi transformasiyalar fonunda TDT-nin birgə strateji düşüncə və ortaq fəaliyyətinə əsaslanan mexanizmlərin qurulması heç vaxt olmadığı qədər önəm kəsb etməkdədir. “Qısa müddət ərzində əsaslı inkişaf yolu keçmiş TDT-də hazırda 40-dan artıq sahə üzrə müxtəlif əməkdaşlıq formatları mövcuddur. Türk Qırmızı Şəbəkəsi TDT məkanında humanitar həmrəyliyin gücləndirilməsi, fövqəladə hallara çevik reaksiya verilməsi və koordinasiyanın təmin olunması məqsədilə formalaşdırılıb", - deyə S.Şərifov vurğulayıb.

TDT-nin Baş katibi Kubanıçbek Ömüralıyev qeyd edib ki, bu sahədə əsas nailiyyətlərdən biri mülki müdafiə mexanizminin formalaşdırılmasıdır. “Mexanizm fövqəladə hallarda çevik və effektiv reaksiya vermək imkanlarımızı daha da gücləndirir. Biz, eyni zamanda, bir çox beynəlxalq təşkilatlarla əməkdaşlıq edirik və bu, gələcək fəaliyyətimizə yeni töhfələr verəcək. Mövcud geosiyasi vəziyyətdə sülh və sabitlik daha da həssas xarakter daşıyır. Üstəlik, iqlim dəyişikliyinin dağıdıcı təsirləri artıq daha açıq şəkildə hiss olunur. Bu şəraitdə “Qırmızı Şəbəkə” platformasının fəaliyyəti xüsusi əhəmiyyət kəsb edir”, - deyə Baş katib vurğulayıb.

Türkiyənin Qızıl Aypara Cəmiyyətinin sədri Fatma Meriç Yılmazın sözlərinə görə, birgə təlimlər təşkil edilə, xüsusi mübadilə proqramları həyata keçirilə, sənədli təlim modulları hazırlana və rəqəmsal həllər tətbiq edilə bilər. Bu, əməliyyat potensialını artırmaqla yanaşı, həm də institusional əlaqələri daha da gücləndirəcək. Qırğızıstan Qızıl Aypara Cəmiyyətinin və Türk Qırmızı Şəbəkəsinin prezidenti Çingiz Cakipov isə “Qırmızı Şəbəkə” platformasının yaradılmasının olduqca vacib olduğuna diqqət çəkib.

Sonra iclasda 2025-ci il üzrə fəaliyyətlərin yekun icmalı aparılıb, həmçinin 2026-cı il üçün strateji istiqamətlər müəyyənləşdirilib.

Sonda Türk Qızıl Aypara Şəbəkəsi Bəyannaməsi imzalanıb.

Onu da bildirək ki, ötən il Bişkekdə keçirilən görüş zamanı Türk dövlətlərinin Qızıl Aypara cəmiyyətlərinin qərarı ilə “Qırmızı Şəbəkə” platforması təsis olunub və sədrlik Qırğızıstan Qızıl Aypara Cəmiyyəti tərəfindən həyata keçirilib. Bu il təşkil edilən növbəti görüşdə isə sədrlik Azərbaycan Qızıl Aypara Cəmiyyətinə keçib.

**XQ**

## Qətiyyətli liderin Zəfər salnaməsi





**Yeni Azərbaycan Partiyası Veteranlar Şurasının və partiyanın Nəsimi rayon təşkilatının birgə təşkilatçılığı ilə YAP Veteranlar Şurasının üzvü, “Modern İnkişaf və Ailə” İctimai Birliyinin sədri Zərifə Quliyevanın “Xariqələr yaradan qətiyyətli Lider” adlı kitabının təqdimat mərasimi keçirilib.**

YAP Nəsimi rayon təşkilatının sədri Azər Süleymanov bildirib ki, Prezident İlham Əliyev ümummilli lider Heydər Əliyevin ideyalarını müvəffəqiyyətlə həyata keçirən, ölkəmizin ərazi bütövlüyü və suverenliyini tam təmin edən güclü lider kimi adını tarixə qızıl hərflərlə yazdırıb. Prezident İlham Əliyev Vətən və dövlət qarşısında müstəsna xidmətləri ilə xalqımızın tükənməz hörmət və məhəbbətini qazanıb. Təqdimatı keçirilən kitabda da məhz bu məqamlardan geniş bəhs olunur.

YAP Veteranlar şurasının sədri, partiyanın İdarə Heyətinin üzvü Arif Rəhimzadə Azərbaycanın hazırda ən möhtəşəm dövrünü yaşadığını deyib. Vurğulayıb ki, ümummilli lider Heydər Əliyev müasir Azərbaycanın inkişaf strategiyasının müəllifidir. Ulu öndər Heydər Əliyevin siyasi varisi, Prezident İlham Əliyevin rəhbərliyi ilə həyata keçirilən siyasət nəticəsində Azərbaycan qüdrətli və qalib ölkəyə çevrilib.

Mərasimdə, həmçinin AMEA Fəlsəfə və Sosiologiya İnstitutunun siyasətin fəlsəfəsi və sosiologiyası şöbəsinin müdiri, professor Rəna Mirzəzadə, Azərbaycan Yazıçılar Birliyi sədrinin müşaviri, yazıçı, tədqiqatçı Sayman Aruz, Dövlət İmtahan Mərkəzinin şöbə müdiri Afiqə Batıyeva, YAP Veteranlar Şurasının üzvü, professor Adilə Abasova, Vətən Müharibəsi Qəhrəmanı Zaur Hüseynov, YAP Veteranlar Şurasının üzvü Tahir Quliyev, biologiya elmləri doktoru, dosent Tubuxanım Qasımzadə kitabın əhəmiyyətindən bəhs ediblər. Bildiriblər ki, yeni nəşrdə Azərbaycanı Zəfərə aparan yol həm siyasi, həm də fəlsəfi baxımdan şərh edilir.

Sonra müəllifi Zərifə Quliyeva kitabın ərsəyə gəlməsində zəhməti olan hər kəsə təşəkkür edib.

**XQ**

# Azərbaycan Prezidentinin Mərkəzi Asiya zəfəri

**II MƏQALƏ**

### Siyasi institutlaşma və inteqrasiya: perspektivli model

Belə alınır ki, R.Dafın və şübhəsiz ki, digər çox sayda tədqiqatçının siyasi institutlaşma və inteqrasiya faktorlarını önə çəkmələrinin praktiki reallaşma modelləri asan proses deyildir. Bunu realpolitika çərçivəsində "C5+1" formulu üzrə regionla əməkdaşlıq etməyə çalışan böyük geosiyasi güclərin təcrübəsi bir daha təsdiq edir. Hələlik, ABŞ də daxil olmaqla Aİ, Çin, Rusiya, Yaponiya, Cənubi Koreya, İran, Türkiyə tam uğur əldə edə bilməmişlər. Onlardan biri digərindən hansısa konkret əməkdaşlıq sferasında üstün mövqedə ola bilərlər, ancaq kompleks halında qalıcı uğur gözə dəymir. Deməli, məsələ tam olaraq dövlətin qüdrətindən fiziki, maddi, maliyyə və hərbi cəhətdən asılı deyildir. Burada məharətli diplomatiya və səmimi niyyət əsas təşkil edir. Bu kriteriyalar daxilində regionun siyasi institutlaşmasına və inteqrasiyasına necə dəstək olmaq mümkündür?

Bizcə, bu suala bütün cavablar həm H.Hacıyevin obrazlı ifadəsi, həm də realpolitikanın Mərkəzi Asiya kontekstində malik olduğu xüsusiyyətlər prizmasında axtarılmalıdır. Bu aspektdə Azərbaycan Prezidentinin siyasi-diplomatik fəaliyyətinin üstün parametrlərini aydınlaşdırmaq gərəkdir.

### Ümumi siyasi yanaşma: "Əliyev formulu"

Çox maraqlı və əhəmiyyətlidir ki, Prezident İlham Əliyevin Mərkəzi Asiya dövlətləri ilə əməkdaşlığa yanaşmasının iki özəl cəhəti mövcuddur.

Birincisi, İlham Əliyev region dövlətlərinin siyasi institutlaşmasının motivəedici qüvvəsini başqa geosiyasi aktorlar kimi "kənardan qəbuletdirmə" üsulu ilə deyil, regiondaxili siyasi mühitin hər bir dövlətin milli maraqlarının təmin olunmasına imkan verən "immanent gücləndirici faktorları" stimullaşdırma yolu ilə daha da inkişaf etdirir. Burada "immanent" termini fəlsəfədən reduksiya edilmişdir və siyasi anlamı regionun daxili inkişaf potensialını müəyyən edən əsas faktorların aktuallaşdırılmasını nəzərdə tutur.

Siyasətçi öncə həmin faktorları düzgün müəyyən etməlidir. Azərbaycan Prezidentinin Mərkəzi Asiya siyasətinin müşahidəsi göstərir ki, İlham Əliyev regionun etnik deyil, tarixi, iqtisadi, informasiya, energetik, təbii resurslar, demoqrafik və coğrafi özəlliklərini önə çəkir. Bu kontekstdə yanaşanda Mərkəzi Asiya dövlətləri arasında ayrı-seçkilik ehtimalı sıfra enir.

Bundan başqa, vurğulanan nəzəri özəlliyi praktiki reallaşdırmaq üçün Azərbaycan dövlət başçısı konkret layihə təşəbbüsləri irəli sürür. Onları iki faktor birləşdirir. Birincisi, Orta Dəhliz vasitəsi ilə "Yeni İpək Yolu"nun nəqliyyat-logistika infrastrukturunun Mərkəzi Asiya kəsimini formalaşdırmaq. Bu aspektin bir tərəfi birbaşa Zəngəzur dəhlizi məsələsini həm də Çin-Mərkəzi Asiya tandeminin mühüm geosiyasi məqsədlərindən birinə çevirir.



İkincisi, İlham Əliyev regionun "yaşıl" məkana çevrilməsi üçün bərpaolunan enerji layihələrini ayrıca aktuallaşdırır. Bu prosesin də inkişafı region dövlətlərinin hər birinin öz daxili imkanlarını səfərbər etməsi sayəsində mümkündür.

Beləliklə, Azərbaycan Prezidenti Mərkəzi Asiya məsələsinə özünün maraqları kontekstində deyil, bütövlükdə regionun perspektivli qalıcı inkişafı prizmasından da yanaşır.

İkinci özəl cəhət Azərbaycan Prezidentinin Mərkəzi Asiya dövlətlərinin hər biri üçün ayrılıqda və eyni zamanda, kompleks halında elə təhlükəsizlik arxitekturası nümunəsi təklif etməsi ilə bağlıdır ki, paralel olaraq iki məqamı əhəmiyyətli edir. Onlardan birincisi, regionun hər bir dövlətinin təhlükəsizliyinin təməlində (və ya mərkəzində) milli təhlükəsizliyinin təminini görməsi ilə bağlıdır. İkincisi isə bu prosesin perspektivli və strateji xarakterli olması üçün Azərbaycanla sıx əməkdaşlığa ehtiyac hiss etmələri ilə əlaqəlidir. Çünki vurğulanan şərtlər daxilində Azərbaycan təkcə mühüm təminedici və istiqamətverici güc kimi deyil, həm də birgə fəaliyyətə açıq qardaş olaraq qəbul edilir (bura birmənalı olaraq Tacikistan da daxildir).

Məhz vurğulanan özəllikləri nəzərə alaraq və onun dinamikasına uyğun olaraq, Mərkəzi Asiyanın 5 dövləti siyasi institutlaşmalarını yeni səviyyəyə yüksəldirlər. Bu da avtomatik olaraq regional inteqrasiya modelini formalaşdırır.

### Mərkəzi Asiyada inteqrasiya: çoxpilləli model

Təcrübə göstərir ki, "C5+1" ölkələrinin heç biri dayanıqlı və qalıcı (davamlı) regional inteqrasiyanı təmin etmir. Siyasi institutlaşmada müəyyən yeniliklər müşahidə edilir. Məsələn, region dövlətlərinin Məşvərət Görüşü formatı işləyir. Müxtəlif sferalar üzrə idarəetmədə yeniliklər baş verə bilir. Lakin bütün bunların regionun inteqrasiyası üçün dayanıqlı dəyişiklik olması məsələsi hələ açıqdır. Görünür, burada daha geniş miqyasda birləşdirici faktora ehtiyac mövcuddur.

Hazırda Mərkəzi Asiyada inteqrasiya prosesi çoxpilləli xarakter almışdır. Birinci, region dövlətlərinin özləri arasında inteqrasiyanın bütöv regional mövqenin formalaşması mühiti yaradan birləşdirici proseslər. İkinci, "C5+1" formulu üzrə fəaliyyət göstərən hər bir "1"in – ABŞ, Aİ, Çin, Rusiya, Yaponiya, Cənubi Koreya, İran, Türkiyə, nəzərdə tutduğu inteqrasiya prosesi. Üçüncü, "C5+1"-i "C6+1"-ə transformasiya edən inteqrativ proses. Sonuncu formulu Azərbaycan yaratmışdır.

Beləliklə, vurğulanan üç inteqrasiya pilləsi reallıqda Mərkəzi Asiyanı mürəkkəb geosiyasi orqanizmə çevirməkdədir. Gözləmək olar ki, bu istiqamətdə proseslər inkişaf edəcək və regionda gərginlik, risklər və müxtəlif təhdidlər artacaq. Çünki vurğulanan böyük güclər arasında regional münasibətdə ortaq mövqe fomalaşmamışdır. Onlar mütləq münasibətlərini bu və ya digər formada aydınlaşdırmağa cəhd edəcəklər. Bunun fonunda "C6+1"-in fərqli situasiya yaratdığını görmək mümkündür.

### "C6+1": yeni miqyasa çıxış formulu

Bu artıq Mərkəzi Asiyanın bütöv region kimi regionlararası miqyasa çıxarılmasıdır. Yəni bu formul göstərir ki, artıq böyük güclər yalnız "C5"-lə deyil, "C6" ilə münasibət qurmalıdır. Geosiyasi aspektdə bu da Xəzər hövzəsi ətrafında Mərkəzi Asiya ilə Qafqazı vahid geosiyasi məkan halına gətirməkdir. Burada maraqlı və yeni məqam (regionlararası inteqrasiyanın məntiqi baxımından) Qafqazı yalnız bir dövlətin – Azərbaycan Respublikasının, təmsil etməsi ilə əlaqədardır. Burada formulun Azərbaycanın "C5"-ə əlavə olunması üsulu ilə ayrıca region kimi "C6"-ya transformasiya etməsi, əlbəttə, həm coğrafi, həm də geosiyasi baxımdan şərtidir. Bununla faktiki olaraq siyasi, geosiyasi, əməkdaşlıq və təhlükəsizlik kontekstlərində ciddi səmərəsi ola biləcək formul yaradılmışdır. Və burada aparıcı rol Azərbaycana aiddir. Yəni "C6"-nın birləşdiricilik rolunda müəyyənedici funksiya Bakının üzərinə düşür.

Bu, ümumilikdə maraqlı gedişdir və hər bir iştirakçı dövlət üçün oyun qaydalarını dəyişir. Artıq deyək ki, Rusiya və ya Çin Mərkəzi Asiyaya aid olan bütün prinsipial məsələləri yalnız həmin regionun 5 dövləti ilə deyil, həm də Azərbaycanla müzakirə etməli olacaqlar. Eyni qayda ABŞ, Aİ, Yaponiya, Cənubi Koreya, İran və Türkiyəyə də aiddir.

Bunlardan başqa, nəzəri olaraq regionlaşmanın geosiyasi modelləri aspektində yenilik baş vermişdir. Bu, əslində yeni regionalizmin digərlərindən fərqli nümunəsinin yaranması deməkdir. Onun iki özəl cəhətini görürük. Birincisi, bir ölkənin bütöv regionu təmsil etmək statusunun formalaşmasının beynəlxalq münasibətlər sistemində legitimliyi. İkincisi, "yeni region"un beynəlxalq layihənin ("Yeni İpək Yolu") həyata keçməsi üçün qarşılıqlı faydalı əməkdaşlığı ölkələrin milli təhlükəsizliyinin təmini ilə əlaqələndirməsi.

Bundan başqa, ikinci özəl cəhətdə əsas funksiyanın "C6"-da Cənubi Qafqazı təmsil edən Azərbaycanın üzərinə düşməsi çox əhəmiyyətli məqamdır. Bu məqamda Prezident İlham Əliyevin siyasi-diplomatik məharətinin dərkinin aktuallığı aydın görünür.

### Enerji strategiyası və milli təhlükəsizlik

Prezident İlham Əliyev Azərbaycanın enerji strategiyasının həyata keçən proses kimi substantiv aspektdə üç mərhələsini vurğulamışdır. Üçüncü mərhələ 2015-2016-cı illərdə Avropa İttifaqının Qlobal strategiyasını qəbul etməsi ilə başlamışdır. Orada Aİ rəqəmsal inkişaf və "yaşıl ölkə" (bərpaolunan enerji) istiqamətlərinin strateji məqsədlər sırasında yer alması ifadə etmişdir. Azərbaycan dərhal enerji strategiyasında hər iki məqamı ciddi surətdə nəzərə almağa başlamışdır. Bu istiqamətdə Prezident İlham Əliyevin atdığı addımlar aydın və dəqiq olmuşdur.

2022-ci il iyulun 18-də Bakıda "Azərbaycan Respublikası ilə Avropa Komissiyası tərəfindən təmsil olunan Avropa İttifaqı arasında enerji sahəsində Strateji Tərəfdaşlığa dair Anlaşma Memorandumu" imzalanmışdır. İmzalanma mərasimindən sonra dövlətimizin başçısı KİV-ə verdiyi bəyanatda demişdir: "Enerji sahəsində apardığımız fəal əməkdaşlığın on beş ildən artıq tarixi var. Bugünkü memorandum aramızda imzalanmış birinci sənəd deyil. Biz 2006-cı ildə anlaşma memorandumunu və 2011-ci ildə "Cənub qaz dəhlizi" ilə bağlı birgə bəyannaməni imzalamışıq. Bir sözlə, yaxşı tarixçəmiz və nailiyyətlərimiz var. Azərbaycanın başlatdığı və Avropa İttifaqının, o cümlədən tərəfdaşlarımızın dəstəklədiyi enerji layihələri Avropanın enerji xəritəsini tamamilə dəyişir. Biz neft hasilatı ilə başladıq. Xəzər dənizini Qara dəniz və Aralıq dənizi ilə birləşdirən neft kəmərini çəkdik".

Deməli, öncədən dəqiq müəyyən edilmiş geosiyasi məqsəd olmuşdur: Xəzər dənizini Qara dənizi və Aralıq dənizini vahid əməkdaşlıq və təhlükəsizlik məkanına çevirmək. Bu, obrazlı desək, Qərb siyasətçilərinin də XXI əsrdə üstünlük verdikləri "üç dəniz sistemi" növlü, lakin Azərbaycanın aparıcı rol oynayacağı layihədir. Hazırda bu əməkdaşlıq və təhlükəsizlik layihəsinin Xəzər Dənizi hissəsi iki istiqamətdən çox aktuallaşmışdır.

Birinci istiqamət Xəzər hövzəsi enerji resurslarının Orta Dəhliz kontekstində səmərəli nəqli ilə bağlıdır. İkinci istiqamət isə bu prosesdə Azərbaycanın Şərqlə Qərb arasında sabit və faydalı əməkdaşlığı təmin edən, enerji təhlükəsizliyi ilə milli təhlükəsizliyi uyğunlaşdıran "mediator" rolunu oynaması ilə əlaqəlidir. Bu baxımdan Prezident İlham Əliyevin fikirlərinə davam edərək aşağıdakı məqamları önə çəkməsi çox əhəmiyyətlidir və "C6" formulu prizmasında xüsusi anlamı vardır. İlham Əliyev Memorandumun imzalanma mərasimindən sonra KİV-ə verdiyi bəyanatda vurğulamışdır: "...qazın hasilatını artıracağıq. Biz bərpaolunan enerjidən istifadə edərək ixrac üçün daha çox qazı təmin edəcəyik. Bu, səylərimiz sayəsində yaradılmış və Avropa İttifaqının dəstəklədiyi çox üstün vəziyyətdir".

Azərbaycan rəhbəri vurğulanan aspektlərdə fikirlərini Çernobbioda keçirilən beynəlxalq forumda, Sofiyada Yunanıstan-Bolqarıstan İnterkonnektorunun açılışında və Buxarestdə "Azərbaycan Respublikası, Gürcüstan, Rumıniya və Macarıstan hökumətləri arasında "yaşıl enerji"nin inkişafı və ötürülməsi sahəsində strateji tərəfdaşlıq haqqında Saziş"in imzalanması mərasimində də ifadə etmişdir.

**(ardı var)**

***Füzuli QURBANOV,***
***XQ-nin analitiki,***
***fəlsəfə elmləri doktoru***

# Milli Məclisdə gələn ilin büdcə müzakirələri

**(əvvəli 1-ci səhifədə)**

Daha sonra bir sıra qurum və nazirliklər büdcə layihəsi ilə bağlı rəylərini bölüşdülər. Milli Məclisin deputatı, iqtisadi siyasət, sənaye və sahibkarlıq komitəsinin sədri Azər Əmiraslanov çıxışında bildirdi ki, 2026-cı il büdcə zərfi həm milli iqtisadiyyatın dayanıqlığını, həm də dövlətin müdafiə və sosial prioritetlərini əks etdirir: "Büdcə maliyyətcə maliyyə təhlükəsizliyi tədbirlərindən, iqtisadi sabitliyin qorunmasından və sosial müdafiənin genişləndirilməsindən ibarətdir".

Maliyyə naziri Sahil Babayev qeyd etdi ki, büdcə zərfində resursların strukturunda qeyri-neft sektorunun rolunun artırılması əsas prioritet kimi müəyyənləşdirilib: "Neftdən asılılığın azaldılması, valyuta ehtiyatlarının qorunması və iqtisadi diversifikasiyanın dərinləşdirilməsi büdcə siyasətinin mərkəzində dayanır. Həmçinin büdcədənkənar vəsaitlərin artırılması, regionların maliyyələşdirilməsi və dayanıqlı gəlirlərin genişləndirilməsi nəzərdə tutulur. Sosial sahəyə ayrılan vəsaitlərdə də əhəmiyyətli artımlar planlaşdırılıb. İcmal büdcə çərçivəsində səhiyyə xərcləri 3,7 milyard manat təşkil edəcək. Dövlət Sosial Müdafiə Fondunun gəlir və xərclərinin təqribən 727 milyon manat və ya 11 faiz artırılması nəzərdə tutulur. İşsizlikdən Sığorta Fondunun gəlirləri isə 260,7 milyon manat səviyyəsində proqnozlaşdırılır. Pensiya və sosial dəstək proqramlarına göstərilən diqqət gələn il üçün də gücləndirilmiş şəkildə davam edəcək".

Nazir işğaldan azad olunmuş ərazilərin bərpası və "Böyük Qayıdış" proqramının növbəti ildə də prioritet olaraq saxlanıldığını vurğuladı: "Bu istiqamətdə büdcə



xərclərinin təxminən 8,4 faizi — 3,5 milyard manat ayrılması planlaşdırılır. Vəsait infrastrukturun bərpası, məskunlaşma və sosial-iqtisadi reinteqrasiya tədbirlərinin maliyyələşdirilməsinə yönələcək. Ərzaq təhlükəsizliyi üzrə bəzi konkret paketlər, o cümlədən 513 milyon manatlıq rayonlaşdırılmış tədbirlər mövcud olduğu bildirilir. Büdcə, həmçinin investisiya yönümlü məzmun daşıyır. İqtisadi infrastrukturun inkişafı, nəqliyyat-loqistika layihələri, o cümlədən regional xətlərin maliyyələşməsi prioritetdir. Sahibkarlığın stimullaşdırılması üçün vergi və inzibati islahatlara sinxron şəkildə yeni tədbirlərin icrası planlaşdırılır ki, bu da özəl sektorun fəaliyyətini genişləndirməyə xidmət edəcək".

Azərbaycan Mərkəzi Bankının (AMB) sədri Taleh Kazımov çıxışında ölkə iqtisadiyyatında müşahidə edilən artım tempindən bəhs etdi. Sədr bildirdi ki, yeni qlobal reallıqların formalaşdığı şəraitdə cari ilin 10 ayında ölkə iqtisadiyyatında artım davam edib: "Bu dövrdə iqtisadi artımın əsas mənbəyi qeyri-neft-qaz sektoru olub. 2025-ci ilin yanvar-oktyabr aylarında ümumi daxili məsulun real ifadədə 1,3 faiz artımı müşahidə etdik. O cümlədən qeyri-neft-qaz sektorunda isə 3,1 faiz artım qeyd alınıb. Mərkəzi Bankın iqtisadi artımla proqnozu nikbindir. Bu ilin sonuna kimi ümumi daxili məhsulun 2,2 faiz, 2026-cı ilin sonuna isə 2 faiz olacağı proqnozlaşdırılır. Qeyri-neft-qaz ümumi daxili məhsula gəldikdə isə bu ilin sonunda 3,7 faiz, növbəti ildə isə 4,4 faiz olacağı proqnozlaşdırılır".

Hesablama Palatasının sədri Vüqar Gülməmmədov plenar iclasda "Azərbaycan Respublikasının 2026-cı il dövlət büdcəsi haqqında" qanun layihəsinin müzakirəsi zamanı bildirdi ki, dövlət büdcəsindəki əsas xərclərdən ikisi–işğaldan azad olunmuş ərazilərə ayrılan vəsait və dövlətəsaslı vəsait qoyuluşu xərcləri – ÜDM-ə ən əhəmiyyətli təsir göstərəcək komponentlərdir. Sədr qeyd etdi ki, növbəti il üçün bu xərclərin ümumi məbləği 6,2 milyard manat proqnozlaşdırılır: "Büdcədə bu xərclərin ÜDM-də payı 14,9 faiz təşkil edəcək. Lakin il ərzində büdcədə dəyişikliklər hesabına bu nisbət arta bilər. Əmək ödənişi üzrə xərclər isə təxminən 25 faiz səviyyəsində planlaşdırılır". V.Gülməmmədov çıxışında onu da bildirdi ki, dövlətəsaslı vəsait qoyuluşu xərcləri çərçivəsində növbəti ildə maliyyələşdiriləcək 194 layihənin ümumi dəyəri 17,7 milyard manat olaraq nəzərdə tutulur. Onun sözlərinə görə, vəsait beş yeni layihəyə və 189 davam edən layihəyə yönələcək. Bununla yanaşı, ümumi dəyəri 2 milyard manat olan 100 layihənin 2026-cı ildə başa çatdırılması üçün 661,5 milyon manat vəsait proqnozlaşdırılıb: "Dövlətəsaslı vəsait qoyuluşu xərclərinin 850 milyon manatı beynəlxalq kreditor qurumların təqdim etdiyi kreditlər hesabına maliyyələşdiriləcək. Cari ilin doqquz ayında bu xərclərin icra səviyyəsi cəmi 13 fiaz təşkil edib və büdcənin icrasından geri qalınması müşahidə olunub".

* * *

MM-in plenar iclasında ərzaq məhsullarının qiymətinin qalxmasından və tibbi xidmət səviyyəsinin aşağı olmasından da danışıldı.

Büdcə müzakirələri zamanı bir sıra deputatlar çıxış etdi. Milli Məclisin deputatı, komitə sədri Fazil Mustafa Parlamentari üzvlərinin büdcənin ölkənin qarşısında duran riskləri doğru təsbit etməli və onun optimal qarşılama yolunu tapmalı olduğunu bildirdi: "Azərbaycan əhalisinin əmək haqqı 2500 manatdan yuxarı olan hissəsi əhali sayının 5,5 faizini əhatə edir. Qalan əhalinin 1,5 milyon nəfəri 2500 manatdan aşağı maaş alır ki, bu, aztəminatlı insanların sayının əhəmiyyətli dərəcədə olduğunu göstərir. Ona görə də sosial xərclər o səviyyədə dəqiq təsnifləndirilir ki, bu, yoxsullaşma səviyyəsinin daha da aşağı düşməsinə imkan tanımasın".

Parlamentari ölkəmizdə ən vacib məsələlərdən birinin ərzaq təhlükəsizliyi riski olduğunu və ərzaq məhsullarının qiymətinin qalxmasının da böyük problemlər yaratdığını vurğuladı: "Ən maraqlısı odur ki, Azərbaycan əhalisinin 36 faizinin kənd təsərrüfatında çalışması qeyd olunsa da, bunların ümumi daxili məhsulda payı 6 faizidir. Bu istənilən Avropa ölkələri ilə müqayisədə çox aşağı çəkidir. Kənd təsərrüfatı, əslində, bu rəqəmlərin özü də çox sürətlə dəyişəndir. Bu sahədə çalışanların sayında sürətlə azalma gedir. Ona görə də birinci növbədə, burada qeyd olunduğu kimi, milli iqtisadiyyatımızda gəlir yaratmaq potensialı, sahibkarlıq potensialından istifadə etməyin səmərəliliyi vacib şərtlərdən biridir. Başqa ölkələrdə daha çox diqqət qeyri-neft sektorunda turizmin inkişafına yönəlir".

Milli Məclisin Səhiyyə komitəsinin sədri Əhliman Əmiraslanov büdcə müzakirəsi zamanı qeyd etdi ki, ilkin tibbi xidmət regionlarda çox aşağı səviyyədədir, həkim çatışmazlığı da problem olaraq qalır: "Bu problem xüsusilə bölgələrdə, kənd yerlərində özünü daha qabarıq göstərir. Bölgələrdə olan tibb məntəqələrinin böyük qismi istifadəyə yararsız vəziyyətdədir, ciddi kadr çatışmazlığı var".

***Tacir SADIQOV***
***XQ***



# Top İrəvanın meydanındadır

## *Bakı sülh əlini uzatdı, revanşistlər "istehsalat döyüşü"nə başladılar*

**Prezident İlham Əliyevin 33 illik fasilədən sonra Ermənistan istiqamətində yüklərin Azərbaycan ərazisindən tranzitinə qoyulan məhdudiyyətləri aradan qaldırmaq barədə qərarı Cənubi Qafqazın müasir tarixində regionun gələcək arxitekturasını müəyyən edən, dərin strateji məna daşıyan mühüm dönüş nöqtəsidir. Vaşinqtonda avqustun 8-də imzalanmış sülh sazişlərinin "kağız üzərində qalacaq növbəti sənəd" olduğunu düşünən ən qatı skeptiklər belə, Prezident İlham Əliyevin tarixi bəyanatından sonra mövqelərini yenidən nəzərdən keçirməyə məcbur oldular. Onlar etiraf etdilər ki, Bakının sülh gündəliyini konkret, cəsarətli və nəticəyə hesablanmış addımlar tamamlayır.**

Həmin qərarın Qazaxıstan Prezidenti Kasım-Jomart Tokayevlə birgə mətbuat konfransında Astanada açıqlanması isə hadisəyə daha geniş geosiyasi məzmun qataraq Bakının addımının bütün Avrasiya məkanında kommunikasiya xətlərinin açılmasını və yeni iqtisadi əlaqələrin formalaşmasını hədəfləyən daha böyük strategiyanın tərkib hissəsi olduğunu göstərdi. Azərbaycan üzərindən Ermənistana göndərilən ilk tranzit yükün məhz Qazaxıstan buğdası olması, ardınca isə "Rusiya Dəmir Yolları"nın da həmin marşrutdan fəal şəkildə istifadə etməyə başlaması Azərbaycanın regionda yaratdığı yeni reallıqların sülh və əməkdaşlıq üçün hansı misilsiz imkanlar açdığını sübuta yetirdi. Lakin diqqətçəkən məqam bu tarixi fürsətə Ermənistan daxilində verilən reaksiyadır. Revanşist müxalifətin və ona yaxın media qurumlarının açılan tranzit dəhlizinin əhəmiyyətini kiçiltmək, Qazaxıstan buğdasının keyfiyyəti ətrafında absurd iddialar yaymaq və prosesi ləkələmək üçün başlatdığı qarayaxma kampaniyası, sadəcə, siyasi mübarizə deyil. Həmin kampaniya, əslində, Ermənistan cəmiyyətinin siyasi elitasının üzləşdiyi dərin kimlik böhranının, suveren dövlət kimi mövcud olmaqla köhnə vassal asılılığını davam etdirmək arasında yaşadığı ağrılı seçimin təzahürüdür. "Buğda savaşı" adlandırıla biləcək proses Ermənistan daxilində sülhə və müstəqilliyə meyilli qüvvələrlə daim gərginlik və xarici asılılıqda maraqlı olan revanşist-marionet dairələr arasındakı toqquşmanın açıq şəkildə nümayişidir.

Prezident İlham Əliyevin tranzit qərarının siyasi məzmunu onun iqtisadi faydalarından qat-qat dərindir. Həmin addım, ilk növbədə, Azərbaycanın 44 günlük Vətən müharibəsindəki Zəfərdən sonra regionda formalaşdırdığı yeni geosiyasi nizamın memarı və aparıcı qüvvəsi olduğunu təkrar təsdiqlədi. Otuz il boyunca Ermənistanın və onun havadarlarının uydurduğu "blokada" mifini tək qərarla darmadağın edən rəsmi Bakı topu İrəvanın meydanına atdı. Azərbaycan nümayiş etdirdi ki, regionda kommunikasiyaların açılmasının, iqtisadi əlaqələrin bərpasının və dayanıqlı sülhün əldə olunmasının əsas tərəfdarı məhz odur. İndi seçim etmək növbəsi Ermənistan cəmiyyətinindir: ya keçmişin düşmənçilik xülyalarından əl çəkərək təklif olunan əməkdaşlıq imkanlarından faydalanacaq, ya da revanşist qüvvələrin girovluğunda qalaraq inkişafdan, inteqrasiyadan təcrid olunmuş vəziyyətini davam etdirəcək. Bu qərar, eyni zamanda, beynəlxalq vasitəçilərə də aydın mesaj idi. Cənubi Qafqazda sülhün və əməkdaşlığın açarı Brüsseldə, Vaşinqtonda və ya Moskvada deyil, məhz Bakıdadır.

İlk yükün məhz Qazaxıstan buğdası olması simvolik hadisə idi. Bu proses Qazaxıstana və digər Mərkəzi Asiya ölkələrinə aydın mesaj verdi ki, Azərbaycanla strateji tərəfdaşlıq onlar üçün yeni ixrac bazarlarına, dünyaya çıxış imkanları deməkdir. Ermənistan üzərindən açılan nəqliyyat xətti gələcəkdə bütün kommunikasiyalar açılacağı təqdirdə, Orta Dəhlizin şaxələnməsi və potensialının artması üçün yeni perspektivlər yaradır. Beləliklə, diplomatiya qrosmeystri İlham Əliyev bir gedişlə həm Ermənistan qarşısında sülh gündəliyinə sadiqliyini nümayiş etdirdi, həm beynəlxalq ictimaiyyətə konstruktiv mesaj verdi, həm də Mərkəzi Asiyadakı tərəfdaşları ilə əlaqələrini daha da gücləndirdi.

Amma Ermənistandakı müxalif qüvvələrin irəli sürdüyü "arqumentlər", guya, Qazaxıstan buğdasının Rusiya buğdasından baha olması, Azərbaycan üzərindən daşınmanın "qeyri-səmərəliliyi" və taxılın "dördüncü sort" və heyvan yemi üçün yararlı olması iddiaları heç tənqidə belə tab gətirmir. Ermənistan hökumətinin rəsmi qurumlarının həmin iddiaları təkzib edərək, həm Rusiya, həm də Qazaxıstan buğdasının un istehsalı üçün tam yararlı olduğunu bəyan etməsi müxalifətin yalanlarını ifşa etdi.

Lakin həmin kampaniyanın arxasındakı real motivləri anlamaq üçün iqtisadi rəqəmlərdən və buğdanın keyfiyyətindən daha dərinə Ermənistanın siyasi psixologiyasına, geosiyasi asılılıqlarına nəzər salmaq lazımdır. Revanşist müxalifət üçün əsl problem Ermənistanın alternativ əldə etməsidir. Azərbaycan üzərindən tranzit açılana qədər Ermənistanın buğda idxalı, demək olar, yüz faiz Rusiyadan asılı idi. Strateji ərzaq məhsulu olan taxıl üzərindəki total monopoliya Moskva üçün İrəvana təsir etməyin ən güclü rıçaqlarından biri idi. Azərbaycanın açdığı dəhliz isə bu monopoliyanı darmadağın edir. Ermənistan artıq strateji məhsulu, həm də şərqdən Qazaxıstandan və potensial olaraq digər Mərkəzi Asiya ölkələrindən almaq imkanı əldə edir.

Məhz suverenliyin möhkəmlənməsi perspektividir ki, Ermənistandakı rusiyayönlü dairələri, revanşistləri dəhşətə gətirir. Onların siyasi mövcudluğu birbaşa Ermənistanın Rusiyadan tam asılı vəziyyətdə qalmasına bağlıdır. Onlar üçün müstəqil, çoxvektorlu siyasət yürüdən, qonşuları ilə normal münasibətlər quran Ermənistan, sadəcə olaraq, siyasi səhnədən silinmələri deməkdir. Buna görə də onlar sülh gündəmini gücləndirə biləcək istənilən addıma – kommunikasiyaların açılmasına, ticarətin bərpasına və hətta buğda idxalının şaxələndirilməsinə belə bütün gücləri ilə müqavimət göstərirlər. Onların nüfuzlu iş adamı Samvel Aleksanyanı hədəfə alması da təsadüfi deyil. Aleksanyanı, guya, hökumətin sifarişi ilə "qeyri-sərfəli" idxal təşkil etməkdə günahlandırmaqla, həm Paşinyan hökumətini korrupsiyada ittiham etməyə, həm də digər iş adamlarına mesaj verməyə çalışırlar ki, Azərbaycanla bağlı hər hansı iqtisadi layihədə iştirak etmək onlar üçün ciddi problemlər yaradacaq. Hətta fərz edilsə ki, erməni iş adamlarını Qazaxıstan buğdasını Azərbaycan üzərindən almağa məcbur ediblər, bu, təcrid vəziyyətində olan, daxili tələbatının böyük hissəsini idxal hesabına ödəyən Ermənistan üçün niyə "pis xəbər" sayılmalıdır? Sualın cavabı aydındır: revanşistlər üçün Ermənistan iqtisadiyyatının çətinliklərlə üzləşməsi, xalqın narazılığının artması və sülh prosesinin pozulması hakimiyyətə qayıtmaq üçün yeganə şansdır.

Kampaniyanın arxasında dayanan xarici motivlər də aydın görünür. Azərbaycan üzərindən tranzitin açılması Ermənistan bazarında Rusiya ixracatçılarının rəqabətlə üzləşməsi deməkdir. Təsadüfi deyil ki, tranzit açıldıqdan az sonra Rusiyanın Xarici Kəşfiyyat Xidməti Ermənistan hökumətinin, guya, Rusiya buğdasından tamamilə imtina etməyə hazırlaşdığı, daha bahalı Ukrayna buğdasına keçəcəyi və qiymət fərqinin isə guya, Avropa İttifaqı tərəfindən kompensasiya olunacağı barədə heç bir fakta söykənməyən açıqlama yaydı. Həmin açıqlama birbaşa Paşinyan hökumətinə ünvanlanmış xəbərdarlıq və təzyiq cəhdi idi. Bununla Moskva göstərməyə çalışırdı ki, İrəvanın iqtisadi siyasətdə müstəqil addımlar atmasını diqqətlə izləyir və buna imkan verməyəcək.

Azərbaycan Prezidentinin tranzitin açılması ilə bağlı qərarı Cənubi Qafqazda yeni dövrün başlanğıcını simvolizə edən geosiyasi hadisədir. Adi buğda idxalı ətrafında qopan fırtına Ermənistanın gələcəyi uğrunda gedən mübarizəni üzə çıxardı. Bu mübarizə sülh və əməkdaşlıq yolu ilə suverenliyini möhkəmləndirmək və inkişaf etmək istəyən Ermənistanla keçmişin revanşist xülyalarından əl çəkməyən, ölkəni daimi münaqişə və xarici asılılıq buxovunda saxlamaq istəyən qüvvələr arasında gedir.

***Yusif ŞƏRİFZADƏ***
***XQ***

# Hakan Fidanın mesajı – Ermənistan üçün ev tapşırığı

## *Türkiyə Cənubi Qafqazda barış gündəminə sadiqdir*

**Türkiyənin xarici işlər naziri Hakan Fidan ölkəsinin Ermənistanla münasibətləri normallaşdırmaq şərtini açıqlayıb. Heç şübhəsiz, onun bildirdikləri, eyni zamanda, son vaxtlar Azərbaycan-Ermənistan sülhü ilə paralel şəkildə Ankara-İrəvan normallaşması məsələsindən söz açanlara da cavabdır.**

Əslində, H.Fidanın Türkiyə Böyük Millət Məclisinin Plan və Büdcə Komitəsində rəhbərlik etdiyi qurumun 2026-cı il büdcəsinin müzakirəsi zamanı söylədiklərinə "cavab" kontekstindən yanaşıb durumu dramatikləşdirmək yerinə düşmür. Çünki qardaş ölkənin XİN rəhbərinin dediyi kimi, Türkiyənin Ermənistanla konturlarını dəfələrlə açıqladığı siyasəti mövcuddur. Yəni Ankara, ümumən, normallaşma prosesində maraqlıdır. Amma...

Bəli, Türkiyə rəsmiləri Ermənistanla siyasət barədə dəfələrlə açıqlama veriblər. Siyasətdə isə başlıca məqam budur: Ankaranın Cənubi Qafqaza yanaşmasında Azərbaycan amili ön planda dayanır. Deməli, Fidanın "Azərbaycan və Ermənistan sülh müqaviləsini imzaladıqda, İrəvanla münasibətləri normallaşdırmağa hazırıq" şəklində ifadə etdiyi fikir təəccüblü sayılmamalıdır.

Ancaq Türkiyə XİN rəhbəri hansı sözü nə zaman dilə gətirdiyinin və necə mesaj verdiyinin fərqindədir. Qardaş ölkə, loru dildə desək, öküzü kəsib bıçağı üstündə saxlamağın tərəfdarı deyil. Deməli, H.Fidanın söylədikləri həm də Türkiyənin Ankara-İrəvan münasibətlərinin qurulması şərtinə sadiqliyinin növbəti dəfə vurğulanmasıdır.

H.Fidanın açıqlaması göstərir ki, qardaş ölkə Cənubi Qafqazda sülh prosesinə son dərəcə fundamental yanaşır. Fundamentallıq isə Azərbaycanın yekun sülh müqaviləsi üçün irəli sürdüyü şərtə bağlıdır. Məlum olduğu kimi, rəsmi Bakı barış sazişinin Ermənistan konstitusiyasında dəyişiklikdən sonra imzalanmasında israrlıdır. Dəyişiklik edilməli, ölkənin əsas qanununun işğalçı mahiyyət daşıyan İstiqlaliyyət Bəyannaməsinə istinadı aradan qalxmalıdır.

Sözügedən istinadın aradan qalxması Ermənistanın Azərbaycana qarşı ərazi iddiasının olmaması kimi qəbul edilir. Məsələ ondadır ki, Ermənistanın 1990-cı ildə qəbul edilmiş İstiqlaliyyət Bəyannaməsində "Dağlıq Qarabağ Muxtar Vilayəti" ifadəsi yer alır, dövlətin Azərbaycan ərazisindəki keçmiş muxtar vahidin Milli Şurası deyilən saxta qurumun qərarı ilə formalaşdığı vurğulanır. Bu sənəddə Türkiyəyə qarşı da ərazi iddiasının olduğu məlumdur.

Bəli, Türkiyədə Azərbaycan-Ermənistan yekun sülhünün fundamental mahiyyət daşımasının vacibliyini dərk edirlər. H.Fidanın açıqlaması bu yanaşmadan qaynaqlanır. XİN rəhbərinin söylədiklərinin mesaj yükünə gəlincə, bildirək ki, müxtəlif vaxtlarda istər rəsmi İrəvan, istərsə də onun xaricdəki havadarları Türkiyə-Ermənistan normallaşmasını, Azərbaycan-Ermənistan münasibətlərindən kənar tutmağa çalışıblar. Onlar hesab ediblər ki, İrəvan Bakı ilə anlaşmaya gəlməsə də, Ankaranın birinciyə münasibəti pozitiv olmalıdır. Hətta qardaş ölkəyə təzyiq göstərməyə də çalışıb və bildiriblər ki, guya Türkiyə Ermənistanı blokadada saxlayır.

Əlbəttə, hazırda belə deyimlər əhəmiyyətini itirib. Çünki erməni havadarları Ankaraya təzyiqin heç bir fayda verməediyini dərk ediblər. Habelə, indi başqa durum var. Durum isə heç də elə-beləðən yaranmayıb. Onu formalaşdıran Azərbaycanın göstərdiyi qətiyyətdir. Nəzərə alaq ki, Azərbaycan və Ermənistan arasında bu il avqustun 8-də Vaşinqtonda sülh müqaviləsinin paraflanmasından əvvəl baş nazir Nikol Paşinyan regional kommunikasiyaların açılması ilə bağlı plan irəli sürmüşdü. Həmin plana görə, Naxçıvana maneəsiz yol məsələsi arxa plana keçir, əvəzində Laçın-Kornidzor-Marqara marşrutu işə düşürdü. Yəni söhbət Azərbaycandan gələn yüklərin Laçından keçərək Ermənistanın Kornidzor vasitəsilə Marqaraya, yəni Türkiyə sərhədinə daşınmasından gedirdi.




Heç şübhəsiz, erməni iqtidarı bu yolla nəinki Azərbaycan üçün prinsipial məsələni, yəni Naxçıvana yolu heçə sayır, habelə qardaş ölkəni şirnikləndirmək yolu tuturdu. Onu da nəzərə alaq ki, Türkiyə ilə Ermənistanın sərhədindəki Marqara sərhəd buraxılış məntəqəsi Ermənistan tərəfindən təmir edilib. Bir müddət əvvəl Paşinyan hakimiyyətinin təmsilçiləri ora Türkiyədən gələn jurnalistləri də aparmış, siyasi fon yaratmağa çalışmışdılar...

H.Fidanın açıqlamasının digər prinsipial tərəfi də var. XİN rəhbəri bildirib ki, Ermənistanın regionda sülhə indiki qədər həvəsli olmasının ən böyük səbəbi Türkiyənin münasibətlərin normallaşdırılmasına dair niyyət bəyanatını görməsidir. Əlbəttə, bu belədir. Amma Türkiyə böyük dövlət kimi kiçik Ermənistanla konfliktə heç vaxt çalışmayıb. Ölkənin illər ərzindəki başlıca şərti bu olub ki, Azərbaycan torpaqlarının işğalına son qoyulsun.

Əlbəttə, Azərbaycan torpaqlarının işğalının aradan qalxması Ermənistana yeni imkanlar vəd edir. Bu səbəbdən Hakan Fidan qeyd edib ki, sərhədlərin açılması və iqtisadiyyatın dirçəldilməsi İrəvan üçün mühüm əhəmiyyətə malikdir. Ankaraya gəlincə, o, Cənubi Qafqazda dondurulmuş münaqişə vəziyyətini istəmir. Haqqında bir qədər əvvəl söz açdığımız barış mühitinə fundamental yanaşma həm də budur: "Əgər biz bu mərhələdə münasibətləri normallaşdırsaq, Ermənistanın Azərbaycanla sülh sazişini imzalaması üçün ən böyük səbəbini onun əlindən almış oluruq. Bu halda regionda dondurulmuş münaqişə ehtimalı ilə üzləşə bilərik. Biz bunu istəmirik".

Bir məqama da diqqət yetirək. H.Fidan Azərbaycan və Ermənistan arasında avqustun 8-də Vaşinqtonda əldə olunmuş razılaşmanın üzərində də dayanıb. Nazir bildirib ki, həmin razılaşmada iki məsələ yer almayıb. Onlardan birincisi Zəngəzur dəhlizi, digəri Ermənistan konstitusiyası ilə bağlı müəyyən məqamlardır. H.Fidan ölkəsinin mövqeyini bir qədər də konkretləşdirib: "Bu məsələlər həll edildikdən və Azərbaycan yekun sazişi imzaladıqdan sonra Türkiyə Ermənistanla sərhəd qapılarını açacaq".

Göründüyü kimi, Azərbaycan üçün prinsipial məqamlar Türkiyə prizmasından da eyni mahiyyətə malikdir. H.Fidan isə doğru vurğulayır ki, 8 avqust Birgə Bəyannaməsində Zəngəzur dəhlizi və Ermənistan konstitusiyasının dəyişdirilməsi zərurəti əksini tapmayıb. Amma həmin bəyannamədə Naxçıvana maneəsiz yoldan söz açılır ki, bu yolun Zəngəzur dəhlizi mahiyyəti var.

Ermənistan konstitusiyasına dəyişiklik məsələsinə gəldikdə, burada da prinsipiallıq gözlənilməkdədir. Hər halda, Birgə Bəyannamədə Ermənistanın daxili işi olan kontekst yer ala bilməzdi. Amma bu, o demək deyil ki, konstitusiya dəyişikliyi şərt anlamını itirir. Axı Prezident İlham Əliyev də avqustun 8-də, yəni Birgə Bəyannamənin imzalandığı gün Vaşinqtonda ölkəmizin media vasitələrinə müsahibəsində bildirmişdi: "Təbii ki, Ermənistanın, necə deyərlər, ev tapşırıqları da var. Bildiyiniz kimi, onların konstitusiyasında Azərbaycana qarşı ərazi iddiası məsələsi imkan vermədi ki, bu gün sülh sazişi imzalansın. Amma bu dəyişikliklər ediləndən sonra artıq sülh sazişi istənilən vaxtda imzalana bilər".

***Ə.RÜSTƏMOV***
***XQ***

# "Benilüks effekti"

## *Avropa İttifaqının güc mərkəzlərini yeniləşdirən səssiz eksperiment*

**Aİ üçün yeni Benilüks dövlətinin yaranması ideyası Avropa inteqrasiyasının düşüncə ənənəsini sınağa çəkən siyasi laboratoriyadır. Burada təsəvvürlər, güc balansı və Avropa gələcəyinə dair siyasi instinkt də yenidən kodlaşdırılır. Məsələ təkcə vahid iqtisadi məkanın qurulması deyil; əsl sual budur: Avropa sistemi böyük güclərin orbitində fırlanan klassik düzəndən çıxıb orta ölçülü, lakin yüksək məhsuldar bir aktorun təsirinə necə reaksiya verəcək?**



Benilüksün birliyə çevrilməsi Avropa xəritəsinə yeni bir siyasi ton qatır. Dövlətlərin çəkisi yenidən ölçülür, çünki Fransa–Almaniya tandeminin formalaşdırdığı ənənəvi narrativ ilk dəfə olaraq real alternativlə üzləşir. Bu isə nə müxalif blokdur, nə də radikal transformasiya çağırışı, sadəcə, daha sürətli düşünən, daha sərbəst manevr edən və innovasiya ritmini diktə etməyə çalışan bir mərkəzdir. Əsas maraqlı məqam isə budur ki, belə bir sürət Aİ üçün xeyirli olacaq, yoxsa əlavə risk?

Sürət, siyasi analitik dildə həm fayda, həm də təhlükədir. Benilüks kimi orta ölçülü, lakin koordinasiyası yüksək aktor uzun müzakirələrə bağlanmayan qərarlar verə, pilot layihələri sınaqdan keçirə və nəticələri Aİ-yə təklif edə bilər. Təbii ki, bu da Avropa kimi ağır bürokratik sistem üçün real nəfəsdir. Amma burada məntiqi bir sual ortaya çıxır: əgər bu model uğurlu olsa, digər üzvlər adaptasiyaya nə qədər hazırdır? Çünki yeni tənzimləmələri qəbul etməyən ölkələr Avropa daxilində sənaye və rəqəmsal bazar üzrə ikinci kateqoriyaya düşə bilər. Buna görə də Benilüksün sürəti həm maraq yaradır, həm də ehtiyat.

Bununla yanaşı, Benilüks balanslaşdırıcı siyasi ağırlıq da formalaşdırır. Ənənəvi Avropa siyasətində böyük dövlətlərin hegemoniyası çox vaxt koalisiya memarlığını məhdudlaşdırırdı. İndi isə daha çevik, daha praqmatik və regional sinerjilərə açıq bir mərkəz formalaşır. Mərkəz Şimali dəniz iqtisadiyyatından tutmuş rəqəmsal ticarət şəbəkələrinə qədər geniş spektrdə yeni diplomatik ittifaqlar qurmaq gücünə malikdir.

Əgər Benilüks institutlarla düzgün, şəffaf və qarşılıqlı koordinasiya mexanizmi qurarsa, bu aktor kompromislərin




katalizatoruna çevrilə bilər. Amma əgər əlaqələr parçalanmış və paralel sistemlər şəklində inkişaf edərsə, çoxsaylı güc mərkəzləri Avropada "bloklaşma" riskini yüksəldə bilər. Avropanın tarixi bizə göstərib ki, güc mərkəzlərinin sayı artdıqca, həm dinamika artır, həm də ziddiyyətlərin çoxalma ehtimalı.

Yeni dövlətin ən maraqlı tərəfi isə sürətləndirici potensialıdır. Vahid sənaye strategiyası, rəqəmsal bazara dair ortaq qaydalar və konsolidə olunmuş diplomatik xətt Benilüksü "normativ lokomotivə" çevirə bilər. O, Avropaya yalnız texnoloji model deyil, həm də ideya təqdim etmək gücünə sahib olar: şəxsi məlumat necə qorunmalıdır, süni intellekt necə tənzimlənməli, çip istehsalı hansı prioritetlərlə inkişaf etməlidir? Məhz bu suallar Aİ daxilində yeni normativ rəqabət doğura bilər.

Amma başqa bir sual da qaçılmazdır: bütün ölkələr bu lokomotivin ardınca gəlməyə hazır olacaqmı? Cavab aydındır – yalnız fayda real olduqda. Avropa siyasətinin soyuq hesablamaları belədir: nəticə ölçülə bilirsə, iqtisadi dəyəri görünürsə, dövlətlər qoşular, əks halda, yeni standartlar yalnız kağız üzərində qalacaq. Buna görə Benilüksün gələcəyi daha çox onun təqdim edəcəyi sübutlara bağlıdır: limanların məhsuldarlığı artır, çip sənayesi genişlənir, rəqəmsal xidmətlər Aİ-nin rəqabət gücünə real töhfə verirsə, bu model Avropanın qalan hissəsində də qəbul olunacaq.

Nəticəni bir cümlə ilə ifadə etmək çətindir, çünki Benilüksün ortaya çıxması həm imkanlar yaradır, həm suallar doğurur. Bütün bunlar Avropanın təkamül məntiqini dəyişə biləcək bir eksperimentdir. Uğurlu olduğu halda, Aİ-nin yeni ritmini təyin edəcək; uğursuz olduğu halda isə sürətli dəyişikliklərin yaratdığı parçalanmaya dair ibrət dərsi kimi yadda qalacaq.

* * *

Aİ institutları üçün hüquqi-siyasi nəticələr məsələsi də Benilüks modelinin ən mürəkkəb və eyni zamanda, ən strateji qatını təşkil edir. Çünki bir dövlətin yaranması Aİ-nin bütün güc arxitekturasını silkələyən hüquqi şokdur. İndiyə qədər dövlətlər blok daxilində öz suverenliklərini tədricən paylaşırdılar, indi isə üç ayrı üzv birləşib vahid hüquqi subyektə çevrilir. Sual dərhal ortaya çıxır: bu proses Aİ-nin qərarvermə mexanizmini necə dəyişəcək və ən əsası – veto sistemi bu yeni aktora hansı təsir gücünü verəcək?

Hüquqi səviyyədə ilk böyük dəyişiklik səs bölgüsündə meydana çıxacaq. Benilüks üç dövlət kimi deyil, vahid dövlət kimi təmsil olunacağı üçün Avropa Şurasında və Avropa Komissiyasında struktur dəyişiklikləri qaçılmazdır. Bu da sual doğurur: səs sayı azalırsa, təsir gücü də azalırmı? Əslində yox. Çünki təsir yalnız səs çoxluğundan gəlmir, həm də dövlətin arxasında duran iqtisadi və institusional gücdən formalaşır. Təsəvvür edin: Niderlandın texnoloji potensialı, Belçikanın diplomatik yükü və Lüksemburqun maliyyə həcmi birləşəndə ortaya çıxan aktor əvvəlkindən daha ağır çəkili olur. Səs sayı azalır, amma səsin çəkisi artır.

Burada isə daha maraqlı sual yaranır: Aİ-nin veto mexanizmi yeni reallıqda necə görünəcək? Eyni aktor həm Şengen siyasətində, həm fiskal danışıqlarda, həm də müdafiə inteqrasiyası məsələlərində bir vahid mövqeylə çıxış edəcək. Bunlar blokun qərarvermə sürətini artıra bilər, çünki üç fərqli veto ehtimalı artıq birə enəcək. Amma əks təsir də mümkündür: əgər Benilüks öz milli prioritetlərini vahid sərt xətt kimi formalaşdırarsa, bu dəfə qoyulan veto daha kəskin və daha təsirli olacaq. Digər üzvlər bunu "super-veto" kimi qavraya bilər – say azdır, təsir böyükdür.

Aİ institusiyalarında daha ciddi məsələ suverenlik balansıdır. Tək dövlət halına gələn Benilüks daxili səlahiyyətlərini əvvəlki üçlükdən daha yaxşı koordinasiya etdiyinə görə, Aİ səviyyəsində aparılan danışıqlarda həm daha intizamlı, həm də daha strateji davranacaq. Bu amillər Avropa Komissiyası üçün həm rahatlıq, həm də çətinlik yaradır: bir tərəfdən üç ayrı paytaxtla deyil, bir siyasi mərkəzlə işləmək prosesi sadələşdirir; digər tərəfdən isə həmin mərkəz daha çox siyasi ağırlığa sahib olduğundan Komissiya üçün balanslaşdırma çətinləşir. Aİ tarazlığının incə nöqtəsi də elə buradadır – institusional asanlıq siyasi çətinliklərlə əvəz oluna bilər.

Burada analitik sual ortaya çıxır: Benilüks modelinin institusional güclənməsi Fransa–Almaniya nüfuzunu zəiflədəcəkmi? Cavab çoxqatlıdır. Qısa müddətdə dəyişiklik Berlin və Paris üçün həm təzyiq, həm stimul yaradır. Təzyiq odur ki, artıq dominantlıq avtomatik qəbul olunmur. Stimul isə odur ki, bu iki böyük aktor öz inteqrasiya xətlərini yeniləməyə məcbur olur. Uzun müddətdə isə balans dəyişə bilər – Avropa siyasətində artıq yalnız "böyük ikilik" yox, həm də "orta güclər" formalaşa bilər. Və bu birlik institutlara təsir gücünü artırdıqca, Aİ-də koalisiya oyunu tamamilə yenidən yazıla bilər.

İndi isə daha kritik məsələyə keçək: suverenlik paylaşımı necə dəyişir? Benilüksü birləşdirən proses daxildə suverenlikdən ciddi imtina tələb etdiyi üçün bu aktor Aİ səviyyəsində daha federalist, daha geniş səlahiyyət transferinə açıq ola bilər. Mövcud vəziyyət isə Avropa Parlamentində federalist dairələrin əlinə ciddi siyasi arqument verir: "Baxın, kiçik dövlətlər belə birləşib güclənir — deməli, Aİ səviyyəsində də vahid qərarlar daha rasional ola bilər". Arqument bir çox ölkədə narahatlıq yaratsa da, institutlarda federalizmin reputasiyasını yüksəldə bilər. Təbii olaraq ortaya sual çıxır: bu proses digər ölkələrdə "domino effekti" yarada bilərmi? Məsələn, Skandinaviya, Baltik və ya Vişeqrad ölkələri belə bir modeli təkrarlaya bilərmi? Teorik olaraq, bəli. Praktikada isə çətin. Çünki Benilüksün uğuru onun tarixi yaxınlığı, uzunmüddətli iqtisadi birgəliyi və siyasi mədəniyyətinin oxşarlığında dayanır.

Sonda belə bir nəticə ortaya çıxır: Benilüksün vahid dövlətə çevrilməsi Aİ institutları üçün həm idarəetmədə yeni effektivlik imkanları yaradır, həm də güc balansında dərin dəyişikliklərə yol açır. Suverenlik paylaşımı modeli yenidən dizayn olunur, veto mexanizmləri daha strateji şəkil alır, koalisiya siyasəti yeni aktorun çəkisinə uyğun adaptasiya olunmağa başlayır. Proses uğurla davam edərsə, Aİ özünün yeni federalist mərhələsinə kənardan deyil — daxildən keçmiş olacaq. Əks halda isə institutlar onsuz da çətin olan güc balansını daha mürəkkəb şəkildə idarə etmək məcburiyyətində qalacaq.

***Şəbnəm ZEYNALOVA,***
***XQ-nin siyasi analitiki,***
***siyasi elmlər üzrə fəlsəfə doktoru***

**Son illər dünya siyasətində ciddi dəyişikliklər baş verir. Bu dəyişikliklərdən diqqətəlayiq olanı – ABŞ-da formalaşmış "Amerikanı yenidən böyük et" (MAGA) ideyası artıq Atlantik okeanı aşaraq Avropanın siyasi arxitekturasına nüfuz etməkdədir. Sözsüz ki, nüfuz dedikdə hərbi müdaxilə və ya sərt güc vasitələri nəzərdə tutulmur. Proses daha mürəkkəb, çoxqatlı, incə işlənmiş, mədəni, iqtisadi və siyasi mexanizmlərlə həyata keçirilir. MAGA təsirinin mahiyyətini anlamaq üçün rəsmi Vaşinqtonun məqsədini mövcud liberal nizamın mərhələli şəkildə yenidən tənzimlənməsi kimi dəyərləndirmək lazımdır.**

# Transatlantik ittifaqda Avropanın mövqeyi

## *Vaşinqton MAGA layihəsi və qitənin liberal nizamı*

ABŞ-Avropa münasibətlərinin hazırkı mərhələsində qitə transatlantik müttəfiqlə yanaşı, rəsmi Vaşinqtonun yenilənmiş strateji modelinin tərkib hissəsinə çevrilən tərəfdaş obrazı kimi çıxış edir. Bu transformasiyanın zəminini isə Avropa daxilində cərəyan edən çoxşaxəli siyasi və sosial böhranlar təşkil edir. Elə bu səbəbdən MAGA institusional müqavimətlə qarşılaşdığı qədər, Avropanın öz daxili problemləri tərəfindən də gücləndirilir. Uzun müddət müşahidə edilən siyasi fraqmentasiya xarici təsirləri də xeyli gücləndirib. Radikal sağ qüvvələrin üstünlüyü və bir sıra ölkələrdə hakimiyyətə qədər yüksəlməsi seçicilərin Brüssel institutlarına inamının azalması və "Brüssel–Milli hökumət" xəttində artan gərginliklə müşayiət olunur. Üzv dövlətlər arasında xarici siyasət və enerji məsələlərində fikir müxtəlifliyi, habelə təhlükəsizlik sahəsində strateji vahid xəttin olmaması Avropanı koordinasiya çatışmazlığı ilə üz-üzə qoyur. Bu isə MAGA ideyasının Avropada daha rahat yayılmasına gətirib çıxarır. Çünki ABŞ-ın bəzi siyasi dairələri qitədəki mövcud narazılıqları təhlil etməklə həm də onları yönləndirir. Bu kontekstdə, qitədə millətçi və antiliberal tendensiyaların mərkəzi siyasətə inteqrasiyası həm daxili dinamikaların nəticəsi, həm də transatlantik siyasi diskursun transformasiyası kimi qəbul olunur. Yeri gəlmişkən, təsir modeli 3 əsas mərhələdən ibarətdir: Aradan qaldırma, çevirmə və tabeetmə.




### Mötədil siyasətin sıxışdırılması

Bu mərhələ əsasən siyasi mərkəzin zəiflədilməsi və mütərəqqi mövqelərin marginallaşdırılması üzərində qurulur. Yada salaq ki, ötən il Avropa Parlamentində keçirilən seçkilərinin nəticələri sağ radikal blokların artan təsirini təsdiqlədi. "Avropanın vətənpərvərləri" ittifaqının yüksəlişi və İşçilərin sosial identifikasiya nömrəsinin (ESN) genişlənməsi faktiki olaraq "Qoca qitə"nin siyasətinin diskursunu sağa doğru çəkdi. Artıq İtaliya, Slovakiya və Niderland kimi ölkələrdə sağçı xətt dövlət siyasətinin əsas yol göstəricisinə çevrilib. Prosesin MAGA ilə bağlılığı ondadır ki, ABŞ-dakı sağ populist xətt Avropada ideoloji strukturlar üçün motivasiya və legitimlik yaradır. Bu da bir növ "diskurs ixracı" kimi dəyərləndirilə bilər.

### İqtisadi müstəvinin yeniləşdirilməsi

İqtisadi çevirmə mərhələsi Avropanın strateji istiqamətlərinin daha sıx şəkildə ABŞ-la uyğunlaşdırılmasına əsaslanır. İnflyasiyanın Azaldılması Aktı (IRA) yaşıl sənaye investisiyalarını Vaşinqtona yönəldərək qitənin istehsal sektorunu yeni rəqabət riskləri ilə üzləşdirir. Aİ-nin NZIA və EDIS kimi təşəbbüsləri bu boşluğu doldurmağa çalışsa da, struktural olaraq hələ yetkin deyil.

**ARAYIŞ:** *Aİ-nin Sıfır Emissiyalı Sənaye Aktı (NZIA) və Avropa Əmanətlərin Sığorta Sistemi (EDIS) təşəbbüsləri mahiyyət etibarilə qitənin həm sənaye-iqlim siyasətində, həm də maliyyə-bank təhlükəsizliyində yeni mərhələyə keçidi ifadə edən iki strateji sütundur. NZIA vasitəsilə Brüssel yaşıl enerjidən hidrogen istehsalına, Günəş panellərindən tutmuş batareya texnologiyalarına qədər bütün sahələrdə daxili istehsal gücünü artırmağı, strateji materiallar üzrə asılılıqları azaltmağı və Avropa sənayesini ABŞ və Çinlə rəqabətdə zəiflətməmək üçün əlavə dəstək mexanizmləri yaratmağı hədəfləyir.*

NZIA Avropanın enerji, iqlim və sənaye siyasətlərini bir çətir altında birləşdirərək kontinentin yaşıl texnologiyalar üzrə qlobal güc kimi mövqeyini möhkəmləndirməyə çalışır. EDIS isə Aİ Bank İttifaqının çatışmayan həlqəsi sayılır və onun məqsədi Avropa bank sistemində əmanətçilərin təhlükəsizliyini vahid, ümum-Avropa sığorta mexanizmi vasitəsilə təmin etməkdir. Bu təşəbbüs həm bank böhranları zamanı domino effektinin qarşısını almağa yönəlib, həm də Aİ daxilində maliyyə sabitliyinin yaradılmasını hədəfləyir. Eyni zamanda, cari ildə tətbiq edilən universal tariflər də qitəyə açıq mesaj verir ki, ABŞ-dan iqtisadi xətt üzrə fərqlənmək baha başa gələ bilər.

### Tabeetmə, yaxud təhlükəsizlik arxitekturasının yenidən qurulması

Bu mərhələ daha çox NATO ilə bağlı ritorikada özünü büruzə verir. Donald Trampın keçmiş bəyanatları Avropa təhlükəsizlik planlaşdırmasını ABŞ-da seçki dövrlərinin dəyişkənliyindən asılı vəziyyətə salır. Belə olan halda qitə təhlükəsizlik arxitekturasını öz daxilində formalaşdırmaq əvəzinə, Vaşinqtonun siyasi atmosferinə uyğun şəkildə tənzimləməyə məcbur qalır. Bu isə Avropanın özünün strateji muxtariyyəti barədə sualları artırır.

Bir məqamı da qeyd edək ki, MAGA təsirinin ən diqqətəlayiq tərəflərindən biri mədəniyyət müharibəsinin transatlantik ölçüdə formalaşmasıdır. Budapeştdə Mühafizəkar Siyasi Fəaliyyət Konfransı (CPAC), Madriddə "Make Europe Great Again" (MAGA) forumu və digər platformalar vasitəsilə yeni ideoloji infrastruktur yaradılır. ABŞ-dakı konservativ institutların qitədəki fəaliyyətləri nəticəsində ortaq diskurs, donor şəbəkəsi və ideoloji xətt ortaya çıxır, bu isə Avropada siyasi və sosial debatları yeni çərçivəyə salır. Qitə üçün yaranan bu reallıq göstərir ki, Avropa Atlantikdən gələn normativ çərçivə əsasında yenidən təşkil olunur və proses siyasi qərarvermə mexanizmlərini dəyişdirir. Rəsmi Vaşinqtonun bu modeli ixrac etməsinin əsas motivləri həm də iqtisadi və geostrateji xarakter daşıyır. Qlobal rəqabətdə üstünlüyünü qorumaq istəyən ABŞ üçün vacibdir ki, Avropa siyasi və iqtisadi baxımdan uyğunsuz bir platformaya çevrilməsin. Nəzərə alınmalıdır ki, iqtisadi dövlətçilik modeli tərəfdaş regionlar strateji uyum təmin etdikdə effektiv olur. 2025-ci ilin tarif siyasəti göstərdi ki, uyğunsuzluq halında ABŞ ciddi iqtisadi rıçaqlardan istifadə edə bilər. Əsas məqsəd iqtisadi nizamın sərt, lakin strukturlaşdırılmış tənzimlənməsidir.

Beləliklə, bu gün Avropada gedən proseslər gələcək güc mərkəzinin harada formalaşacağına qərar verir. Şübhəsiz, antiamerikanizm alternativ ola bilməz. Avropanın ehtiyacı öz cazibə mərkəzini qoruyub saxlamaq, bərabərhüquqlu tərəfdaşlıq yaratmaq və praqmatik əməkdaşlıq modeli formalaşdırmaqdır. Rəsmi Vaşinqton isə loyal tərəfdaşlarının sayını artırmaqda maraqlıdır.

***Nəzrin ELDARQIZI***
***XQ***

*20 noyabr faciəsindən 34 il keçir*

# Qarakənd səmasının qara tarixçəsi

## *Azərbaycanın dövlət adamlarını aparan helikopterin Xocavənddə vurulması siyasi terror idi*

**Təşkilatçı və icraçıların kimliyindən asılı olmayaraq, bu qanlı hadisə birbaşa Azərbaycan dövlətinə, ümumiyyətlə, dövlətçiliyimizə qarşı törədilən terror aktı kimi qəbul olunmalıdır. 1991-ci ilin 20 noyabrında Xocavənd rayonunun Qarakənd kəndi üzərində göyərtəsində Azərbaycanın dövlət və hökumət rəsmilərinin olduğu "Mi-8 N72" helikopterinin erməni silahlı dəstələri tərəfindən vurulmasından 34 il ötüb. Bu terror hadisəsi nəticəsində helikopterdəki 22 nəfərin hamısı həlak olub.**

…Faciədən sonrakı günlərdə yerli və beynəlxalq ictimaiyyətə Qarakənd faciəsi haqqında ağ yalan tirajladılar. Əvvəlcə rəsmi olaraq helikopterin dumana düşərək qayaya çırpılması versiyası irəli sürülsə də, bir neçə gün sonra onun vurulması faktı təsdiqləndi. Erməni separatçıları bu qanlı olayla özlərinin terrorçu xislətini bir daha nümayiş etdirdilər. Bəli, əslində, "Daşnaksütyun" partiyasının XIX əsrin sonlarından müsəlman türklərə qarşı başlatdıqları terror "dumanı" XX əsrin sonlarında da dövlətimizin və xalqımızın başı üzərindən çəkilməmişdi. Bədnam qonşularımız Azərbaycana qarşı ərazi iddialarını xəyanət və məkr dumanına bürüyüb uzun müddət gözümüzü pərdələməyə çalışdılar. Mənfur düşmən öz çirkin planlarını reallaşdırmaq üçün fürsət düşdükcə Azərbaycan xalqının "düşünən beyinlərini" fiziki cəhətdən aradan götürməkdən belə çəkinmirdi. Tarixin arxivinə göndərdiyimiz Qarabağ münaqişəsi həm də hayların əsl simasının üzə çıxmasına, maskalarının yırtılmasına şərait yaratmış oldu.



…Hesablamalara görə, Qarakənd üzərində 300 metr yüksəklikdə uçan helikopter 1991-ci il noyabrın 20-də saat 14:42 radələrində vurulub. Hadisə zamanı Azərbaycanın dövlət katibi, akademik Tofiq İsmayılov, baş prokuror İsmət Qayıbov, dövlət müşaviri, daxili işlər naziri Məhəmməd Əsədov, Şuşa rayon partiya komitəsinin birinci katibi Vaqif Cəfərov, 26-lar (indiki Səbail) rayon partiya komitəsinin birinci katibi Vəli Məmmədov, baş nazirin müavini Zülfü Hacıyev, dövlət katibinin köməkçisi Rafiq Məmmədov, Prezident Aparatının şöbə müdiri Osman Mirzəyev, nazir müavini Qurban Namazəliyev, Azərbaycan Dövlət Televiziyasının jurnalisti Alı Mustafayev, AzTV-nin əməkdaşı Arif Hüseynzadə, opeator Fəxrəddin Şahbazov, Rusiya–Qazaxıstan sülhməramlı missiyasının üzvləri və ekipaj üzvləri həlak olub. Faciə ərəfəsində, dəqiq desək, noyabrın 18-də SSRİ-nin birinci və sonuncu prezidenti Mixail Qorbaçovun şəxsi köməkçisi Kremldən Bakıya zəng vurur, respublika və DQMV rəhbərliyindən Təhlükəsizlik Şurasının növbəti iclasını Stepanakertdə (Xankəndi - red.) keçirməyi xahiş edir. Əslində Azərbaycana qarşı ərazi iddiası irəli sürən separatçıların liderlərinin və Moskva nümayəndələrinin də bu iclasda iştirakının planlaşdırılması idi. Telefon zəngindən sonra Bakıda iclasda iştirak edəcək şəxslərin siyahısı tərtib edilir. Rəsmi Moskva o zaman Azərbaycanda böyük nüfuza malik şəxslərin həmin siyahıda yer alması üçün xüsusilə israr edirdi. Heyətə Azərbaycan KM MK-nın ikinci katibi Viktor Polyoniçkonun başçılıq etməsi haqqında qərar qəbul olunsa da, faciədən bir gün əvvəl "ölüm siyahısı" yenilənir və Viktor Polyaniçkonun, güc nazirliklərinin qeyri-millətdən olan əməkdaşlarının adları siyahıdan çıxarılır. Məsələ burasındadır ki, içərisində tanınmış dövlət xadimlərinin və ziyalıların olduğu helikopteri hərbi vertolyotlar müşayiət etməli idilər, amma etmirlər.

Faktla bağlı 1991-ci ildə Azərbaycanın Hərbi Qarnizon Prokurorluğu tərəfindən cinayət işi açıldı, istintaqın aparılması Respublika Prokurorluğuna həvalə edildi. Sonradan cinayət işi üzrə istintaq dayandırıldı. Buna səbəb kimi terror aktının baş verdiyi ərazinin Ermənistan silahlı qüvvələrinin işğalı altında olması göstərildi.

…Dəhşətli faciənin üstündən 34 il keçsə də onunla bağlı cavabsız suallar, müəmmalar bitib-tükənmir. Azərbaycan üçün böyük zərbə olan bu qanlı hadisənin təfərrüatlarının sirr pərdəsinə büründüyü indi də müzakirə mövzusudur. Məsələn, faciə ilə bağlı keçən illər ərzində ən sensasion iddialar 1991-ci ilin noyabrında DİN-in Baş Cinayət-Axtarış İdarəsində baş əməliyyat müvəkkili vəzifəsində işləmiş Bayram İsmayılova məxsusdur. Sabiq əməliyyatçı hadisədən dərhal sonra həmin əraziyə yollandıqlarını, ora çatdıqları zaman rus əsgərlərini gördüklərini bildirib. O, meyitlərin bir çoxunun tanınmaz hala düşdüyünü, cəsədlərin sayının helikopterin göyərtəsindəkilərin sayından az olduğunu qeyd edib.

Əslində, güman etməyə əsasımız var ki, bu terror aktı konkret şəxslərə qarşı deyil, Azərbaycanın müstəqilliyə gedən yolunun ləngidilməsinə, hətta bu prosesin dayandırılmasına yönəlmiş hadisə idi. Terror cinayətini təşkil edən əməllərdən hər biri planlı və əvvəlcədən düşünülmüş olur. Bu əməllər heç bir halda təsadüf və ya ehtiyatsızlıq nəticəsində baş verən hadisə sayıla bilməz. Eyni zamanda, qanlı hadisənin törədilmə məqsədinin, vaxtının və mümkün nəticələrinin analizi onun terror aktı kimi tövsif olunması üçün kifayət edir.

Xilas olmağa can atan insanların pusqudan güllələbaran edilməsi hayların məhz etnik təmizləmə – soyqırımı törətmək niyyətindən xəbər verir. Bu amansız cinayətin Azərbaycan dövlətinə, onun milli kadrlarına qarşı yönəldiyi göz önündədir.

Hadisənin başvermə səbəblərini araşdıran DİN-in İstintaq komissiyasının məlumatında diqqəti cəlb edən maraqlı detal var. O vaxt nə ermənilərdə, nə də azərbaycanlılarda hava qurğusunu vuran raket sistemləri yox idi. Helikopterin yerdən, guya, avtomat, yaxud pulemyotla vurulması versiyası ağlabatan deyil. Şahidlərin dediyinə görə, hava gəmisi göydə parçalanıb. Hadisə baş verən vaxt ərazidə qoyun otaran çoban olub və o, göydə vertolyotun parçalanıb yerə düşdüyünü gözləri ilə görüb. Bu qanlı cinayətin SSRİ-ni saxlamağa çalışanların əməli olduğu fərziyyəsi də ictimaiyyət arasında dolaşmaqdadır. Müstəntiqlər kifayət qədər iş görsələr də hadisənin üstü bugünədək tam açılmayıb. Moskvaya aparılan helikopterin qara qutusundan bugünədək səs-soraq yoxdur… Sonradan məlum olacaq ki, qara qutunun Moskvaya aparılması bu cinayətin üstünün açılmasının qarşısını almaq üçün idi.



…Bəli, 20 noyabr faciəsi bu gün də Azərbaycan tarixinin qaranlıq səhifələrindən biri sayılır. Doğrudur, o cinayəti törədənlərin həlelik məhkəməsini görməsək də, 44 günlük Vətən müharibəsində, birgünlük antiterror tədbirində Azərbaycan Ordusu Xocalı, Başlıbel, Bağanıs Ayrım və digər qətliamlarda erməni hərbi canilələri tərəfindən öldürülmüş soydaşlarımızla yanaşı, Qarakənd səmasında terrora tuş gələn dövlət və hökumət yetkililərimizin, həmkarlarımızın, eləcə də şəhidlərimizin qisasını layiqincə aldı. İndi həm Qarakənd faciəsinin, həm də ondan sonra xalqımızın başına gətirilən bir çox müsibətlərin, qətliamların əliqanlı "müəllifləri" üçün məhşər günləri başlayıb. Bu gün Bakı Ağır Cinayətlər Məhkəməsində Qarabağdakı keçmiş xunta rejiminin separatçıları üzərində davam edən prosesdə təkzibolunmaz fakt, sübut, foto-video sənədlər "danışır". Ermənilərin Azərbaycan torpaqlarında törətdikləri vəhşiliyin canlı şahidləri 30 – 35 il bundan əvvəl baş verənləri təkcə hakimə, prokurora deyil, bütün dünyaya bəyan edirlər. Beynəlxalq ictimaiyyət Qarabağda baş verən olaylar, Xocalı soyqırımı, digər etnik təmizləmə aktları, ümumiyyətlə, Ermənistanın ölkəmizə qarşı həyata keçirdiyi terror və təcavüzkar işğalçılıq siyasəti barədə əsl həqiqətlərdən xəbər tutur.

Keçmişə nəzər salsaq görərik ki, müharibə cinayətkarları, terrorçular, qatillər, insanlıqdan nəsibini almamış cəlladlar gec-tez Femida qarşısında cavab verməli olublar. Həmin tarixi günün gələcəyinə ümid edir, 34 il əvvəl "qara qutusu yoxa çıxmış" helikopter faciəsi kimi, qaranlığa bürünən bütün həqiqətlərin gün işığına çıxacağına inanırıq.

***İ.HƏSƏNQALA***
***XQ***

# Tərəflər niyə güzəştə getmirlər?

## *"Avroüçlük" və ABŞ İranla bağlı qətnamə layihəsini MAGATE-yə təqdim edib*

**İran və ABŞ arasında nüvə proqramı ilə bağlı vəziyyət son aylar həm diplomatik, həm də hərbi səhnədə gərginləşib. Böyük Britaniya, Almaniya, Fransa və ABŞ çərşənbə axşamı Beynəlxalq Atom Enerjisi Agentliyinin (MAGATE) idarə heyətinə İranın nüvə obyektlərinə və ölkədəki zənginləşdirilmiş uran ehtiyatlarına tam giriş tələb edən qətnamə layihəsi təqdim ediblər.**

Avropa ölkələri və ABŞ qətnamə layihəsi ilə Tehrana diplomatik təzyiqi artırmaq və nüvə fəaliyyətinə nəzarəti gücləndirmək niyyətində olduqlarını nümayiş etdirirlər. Qətnamədə İrandan bütün nüvə obyektlərinə və uran ehtiyatlarına tam giriş imkanı təmin etməsi tələb olunur. Bu da danışıqlar prosesində Qərbin mövqeyini möhkəmləndirmək məqsədini daşıyır. Bu addım, eyni zamanda, beynəlxalq legitimlik qazanaraq Tehrana siyasi təzyiq göstərmək üçün nəzərdə tutulub.

Tehran qətnaməyə sərt reaksiya verib və onu suverenliyinə müdaxilə kimi qiymətləndirib. Bildirilib ki, ölkədə heç bir gizli nüvə obyekti yoxdur və bütün mövcud obyektlər MAGATE-yə məlumdur. İranın ali liderinin müşaviri Kamal Xarrazi açıqlamasında bildirib ki, son vaxtlar baş verən hücumlar səbəbindən bəzi işlər dayansa da, bütün nüvə fəaliyyəti şəffaf şəkildə aparılıb. O, həmçinin vurğulayıb ki, İran uranın zənginləşdirilməsini tam dayandırmaq barədə danışıqlar aparmayacaq, yalnız zənginləşdirmə səviyyəsinin tənzimlənməsi məsələsinə açıqdır. Tehranın mövqeyinə görə, bu proqram, əsasən, mülki məqsədlər üçün, xüsusilə enerji və tibbi ehtiyacların ödənməsi üçün vacibdir.



Xarrazi, eyni zamanda, ballistik raket proqramının heç bir halda danışıqlar mövzusu olmayacağını bildirib. O, bunu ölkənin milli təhlükəsizlik siyasətinin ayrılmaz hissəsi kimi qoruduqlarını vurğulayıb.

Bu açıqlamalar göstərir ki, İran danışıqlara qarşı deyil, lakin prosesi yalnız öz şərtləri və qırmızı xətləri çərçivəsində aparmağa hazırdır. Tehran mövqeyini 3 əsas prinsip üzərində qurur: ilk addımı ABŞ atmalıdır, çünki regionda gərginliyin əsas səbəbi Vaşinqtondur. İkincisi, uranın zənginləşdirilməsi tam dayandırılmayacaq, yalnız səviyyəsi üzərində müzakirə aparıla bilər. Üçüncüsü, ballistik raket proqramı müzakirə mövzusu deyil.

Bu prinsiplər İranın diplomatik çərçivəsinin nə qədər sərt və güzəşt imkanlarının məhdud olduğunu ortaya qoyur. ABŞ-dan ilk addımın tələb edilməsi Vaşinqtonun siyasətinə qarşı psixoloji üstünlük cəhdi kimi qiymətləndirilə bilər. Uranın zənginləşdirilməsinin dayandırılmasının rədd edilməsi proqramın milli suverenlik məsələsi kimi qorunduğunu göstərir. Ballistik raket proqramının müzakirədən kənarda saxlanılması isə Qərbin əsas narahatlıqlarından birinə toxunmayacağını nümayiş etdirir. Nəticədə, Tehranın mövqeyi sərt olaraq qalır. İran danışıqların yalnız onun müəyyən etdiyi konturlar daxilində aparılmasını istəyir. Belə olan halda isə İranın mövqeyi diplomatik prosesi yaxın dövrdə perspektivsiz edir. Tərəflər ortaq məxrəcə gələ bilmir. Bununla bağlı ABŞ Prezidenti Donald Tramp maraqlı açıqlama verib. "İran həqiqətən anlaşma istəyir. Mən deyə bilərəm ki, fikrimcə, onlar buna çox can atır". Tramp bu sözləri Ağ Evdə Səudiyyə Ərəbistanının vəliəhdi Məhəmməd bin Salmanla görüşü zamanı deyib. O, həmçinin bildirib ki, İranla razılaşma tam açıqdır və İranla danışıqlar aparır. Tramp qeyd edib ki, saziş daha əvvəl də imzalana bilərdi, lakin "o vaxt alınmadı".

ABŞ prezidentinin "İran razılaşma bağlamaq istəyir" bəyanatı həm İran, həm də beynəlxalq auditoriya üçün siyasi mesaj effektinə malikdir. Tramp bununla həm öz diplomatik xəttinin uğurlu olduğu təsəvvürünü yaratmağa çalışır, həm də İranı psixoloji təzyiq altında saxlamağa cəhd edir. Lakin eyni zamanda, ABŞ-ın danışıqlara açıq olduğunu deməsi Vaşinqtonun hələ də siyasi dialoq imkanını saxladığını göstərir. İstənilən halda, hər iki tərəfin mövqeyi fərqli olduğundan sazişin imzalanması qeyri-real görünür.

Eyni zamanda, regionda hərbi gərginlik artmaqda davam edir. Nüvə obyektlərinin hədəfə alınması məsələsi problemin yalnız diplomatik və texniki yox, həm də strateji və ideoloji tərəflərini önə çıxarır. 13 iyunda İsrail İran ərazisində hərbi əməliyyat həyata keçirib, bir gün sonra İran cavab tədbirləri görüb. Bundan 9 gün sonra isə ABŞ üç İran nüvə obyektini hədəfə alıb, İran isə 23 iyunda Qətərdəki ABŞ bazasına raket zərbəsi endirib. 24 iyunda tərəflər arasında atəşkəs əldə olunub. Bu hadisələr regionda təhlükəli hərbi–diplomatik mənzərəyə işarə edir.

Deməli, nüvə proqramı İran üçün həm strateji, həm də ideoloji məsələdir. Bu proqram milli suverenliyin və dövlətin simvolik tərkib hissəsi sayılır. Hərbi hücumlar isə Tehran tərəfindən ciddi cavab tədbirləri ilə qarşılanır. Bu isə regionda arzuolunmaz gərginliyin və təsadüfi eskalasiyanın artma riskini yüksəldir, tərəflər arasında hərbi etimadsızlığı dərinləşdirir.

Ümumiyyətlə, hazırkı vəziyyət nüvə danışıqlarının bərpasını çətinləşdirir və regionda onsuz da həssas olan təhlükəsizlik balansına əlavə risklər gətirir. Qərbin təzyiq və sanksiya strategiyası Tehran tərəfindən qarşılıqlı etimad mexanizmi yaradılmadan səmimi qəbul edilmir.

**Politoloq Yeganə Hacıyeva** mövzu ilə bağlı XQ-ya bildirdi ki, hər iki tərəf razılaşmaq istəyir, lakin güzəştə getməyə hazır deyillər: "İran uranın zənginləşdirilməsini davam etdirmək, sanksiyaları aradan qaldırmaq, danışıqlarda bərabər statusa sahib olmaq və raket proqramını müzakirəyə çıxarmamaq istəyir. Amma bu o qədər də asan görünmür. Çünki ABŞ və İran arasındakı danışıqlarda dərin etimadsızlıq mövcuddur. İran hesab edir ki, 2018-ci ildə ABŞ sazişdən çıxmaqla öhdəliyini pozub, ABŞ isə İranın son illərdə zənginləşdirməni artırmasını və bölgədəki fəaliyyətini əsas gətirərək Tehranın geri addım atmasında maraqlıdır. Vaşinqton uranın zənginləşdirilməsini saziş səviyyəsinə, yəni 3,67 faizə endirmək və ehtiyatları azaltmaq istəyir. İran isə zənginləşdirmənin artırılmasını sanksiyalara cavab olaraq izah edir və səviyyəni yalnız sanksiyalar ləğv edilərsə, azaltmağa hazır olduğunu bildirir.



Sanksiyaların aradan qaldırılması və zəmanətlər mövzusunda da fikir ayrılıqları mövcuddur. ABŞ sanksiyaların mərhələli şəkildə, İranın öhdəlikləri yerinə yetirməsindən sonra qaldırılmasını təklif etsə də, Tehran neft və bank sektorlarına aid sanksiyaların tam və zəmanətli şəkildə ləğvini tələb edir.

Nəticədə paradoksal vəziyyət yaranıb: hər iki tərəf razılaşmaq istəyir, amma geri çəkilmək istəmir. Bu isə danışıqları başlanğıc mərhələsində çətinləşdirir, regionda hərbi qarşıdurma riskini yüksək saxlayır. Tərəflər arasında etimadın zəif olması və kiçik təxribatların belə yeni eskalasiyaya çevrilmə ehtimalı diplomatik mühitin gərginliyini artırır".

Beləliklə, hazırkı vəziyyətdə diplomatik və hərbi ölçülər iç-içə keçib, qarşılıqlı güvənsizlik isə danışıqları hər an pozmağa qadirdir. Dialoq imkanları tam bağlanmayıb, lakin hər iki tərəfin sərt qırmızı xətləri və güzəştsiz mövqeləri yeni böhran riskini davamlı olaraq gündəmdə saxlayır. Regionun gələcəyi isə tərəflərin bu gərginliyi nə dərəcədə idarə edə biləcəyindən asılı olacaq.

***Pünhan ƏFƏNDİYEV***
***XQ***

# “Böyük Qayıdış” modelinin strateji uğurları

**İşğaldan azad edilmiş ərazilər bərpa və yenidənqurma proseslərinin mərkəzləşdirilmiş şəkildə idarə olunması artıq yeni mərhələyə qədəm qoyub. Bu baxımdan Zəngilan şəhərində Əlaqələndirmə Qərargahının 5 illik fəaliyyətinə həsr olunmuş iclas həm görülən işlərin geniş miqyasını nümayiş etdirməsi, həm də qarşıdakı strateji hədəflərin müəyyənləşdirilməsi baxımından xüsusi önəm daşıyır.**



İclasda Qərargahın rəhbəri, Prezident Administrasiyasının rəhbəri Samir Nuriyevin çıxışı Azərbaycanın dövlət başçısı İlham Əliyevin birbaşa rəhbərliyi ilə həyata keçirilən “Böyük Qayıdış” konsepsiyasının həm institusional, həm də praktiki səviyyədə necə sistemli şəkildə icra olunduğunu bir daha təsdiqlədi. Onun sözlərinə görə, Qarabağ və Şərqi Zəngəzurda aparılan bərpa işləri postmünaqişə dövründə tətbiq edilən ən uğurlu və sürətli yenidənqurma modellərindən biri kimi beynəlxalq aləmin də diqqətini çəkdi.

Bu məqamda qeyd edək ki, 5 il əvvəl qarşıda yalnız iki böyük sual vardı: torpaqlar bərpa üçün nə qədər zaman tələb edəcək və hansı model tətbiq olunacaq? Bu gün isə sualların yerində cavablar dayanır: Prezident İlham Əliyevin rəhbərliyi ilə yeni şəhərlər salınıb, kəndlər planlaşdırılıb, iqtisadi zonalar fəaliyyətə başlayıb, yollar, tunellər, hava limanları və enerji infrastrukturu regionun simasını dəyişib. Bu statistik göstəricilərdə də öz ifadəsini tapıb: son 5 ildə dövlətimizin başçısı azad edilmiş ərazilərdə 569 tədbirdə iştirak edib, 177 layihənin təməlini qoyub, 167 infrastruktur və sosial obyektin açılışını edib.

Bu rəqəmlər layihələrin kəmiyyətini deyil, onların regionun inkişaf trayektoriyasını köklü şəkildə dəyişən strateji xarakterini əks etdirir. Eyni zamanda, həmin layihələr həm modern şəhərsalma prinsiplərini, həm humanitar infrastrukturu, həm də iqtisadi fəallığı paralel şəkildə gücləndirən yeni Qarabağ modelinin əsasını təşkil edir.

Artıq işğaldan azad edilmiş ərazilərin ümumi planı, 8 şəhərin Baş Planı və 3 şəhərin Müfəssəl Planı təsdiqlənib. Xankəndi, Xocalı, Ağdərə və Xocavənd şəhərləri üzrə də Baş planlar hazırlıq mərhələsindədir. Bu, bütün region üzrə inkişafın vahid planlaşdırma çərçivəsində idarə olunduğunu göstərir.

***Beş ildə həyata keçirilən infrastruktur layihələrinin fövqəladə həcmi həmin ərazilərin gələcək iqtisadi inteqrasiyası üçün əsas baza formalaşdırıb:***

***– 3 beynəlxalq hava limanı istifadəyə verilib;***

***– 3500 kilometrdən artıq avtomobil yolu üzrə 60 layihədən 16-sı tam icra olunub;***

***– 28 tunel, 392 körpü və 9 viadukun tikintisi başa çatdırılıb;***

***– dəmir yolu üzrə 49 körpüdən 42-si inşa olunub.***

Bu proseslərin ən strateji xəttini Zəngəzur dəhlizi və Araz çayı üzərində inşa edilən Ağbənd–Kəlalə körpüsü təşkil edir. Dəhliz üzrə həm avtomobil, həm də dəmir yolu xətlərinin tikintisi regionun yeni geoiqtisadi rolunun formalaşmasına şərait yaradır.

Hesabat dövründə enerji və kommunal infrastruktur sahələrində də önəmli layihələr reallaşdırılıb, dayanıqlı inkişafın təməli qoyulub. Məsələn, Qarabağ və Şərqi Zəngəzurda 38 su elektrik stansiyası, 4 su anbarı, 14 elektrik yarımstansiyası istifadəyə verilib, 1000 kilometrdən artıq yüksək gərginlikli elektrik xətləri çəkilib. Bununla da bərpaolunan enerji potensialı üzərində “yaşıl enerji zonasının” strukturu qurulub. Qazlaşdırma xətti üzrə 8 şəhər, 20 kənd və 1 qəsəbə artıq mavi yanacaqla təmin olunub. Bölgədə su, enerji, qaz, rabitə baxımından müasir urbanizasiya standartlarına uyğun baza yaradılıb.

***İndiyədək işğaldan azad edilmiş ərazilərdə sosial infrastruktur və təhsil sahələrinin inkişafı da diqqətdə saxlanılıb:***

***– 1 xəstəxana;***

***– 19 ümumi təhsil müəssisəsi;***

***– 7 məktəbəqədər təhsil ocağı;***

***– Qarabağ Universiteti istifadəyə verilib.***

Hazırda dövlət və özəl sektorda çalışanlar, sahibkarlar, tələbələr də daxil olmaqla artıq 62 mindən çox insan bu ərazilərdə yaşayır və fəaliyyət göstərir. Bu rəqəm bərpa proseslərinin sosial-iqtisadi baxımdan da uğurlu olduğunu sübut edir.

Ağdam və Cəbrayılda yaradılan “Araz Vadisi İqtisadi Zonası” sənaye parkları bölgənin iqtisadi dirçəlişinin lokomotivinə çevrilib. Burada 50 rezident, 7 qeyri-rezident müəssisə fəaliyyət göstərir. Ümumi dəyəri 454 milyon manat olan layihələr üzrə 185 milyon manat investisiya yatırılıb və 1057 iş yeri açılıb. Parklarda istehsal olunan məhsulun dəyəri 949,4 milyon manatdır, bunun 39,5 milyon manatı isə ixrac edilib. Bu dinamika Qarabağın tədricən özünü maliyyələşdirən iqtisadi zonaya çevrildiyini göstərir.

Zəngilanda keçirilən iclas göstərdi ki, bölgənin münbit torpaq və əlverişli iqlimi kənd təsərrüfatının sürətli inkişafını təmin etmək gücündədir. “Dost Agro Park”, “Şirin Aqro” kimi iri aqrar layihələr, eləcə də Ağalı kəndində həyata keçirilən yeni torpaq idarəçiliyi modeli regionda müasir aqrar sistemin əsasını formalaşdırır.

Yeri gəlmişkən, bərpa işləri yalnız tikinti və iqtisadi layihələrlə məhdudlaşmır. Minatəmizləmə əməliyyatları nəticəsində 240 min hektardan çox ərazi təhlükəsiz hala gətirilib. Bununla yanaşı, mədəni, tarixi və dini abidələrin bərpası istiqamətində işlər davam etdirilir. Bu, Böyük Qayıdışın həm fiziki, həm də mənəvi baxımdan paralel şəkildə inkişaf etdirildiyini göstərir.

Dövlət başçısının rəhbərliyi ilə həyata keçirilən “Böyük Qayıdış” proqramının əsas hədəfi təkcə ərazilərin bərpası deyil, bu, ilk növbədə, vətəndaşın qayıdışı idi. Ümumiyyətlə, indiyədək 62 mindən çox soydaşımızın öz doğma ocağına yenidən köçürülməsi təsadüfi rəqəm deyil, bu, tarixi ədalətin bərpasının canlı göstəricisidir. Köçürülən ailələr üçün evlər, sosial obyektlər, məktəblər, tibb məntəqələri, su və enerji sistemləri, yol şəbəkələri əvvəlcədən tam hazır vəziyyətə gətirildi. “Açar təslimi” modelinin tətbiqi dünyada postmünaqişə bərpası üzrə ən mükəmməl yanaşmalardan biri hesab olunur.

Onu da qeyd edək ki, Əlaqələndirmə Qərargahının fəaliyyəti sıradan icra strukturu deyil, inteqrasiya olunmuş idarəetmə sistemidir: hər layihə, hər yol xətti, hər yaşayış massivi onlarla ekspert qrupunun, qurumların, mütəxəssislərin koordinasiyası ilə reallaşır. Bu da bərpa prosesinin həm sürət, həm də keyfiyyət baxımından nümunəyə çevrilməsini gerçəkləşdirir.

Beş il ərzində azad edilmiş ərazilərin şəhər xəritəsi tamamilə yenilənib. Zəngilan, Füzuli, Laçın, Ağdam və digər rayon mərkəzləri yeni konsepsiyalar əsasında qurulur. “Ağıllı” şəhər və “yaşıl” enerji yanaşmaları yalnız deklarativ ifadə deyil, bu, artıq reallaşmış faktlardır. Zəngilan və Laçın rayonları alternativ enerji üzrə pilot zonalara çevrilib, bütün şəhər planlaşdırılması karbon neytrallığı, ətraf mühitin qorunması, “ağıllı” idarəetmə sistemləri üzərində qurulub.

Şəhərlər sadəcə binaların tikintisi deyil, bu, sosial həyatın yenidən proqramlaşdırılması, infrastrukturun bütün detallarının bir sistem halında işləməsi deməkdir. Məktəblər, bağçalar, poliklinikalar, idman və mədəniyyət mərkəzləri regionu yalnız məskunlaşma məkanı yox, inkişaf zonası kimi formalaşdırır.

Azad edilmiş kəndlərin planlaşdırılması xüsusi yanaşma tələb edirdi. Bir tərəfdən tarixi ənənələr, digər tərəfdən müasir kənd təsərrüfatı və sosial infrastruktur standartları nəzərə alınmalı idi. Bu gün Qarabağ və Şərqi Zəngəzurun kəndləri həm ekologiya, həm iqtisadi funksional model, həm də mədəni dəyərlər baxımından yeni nümunədir. Kəndlərdə əkin sahələri, suvarma sistemi, kiçik və orta təsərrüfatlar üçün müasir model tətbiq olunur. Bu isə uzunmüddətli məskunlaşmanın əsas şərtlərindən biridir.

Hesabat dövrü ərzində aparılan mina təmizləmə əməliyyatları Qarabağın dirçəlişində xüsusi yer tutur. Ərazilər təkcə yaşayış üçün deyil, təsərrüfat fəaliyyətinə, yol tikintisinə, enerji xətlərinin çəkilişinə açılmalıdır. Hazırda yüz minlərlə mina və partlamamış sursat zərərsizləşdirilib. Bu, həm insan təhlükəsizliyi, həm də iqtisadi layihələrin sürətlənməsi baxımından həlledici addımdır.

Azad edilmiş ərazilərdə aparılan işlər ölkəmizlə yanaşı, bütün region üçün mühüm önəm daşıyır. Dünyada bu qədər genişmiqyaslı postmünaqişə bərpası modeli demək olar ki, mövcud deyil. Beş ildə dövlət başçısının rəhbərliyi ilə yaradılan bu sistem Azərbaycanın gücünün, iradəsinin, strateji düşüncə tərzinin məhsuludur.

Böyük Qayıdışın beş ili – dağıdılmış torpağın yenidən bərpası, insanların qayıdışı, şəhərlərin dirçəlişi, minalardan təmizlənmiş həyat deməkdir. Zəngilanda keçirilən son iclas isə bu salnamənin yeni səhifəyə keçidini təsdiqlədi – artıq qayıdış prosesi təkcə bərpa mərhələsi deyil, inkişaf mərhələsinə qədəm qoyub.

***V.BİNYATOĞLU***
***XQ***

# Ermənistanda müxalifət vəziyyəti gərginləşdirir

## *Radikallar bu yolla siyasi iflasdan xilas olmağa çalışırlar*

**Ermənistanda siyasi durumun sabit görünməsinə baxmayaraq, hakimiyyətlə müxalifət arasında kəskin ziddiyyətlər qalmaqdadır. Bu ziddiyyətlər kənardan aşkar şəkildə hiss olunur. Baş nazir Nikol Paşinyan hökuməti islahat xəttini davam etdirməyə çalışsa da, cəmiyyətin müxtəlif sosial təbəqələrində etimad problemi qalmaqdadır.**



Radikal müxalifət isə yeni situasiyadan istifadə edərək hakimiyyətə təzyiqi artırır. Lakin onların təqdim etdiyi alternativ ictimai-siyasi və sosial-iqtisadi model real həll yolu kimi qəbul edilmir. Bu düşərgənin sərt çağırışları ölkədə onsuz da zəif olan sabitlik mühitinə əlavə risklər yaradır. Keçmiş siyasi elitanın təsiri altında formalaşan bu qrup daha çox emosional narazılığın üzərində dayanır və konstruktiv mövqe sərgiləmir. Son aylarda müzakirə olunan islahat paketləri də həm hakimiyyətin, həm də müxalifətin müxtəlif dairələrində ziddiyyətli münasibətlə qarşılanır. İrəvanın dəyişkən xarici siyasət xətti daxili dinamikanı daha həssas edir və siyasi yükü artırır. Hökumət isə bütün qeyri-müəyyənliklərə baxmayaraq fəaliyyətini davam etdirməyə çalışır və yaxın dövrdə daha praqmatik addımlar atacağını bəyan edir.

Bu arada müxalifətin noyabrın 20-də Baş prokurorluğun binası qarşısında etiraz aksiyası keçirəcəyi məlum olub. Məlumatı “Facebook”da canlı yayım zamanı Erməni İnqilabi Federasiyası – “Daşnaksütyun”un təmsilçisi, parlamentdəki “Hayastan” deputat fraksiyasının üzvü İşxan Saqatelyan açıqlayıb. O bildirib ki, aksiyanın keçirilməsində məqsəd siyasi məhbuslara dəstək verməkdir.

***

Jurnalist Karpis Paşoyan “Aysor” media qurumunun “Sual var” verilişində Gümrü seçkilərinin nəticələrinin müxalifətlə amansız zarafat olduğunu bildirib. O, müxalifət qüvvələrinin səhvən eyni uğuru digər icmalarda təkrarlaya biləcəklərinə inandıqlarını, lakin hökumətin dərs çıxardığını, taktikasını dəyişdirdiyini və istənilən nəticələrə nail ola bildiyini iddia edib. Paşoyan qeyd edib ki, müxalifət hökumətə qarşı həqiqətən meydan oxuya bilməsə, oxşar nümunə ümumxalq seçkilərində də təkrarlana bilər. Eçmiədzin seçkisinin təcrübəsi parçalanmış, atomlaşmış müxalifətin iştirakının səmərəsiz olduğunu göstərib. Səslərin dağılmasının qarşısını almaq üçün geniş konsolidasiya lazımdır. O bildirib ki, bu gün əsas problem bir sualdadır: bütün müxalifət qüvvələri həqiqətən Nikol Paşinyanın istefasını istəyirlərmi? Əlavə edib ki, bəziləri seçki resurslarından sövdələşmə vasitəsi kimi istifadə etmək, digərləri sadəcə mandat, başqaları isə şöhrətlənmək istəyir.

Onu da bildirək ki, noyabrın 18-də ATƏT Parlament Assambleyasının İstanbulda keçirilən 23-cü payız sessiyası çərçivəsində Ermənistan və Azərbaycan parlament nümayəndə heyətləri arasında ikitərəfli görüş keçirilib. Ermənistan tərəfinin yaydığı məlumata görə, görüş oktyabrın 21-də Cenevrədə Ermənistan və Azərbaycan parlamentlərinin sədrləri arasında əldə edilən razılaşmaya uyğun olaraq baş tutub.

Görüş zamanı tərəflər Vaşinqton sammitinin müsbət rolunu vurğulayıb, əldə edilən razılaşmaları və Azərbaycanla Ermənistan arasında sülhün möhkəmləndirilməsi üçün atılan gələcək addımları müzakirə edib və hər iki ölkə parlamentlərinin bu prosesi dəstəkləməsinin vacibliyini bildiriblər. İki dövlət arasında etimad quruculuğu tədbirlərinin həyata keçirilməsində parlamentlərin roluna xüsusi diqqət yetirilib. Hər iki tərəf beynəlxalq təşkilatlar çərçivəsində parlament üzvləri arasında konstruktiv dialoqun vacibliyini vurğulayıb.

***

Bütün bu prosesləri uzlaşdırdıqda belə qənaətə gəlmək mümkündür ki, Ermənistanda siyasi mühit son həftələrdə yenidən aktiv fazaya keçib və bu proses xüsusilə müxalifətin fəaliyyətində özünü daha aydın göstərir. Noyabrın 20-də Baş prokurorluğun binası qarşısında keçiriləcəyi açıqlanan aksiya müxalifətin gündəmi ələ almaq cəhdinin növbəti nümunəsi hesab olunur. İşxan Saqatelyanın siyasi məhbuslarla bağlı səsləndirdiyi çağırış formal olaraq humanist məqsədlər üzərində qurulsa da, əslində radikal müxalifətin sosial və siyasi meydanda daha görünən mövqe tutmaq istəyi ilə bağlıdır. Bununla belə, geniş ictimai çevrələrdə müxalifətin həmin aksiyalara real təsir gücü ilə bağlı ciddi şübhələr qalmaqdadır.

Gümrü seçkilərinin nəticələri müxalifət üçün həm uğursuzluq, həm də siyasi reallığın dəyişdiyinin göstəricisi oldu. Jurnalist Karpis Paşoyanın bu nəticələri “amansız zarafat” kimi təsvir etməsi emosional yanaşma kimi qəbul edilsə də, Ermənistan siyasətində baş verən transformasiyanın konturlarını anlamaq baxımından müəyyən mənzərə yaradır. Paşoyan hesab edir ki, müxalifət uzun müddət özünü olduğundan daha güclü sayıb və müəyyən icmalardakı lokal nailiyyətləri ümumi seçki mühitinə şamil etməyə çalışıb. Onun toxunduğu ən mühüm məsələlərdən biri müxalifətdəki parçalanmadır. Jurnalistin fikrincə, Eçmiədzin seçkiləri göstərdi ki, atomlaşmış müxalifət anlayışı artıq sırf siyasi termindən çıxaraq real vəziyyəti təsvir edən anlayışa çevrilib. Bir-birindən ayrı platformalarda, fərqli şəxsi maraqlarla çıxış edən siyasi qruplar səs bölgüsünü qaçılmaz edir və bu, hakimiyyət üçün əlavə üstünlük yaradır. Paşoyanın “bizə ağıllı və çevik müxalifət lazımdır” fikri əslində sadə bir müşahidəni ifadə edir: müxalifət yalnız hökumətə təzyiq etmək üçün deyil, həm də siyasi reallıqların şərhini düzgün təqdim etmək üçün funksional olmalıdır. Hazırkı reallıq isə göstərir ki, mövcud müxalifət həm təşkilati, həm də intellektual baxımdan bir neçə ildən bəri qarşılaşdığı böhranı hələ də aşa bilmir.

Müxalifət daxilində dərin sual doğuran əsas məqam Paşinyanın istefasının real məqsəd olub-olmamasıdır. Paşoyanın “bütün müxalifət qüvvələri doğrudan da Paşinyanın getməsini istəyirmi?” sualı siyasi düşərgənin daxili ziddiyyətlərini ifşa edir. Bir qrup üçün seçki resursları ticarət vasitəsidir, digərləri parlament mandatı uğrunda rəqabət aparır, bir başqa zümrə isə siyasi prosesləri şəxsi nüfuz qazanmaq imkanı kimi görür. Bu müxtəlif yanaşmalar müxalifətin vahid mərkəzdən idarə olunmasını mümkünsüz edir və onların real siyasi gücə çevrilməsi ehtimalını azaldır.

Bütün bu proseslər fonunda Ermənistan–Azərbaycan münasibətlərindəki irəliləyiş daxili siyasətə əlavə təsir göstərir. ATƏT Parlament Assambleyasının İstanbul sessiyası çərçivəsində keçirilən görüş, Vaşinqton sammitinin müsbət qiymətləndirilməsi və iki ölkə parlamentlərinin dialoq imkanlarının genişləndirilməsi Ermənistanda siyasi qüvvələrin mövqelərinə birbaşa təsir edir. Sülh prosesinin irəliləməsi Ermənistan cəmiyyəti üçün həm ümid, həm də gərginlik mənbəyinə çevrilib. Müxalifət bu prosesi özünə sərf edən formada təqdim etməyə çalışır, lakin Paşinyan komandası sülh gündəmini möhkəmləndirməklə siyasi üstünlüyünü qorumağa nail olur.

İndiki durum göstərir ki, müxalifətin elan etdiyi aksiya qısamüddətli rezonans yarada bilər, lakin onun uzunmüddətli siyasi nəticəsi yenə də zəif olacaq. Müxalifət öz daxilində konsolidasiya prosesini başa çatdırmadan və real siyasi məqsədləri müəyyənləşdirmədən geniş ictimai dəstək toplamaq imkanına malik deyil. Ermənistanda siyasi mübarizənin yeni mərhələsi daha çox strateji təfəkkür tələb edir və bu tələbin ödənməsi hazırda mümkünsüz görünür.

Beləliklə, müxalifət hələ də vahid güc mərkəzinə çevrilmək qabiliyyətini nümayiş etdirə bilmir. Noyabrın 20-nə planlaşdırılan aksiya müxalifət üçün simvolik əhəmiyyət daşısa da, real siyasi təsir gücü məhdud olacaq. Gümrü və Eçmiədzin seçkiləri müxalifətin parçalanmasının sistem xarakteri aldığını, hakimiyyətin isə təşkilati baxımdan daha çevik və üstün vəziyyətdə olduğunu sübut etdi. Ermənistan–Azərbaycan parlament dialoqunun intensivləşməsi fonunda müxalifətin gündəmi ələ almaq cəhdləri əvvəlki kimi effekt vermir.

**Politoloq Ramiyə Məmmədovanın** fikrincə, Ermənistandakı mövcud siyasi di-



namika göstərir ki, müxalifət hələ də funksional siyasi qüvvəyə çevrilmək üçün lazımi institusional hazırlığa malik deyil. Onun sözlərinə görə, noyabrın 20-nə planlaşdırılan aksiya daha çox imic xarakteri daşıyır və real siyasi dəyişiklik yaratmaq potensialından uzaqdır: “Gümrü və Eçmiədzin seçkilərinin nəticələri müxalifət daxilindəki parçalanmanın dərinliyini, şəxsi ambisiyaların ümumi maraqları üstələdiyini bir daha nümayiş etdirdi. Bu isə müxalifətin geniş elektorat qarşısında cəlbediciliyini azaldır və onun siyasi rəqabət imkanlarını məhdudlaşdırır. Hakimiyyət isə qarşı tərəfin bu zəifliyindən ustalıqla istifadə edir, idarəetmədə çevik yanaşma nümayiş etdirir və seçki proseslərinə nəzarət imkanlarını gücləndirir. Ermənistan–Azərbaycan münasibətlərində dialoqun intensivləşməsi, parlamentlərarası görüşlərin müsbət fon yaratması hökumətin mövqeyini daha da möhkəmləndirir. Çünki sülh gündəmi hazırda həm beynəlxalq dəstək, həm də daxili sabitlik üçün əsas siyasi resurs hesab olunur. Belə şəraitdə müxalifətin fəaliyyəti daha çox fraqmentar xarakter daşıyır və strategiya çatışmazlığı açıq görünür. Yekun olaraq, qeyd etmək istərdim ki, yaxın perspektivdə ölkədə siyasi balansın dəyişməsi real görünmür”.

***Səxavət HƏMİD***
***XQ***

# “Böyük Qayıdış”a maliyyə dəstəyi artır

**Dövlət Proqramı çərçivəsində işğaldan azad edilmiş Qarabağ və Şərqi Zəngəzur bölgələrinin bərpası üçün dövlət büdcəsindən olduqca böyük vəsait ayrılır. Maliyyə naziri Sahil Babayev Milli Məclisin plenar iclasında “Azərbaycan Respublikasının 2026-cı il dövlət büdcəsi haqqında” qanun layihəsinin müzakirəsi zamanı deyib ki, 2020-ci ilin sonundan etibarən azad olunmuş ərazilərin yenidən qurulmasına hər il büdcə imkanları səfərbər edilərək cari ilin əvvəlinə 17,6 milyard manat sərf edilib, 2025-ci ilin sonuna qədər isə bu məbləğin 22 milyard manata çatması gözlənilir. 2026-cı ildə isə bu xərclər büdcənin təxminən 8,4 faizini təşkil edəcək.**

Nazir vurğulayıb ki, 2026-cı ilin büdcəsinin ilk prioriteti məhz Böyük Qayıdış proqramıdır və imkanlar artdıqca azad edilmiş ərazilərdə quruculuq işləri sürətləndirilməlidir. Bu göstəricilər onu göstərir ki, Azərbaycan büdcəsinin böyük hissəsi məhz qədim yurd yerlərinin abadlaşdırılmasına yönəldilir – dövlət büdcəsi layihəsində “Böyük Qayıdış” istiqamətinə öncəliklə maliyyə təminatı ayrılması nəzərdə tutulub.

Azad edilən ərazilərdə yüzlərlə yaşayış məntəqəsi bərpa olunur. Proqramın ilk mərhələsində ümumilikdə 100 yaşayış məntəqəsinin – şəhər və kəndlərin yenidən qurulması nəzərdə tutulur. Hazırda Qırmızı Bazar, Zar, Hadrut kimi yeni qəsəbələrin salınmasını, Laçın, Füzuli, Cəbrayıl və Zəngilan şəhərlərinin mərkəzinin yenidən qurulması sürətləndirilir.

İnfrastruktur layihələrinə xüsusilə böyük diqqət yetirilir. Qısa müddətdə Füzuli və Zəngilan rayonlarının beynəlxalq hava limanları istifadəyə verilib, Laçın üçün yeni hava limanının tikintisinə başlanılıb. Bölgədə yol şəbəkəsi də yenilənir – Kəlbəcərdə Toğanalı–Kəlbəcər avtomobil yolunun çəkilməsi xüsusi önəm daşıyır. Su və elektrik təminatı gücləndirilir: Kəlbəcərdə “Çıraq” və “Soyuqbulaq” kiçik su elektrik stansiyaları açılıb, ümumi gücü gələcəkdə 75,5 MVt-a çatacaq.

Sənaye və xidmət sahələrində də layihələr aparılır. Kəlbəcərdə dayandırılmış “İstisu” mineral su zavodunun yeni tikilisi həyata keçirilir



– zavodun 7,8 min kvadratmetr sahəsi 100 işçi ilə fəaliyyətə başlayacaq, Almaniya istehsalı şüşə və plastik qablaşdırma xətləri quraşdırılacaq (günlük gücü 16 min və 8 min flakon). Azad ərazilərdə turizm infrastrukturuna da sərmayə qoyulur: “İstisu” müalicə-istirahət kompleksinin bərpası layihəsi üzrə 32 min m² sahədə 145 otaqlı sanatoriya tikiləcək. Bu və digər sənaye və turizm obyektlərinin tikintisi lokal iqtisadi canlanmaya töhfə verəcək.

“Böyük Qayıdış” proqramı çərçivəsində inşa olunan obyektlər həm də yeni iş yerləri təmin edir. Məsələn, Kəlbəcərdəki yeni zavod 100 nəfərə iş imkanı təmin edəcək. Bakıdan ayrılmış büdcə vəsaitləri nəticəsində bölgələrdə məktəblər, xəstəxanalar, bazar və digər sosial obyektlər tikilir. Nəticədə, yüz milyonlarla manatlıq investisiya ilə həyata keçirilən layihələr regionların gələcək inkişafı üçün bünövrə yaradır. Dövlət büdcəsindən daimi yatırımlar ərazilərin infrastruktur baxımından müasirləşdirilməsinə şərait yaradaraq uzunmüddətli iqtisadi artım üçün zəmin formalaşdırır.

“Böyük Qayıdış” Azərbaycanın 2030-cu ilədək olan 5 prioritetindən biri kimi müəyyən edilib. Qeyd edək ki, dövlət başçısının tapşırığına uyğun olaraq, bu proqramın layihələrinə maliyyə dəstəyi dövlət büdcəsində ilk sırada yer alıb.

***XQ***

# Bakıda qlobal bankçılıq müzakirəsi

## *Rəqəmsal transformasiya və dayanıqlı maliyyə məsələləri diqqət mərkəzindədir*

**Azərbaycan paytaxtında IX Beynəlxalq Bankçılıq Forumu keçirilir. Məclis Azərbaycan Banklar Assosiasiyası (ABA) və Azərbaycan Mərkəzi Bankının təşkilatçılığı, eləcə də MasterCard beynəlxalq ödəniş şirkətinin tərəfdaşlığı ilə ərsəyə gəlib. Müzakirələr “Etibarlı, Təhlükəsiz və Dayanıqlı Bankçılıq” devizi altında keçirilir və nağdsız iqtisadiyyat, rəqəmsal transformasiya, süni intellekt, kibertəhlükəsizlik, açıq bankçılıq, kapital bazarları və yeni ödəniş ekosistemləri kimi aktual mövzuları əhatə edir. Məqsəd bank-maliyyə sektorunda qlobal və yerli trendləri dəyərləndirmək, innovativ həlləri araşdırmaq və dayanıqlı maliyyə sistemi quruculuğu istiqamətində fikir mübadiləsi aparmaqdır.**



Qeyd edək ki, forumda 1500-dən çox yerli və xarici iştirakçı – dövlət qurumlarının nümayəndələri, bank rəhbərləri, tənzimləyicilər, fintek ekosistemi təmsilçiləri və maliyyə ekspertləri – bir araya gəlir. İki gün ərzində 50-dən artıq spikerin iştirakı ilə müxtəlif mövzuları əhatə edən 9 panel iclası təşkil olunur. Bu miqyaslı iştirak və geniş gündəm tədbirin həm Azərbaycanın bank sektoru, həm də beynəlxalq maliyyə ictimaiyyəti üçün mühüm platforma olduğunu göstərdi.

Forumun ilk günü aktual çıxışlarla yadda qaldı. Aparıcı simalar bankçılığın və ümumən Azərbaycanın iqtisadiyyat sahəsində gələcəyi barədə vacib fikirlər səsləndirdilər. Azərbaycan Banklar Assosasiyasının prezidenti Zakir Nuriyev rəqəmsal ödəniş infrastrukturunun gücləndirilməsinin vacibliyini vurğulayaraq bildirdi ki, Azərbaycanda "card-to-card" ödəniş əməliyyatları ilə bağlı qanunvericiliyə yeni tələblər əlavə ediləcək. Bu addım rəqəmsal ödənişlərin inkişaf meyillərini qorumaq və nağd dövriyyədən asılılığı azaltmaq məqsədi daşıyır. O, adi Ödənişlər Sisteminin imkanlarından tam istifadə olunmalı olduğunu, həmçinin alternativ ödəniş vasitələrinin (QR kod, NFC və s.) tətbiqinin genişləndirilməsinin vacibliyini qeyd etdi.

"Mastercard" şirkətinin regional rəhbəri Eren Özkan da forumun natiqlərindən biri idi. O, süni intellekt texnologiyalarının bank xidmətlərində inqilabi dəyişikliklər yaratdığını diqqətə çatdırdı. Onun sözlərinə görə, qlobal banklar hər il AI sahəsinə təxminən 600 milyard dollar sərmayə qoyurlar. E.Özkan bildirir ki, 2030-cu ilə qədər bank sektorunda müştəri xidmətlərinin böyük hissəsi süni zəka vasitəsilə icra olunacaq. Həmçinin rəqəmsal aktivlərin hazırda dünya ÜDM-nin 3 faizini təşkil etdiyini, 2030-cu ildə bu rəqəmin 10 trilyon dollara çatmasının proqnozlaşdırıldığını qeyd etdi.

İqtisadi İslahatların Təhlili və Kommunikasiya Mərkəzinin icraçı direktoru Vüsal Qasımlı çıxışında ölkədə iqtisadi artımı sürətləndirmək üçün böyük investisiya potensialı olduğunu bildirdi: “İqtisadi artımı stimullaşdıracaq əsas istiqamət investisiya xətti olacaq. Hazırda 2027-30-cu illər üçün sosial-iqtisadi inkişaf strategiyası üzərində işlər aparılır və sənəddə 10 milyard manatdan artıq əsaslı vəsait qoyuluşu nəzərdə tutulur. Eyni zamanda, "Böyük Qayıdış" proqramı çərçivəsində 2027-30-cu illərdə 13,2 milyard manatlıq investisiya yatırılması planlaşdırılır”. Bununla yanaşı, planlaşdırılan iri infrastruktur layihələrinin icrası ilə dövlətin illik əsaslı yatırım həcmi təxminən 4 milyard manata yüksələcək ki, bu da iqtisadi artımın daha dayanıqlı olmasına imkan verəcək.

Rəqəmsal İnkişaf və İnnovasiya Agentliyinin sədri Fərid Osmanov dövlət və bank sektorunun rəqəmsal inteqrasiyası barədə danışdı. Onun sözlərinə görə, "myGov" elektron hökumət portalının aktiv istifadəçi sayı 800 mindən çoxdur, ümumi istifadəçi sayı isə 2 milyona yaxınlaşıb. F.Osmanov qeyd etdi ki, maliyyə sektoru ilə dövlət sistemlərinin “Digital Finance” adlı inteqrasiya platforması vasitəsilə əlaqələndirilməsi sayəsində bugünədək 300 milyona yaxın tranzaksiya həyata keçirilib. Artıq dövlət qurumları arasında bütün yazışmalar tam elektronlaşdırılıb və kağızsız hökumət modelinə keçid prosesi sürətlə gedir.

Bununla yanaşı, bir sıra məsələlərlə bağlı XQ-yə açıqlamasında **Azərbaycan Mərkəzi Bankının (AMB) sədr müavini Vüsal Xəlilov**



bildirdi ki, bank sektorunun inkişafı ilə əlaqədar Azərbaycanda bir sıra banklar açıq bankçılıq üzərindən həyata keçirilən ödənişlərə qoşulub. “Artıq bir neçə bankın mobil tətbiqlərində açıq bankçılıq üzərindən işləyən xidmətlər mövcuddur. Bu, əsasən, hesab və transaksiya məlumatlarını əhatə edir. Strategiyamızda olan yol xəritəsinə uyğun olaraq bankların sistemə qoşulması davam edir. Maliyyə institutları kibertəhlükəsizlik qaydalarına uyğunlaşma prosesindədir. Kibertəhlükəsizliklə bağlı bizim cari qaydalarımız, yanaşmamız var”.

Sədr Ani Ödənişlər Sistemi üzrə ödənişlərdən də danışdı: “Burada ödənişlər 25 dəfə artıb və ciddi yüksəliş qeydə alınır. Ani Ödənişlər və AZQR standartı həm regionlarda, həm də Bakı üzrə nağdsız ödənişlərin genişlənməsinə, xərclərin azalmasına imkan verəcək. Bu isə həm vətəndaşların, həm də sahibkarların ödəniş xərclərini əhəmiyyətli dərəcədə azaltmağı nəzərdə tutur.

IX Beynəlxalq Bankçılıq Forumuna xarici ölkələrdən gələn, bankçılıq sahəsində qlobal nüfuza sahib rəsmilər də böyük maraq göstərir. Natiqlərdən biri kimi, Polşa Banklar Assosiasiyasının vitse-prezidenti Vlodzimyej Kiçinski beynəlxalq əməkdaşlıq imkanları haqqında auditoriyaya geniş məlumat verərək bildirdi ki, Polşa Banklar Assosiasiyası Azərbaycanın bank sektorunu strateji tərəfdaş kimi görür və iki ölkə arasında bankçılıq sahəsində əməkdaşlığın daha da dərinləşdirilməsini prioritet hesab edir. Kiçinski Polşanın bank sisteminin rəqəmsallaşma üzrə dünya liderlərindən olduğunu qeyd edərək, ən qabaqcıl 34 rəqəmsal bank arasında 4 Polşa bankının yer aldığını vurğuladı.

Qeyd edək ki, forum çərçivəsində panel iclaslarında bank sektorunu maraqlandıran bir sıra mühüm mövzular ətrafında müzakirələr aparıldı. “Sərhədsiz bankçılıq: maliyyə mühitini yenidən müəyyən edən qlobal qüvvələr”, “Risklər və tənzimləyici təkamül”, “Yerli banklar növbəti artım dalğasını necə formalaşdırır” və “Etibarlı, təhlükəsiz və davamlı bank işi” kimi panellərdə müvafiq olaraq qlobal bankçılıq trendləri, risk menecmenti və tənzimləmə islahatları, bank sektorunda lokomotiv rolunun gücləndirilməsi və dayanıqlı maliyyə prinsipləri müzakirə olundu.

Bununla yanaşı, forum boyu rəqəmsal transformasiya və innovativ texnologiyalar əsas müzakirə mövzusu idi. Açıq bankçılıq (Open Banking) ekosisteminin inkişafı, ödəniş sistemlərinin modernizasiyası (ani ödənişlər, QR ödənişlər, rəqəmsal valyutalar) və kibertəhlükəsizlik məsələləri üzrə təqdimatlar edildi. Dayanıqlı maliyyə və ESG meyarlarının tətbiqi, iqlim risklərinin nəzərə alınması kimi mövzular da gündəmdə idi. Ümumilikdə, iştirakçılar maliyyə ekosisteminin gələcəyini, innovativ həllərin tətbiqini və sektorun uzunmüddətli dayanıqlılığını təmin etmək yollarını geniş müzakirə etdilər.

Forumun nəticəsi olaraq bir sıra vacib təşəbbüslər diqqətə layiq oldu. İlk növbədə, rəqəmsal ödənişlərin stimullaşdırılması məqsədilə kartdan-karta köçürmələr üzrə yeni qaydaların tətbiqi anons edildi. Bu dəyişiklik nağdsız ödənişlərin payını artırmaq və əməliyyatların şəffaflığını gücləndirmək məqsədi daşıyır. Bundan başqa, ölkədaxili Ani Ödənişlər Sisteminin imkanlarının genişləndirilməsi və alternativ ödəniş texnologiyalarının (QR, NFC və s.) sürətlə tətbiqi qərarlaşdırıldı. Forum çərçivəsində Azərbaycan ilə qonşu ölkələr arasında birgə fintech sandbox yaratmaq təşəbbüsü də irəli sürüldü ki, bu, regional innovasiya mühitinə töhfə verə bilər. Müzakirələrdə bank sektorunda maliyyə savadlılığının artırılması və aparılan islahatların sektor tərəfindən dəstəklənməsi zərurəti də xüsusi vurğulandı.

Forumda səslənən fikirlər Azərbaycanda bank sektorunun gələcək inkişafına dair bir yol xəritəsi formalaşdırır. Rəqəmsal texnologiyaların və innovativ həllərin geniş tətbiqi bank xidmətlərinin keyfiyyətini yüksəldib müştəri məmnuniyyətini artıracaq, eyni zamanda nağdsız ödənişlərin payını böyüdərək iqtisadiyyatın şəffaflaşmasına təkan verəcək. Müzakirə olunan investisiya planları və dayanıqlı maliyyə yanaşmaları bank sektorunun real iqtisadiyyata dəstəyini gücləndirə bilər – planlaşdırılan iri layihələrin maliyyələşməsində bankların fəal iştirakı ümumi iqtisadi artım tempinə pozitiv təsir göstərəcək. Beynəlxalq əməkdaşlıq istiqamətində qurulan əlaqələr isə yerli banklara qlobal təcrübədən yararlanmaq imkanı verəcək və sektorun rəqabət qabiliyyətini yüksəldəcək.

***Nurlan ABDALOV***
***XQ***

**2019-cu ilin 1 yanvarından 2025-ci ilin 1 noyabrınadək Azərbaycanın qeyri-neft-qaz özəl sektorunda gündəlik orta hesabla 200-ə yaxın yeni iş yerinin yaradılması müşahidə olunub. Bu barədə iqtisadiyyat naziri Mikayıl Cabbarov Milli Məclisin plenar iclasında “2026-cı il dövlət büdcəsi haqqında” qanun layihəsinin I oxunuşda müzakirəsi zamanı məlumat verib.**

# Qeyri-neft-qaz sektorunda yeni iş yerləri

Nazir bildirib: “Razılaşaq ki, hər təqvim günü 200 iş yerinin yaranması ölkəmiz üçün çox böyük iqtisadi nəticədir. Əməkhaqqı islahatı əmək bazarında böyük şəffaflaşma effekti yaradıb. Belə ki, qeyri-neft-qaz özəl sektorda 8 min manata qədər əmək haqlarından gəlir vergisindən azad olunması nəticəsində, 1 yanvar 2019-cu ildən 1 noyabr 2025-ci ilədək, qeyri-neft-qaz özəl sektorda əmək müqavilələrinin sayı 481 min artaraq 1 milyonu ötüb, sektorun cəmi əmək müqavilələrində payı 38 faizdən 54 faizə yüksəlib”.

M. Cabbarov əlavə edib ki, Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi yanında Dövlət Sosial Müdafiə Fondunun gəlirlərində büdcədən ayırmaların payı 2018-ci ildəki 35,6 faizdən, 2024-cü ildə 17,5 faizə düşüb: “1 yanvar 2019-cu illə müqayisədə 1 noyabr 2025-ci il tarixinə ölkədə aktiv vergi ödəyicilərinin sayı iki dəfə artaraq 845 mini ötüb. Strateji valyuta ehtiyatları 1 yanvar 2019-cu il tarixinə 44,7 milyard ABŞ dolları olduğu halda, 1 noyabr 2025-ci il tarixinə bu 1,8 dəfə çox - 82,5 milyard ABŞ dolları olub. Bu da 2025-ci ilə gözlənilən ümumdaxili məhsulun həcmini üstələyir.

İqtisadiyyat naziri daha sonra qeyd edib ki, 2019-2024-cü illərdə ölkədə qeyri-neft-qaz sənaye istehsalı 1,9 dəfə böyüyüb. İri dövlət şirkətlərinin əksəriyyətinin idarə edilməsində səmərəliliyin artırılması və korporativ idarəetmə prinsiplərinin tətbiqi təmin edilib, Azərbaycan İnvestisiya Holdinqi, eləcə də Azərbaycan Nəqliyyat və Kommunikasiya Holdinqi yaradılıb. Bu iki struktura daxil olan əksər dövlət şirkətlərinin rentabelliyi və iqtisadi göstəriciləri əhəmiyyətli dərəcədə yaxşılaşıb, dövlət büdcəsindən asılılıq isə azalıb.

Xatırladaq ki, 2019-cu il yanvarından 2025-ci ilin noyabrınadək olan müddət təxminən 2500 gün təşkil edir. Gündə orta hesabla 200 yeni iş yeri isə bu dövrdə ümumilikdə təxminən 500 minə yaxın yeni daimi iş yerinin formalaşdırılması deməkdir. Bu göstəricilər ölkə iqtisadiyyatında aparılan struktur islahatlarının real nəticəsini nümayiş etdirir. Həmçinin özəl sektorun genişlənməsi fonunda məşğulluq imkanlarının davamlı artımı da müşahidə olunur. Xüsusilə qeyri-neft sektorunda iş



yerlərinin davamlı şəkildə çoxalması iqtisadiyyatın diversifikasiyasının uğurla həyata keçirildiyini göstərən mühüm amildir. Bu artım uzunmüddətli iqtisadi siyasətin, institusional islahatların və regionların inkişafına yönəlmiş kompleks tədbirlərin birbaşa nəticəsidir. Son 6 ildən artıq dövrdə həm şəhər yerlərində, həm də regionlarda yeni müəssisələrin fəaliyyətə başlaması, xidmət sahəsinin genişlənməsi, aqrar sektorda istehsal həcmlərinin artması və tikinti-urbanizasiya proseslərinin sürətlənməsi məşğulluğun strukturunda ciddi dəyişikliklər yaradıb.

Ölkənin iqtisadi inkişaf strategiyasında xüsusi yer tutan sənaye məhəllələri və sənaye parkları qeyri-neft sektorunda iş yerlərinin formalaşmasında əsas dayaqlardan biri olub. Neftçala, Masallı, Sabirabad, Hacıqabul və digər bölgələrdə fəaliyyətə başlayan sənaye məhəllələri sahibkarlığın regionlara yayılmasını təmin edib. Burada müxtəlif istiqamətlər üzrə - yüngül sənaye, qida sənayesi, maşınqayırma, mebel istehsalı və kənd təsərrüfatı məhsullarının emalı sahələrində yeni müəssisələr fəaliyyətə başlayıb.

Eyni zamanda, Qarabağ və Şərqi Zəngəzur iqtisadi rayonlarında, xüsusilə Ağdam və Cəbrayıl ərazilərində qurulan sənaye zonaları artıq biznes üçün cəlbedici mərkəzə çevrilir. Həmin zonalarda iş adamları üçün əlverişli infrastruktur yaradılıb. Elektrik, su, qaz, yollar, logistika imkanları yeni istehsal sahələrinin yaranmasına şərait yaradır ki, bu da öz növbəsində əlavə məşğulluq formalaşdırır.

Məşğulluğun genişlənməsinə təsir edən mühüm mexanizmlərdən biri də özünüməşğulluq proqramlarıdır. Dövlət tərəfindən verilən kənd təsərrüfatı təyinatlı avadanlıqlar, istehsal vasitələri, xidmət sahələri üçün kiçik biznes paketləri minlərlə vətəndaşın kiçik sahibkarlıq fəaliyyətinə başlamasına imkan verib. Bundan əlavə, aqrar sektor həmişə regionlarda əsas məşğulluq mənbələrindən biri olub. 2019-2025 dövründə bu sahədə dövlət dəstəyi daha da genişlənib, fermerlərin maliyyə resurslarına çıxışı yaxşılaşıb, aqroparkların sayı artıb. Yeni istixana kompleksləri, emal müəssisələri, təsərrüfatların texniki təminatının gücləndirilməsi kənd təsərrüfatında daha çox iş yerinin yaranmasına yol açıb. Eyni zamanda, yerli məhsulların ixrac potensialının artması aqrar sahədə istehsalın genişlənməsinə təkan verib.

Yeri gəlmişkən, Qarabağ və Şərqi Zəngəzurda aparılan genişmiqyaslı bərpa və yenidənqurma işləri tikinti sektorunu ölkənin ən böyük məşğulluq mənbələrindən birinə çevirib. Yol-nəqliyyat infrastrukturu, hava limanları, enerji və su layihələri, yaşayış məhəllələri və sosial obyektlərin tikintisi işçi qüvvəsinə tələbatı xeyli artırıb. Bu proses xidmət, logistika, nəqliyyat və ticarət kimi əlaqəli sahələrdə də yeni iş yerlərinin yaranmasına səbəb olub.

Ölkədə ən sürətlə genişlənən sahələrdən biri də xidmət sektorudur. Dövlət Statistika Komitəsinin açıqladığı rəqəmlərə əsasən, 2025-ci ilin yanvar-sentyabr aylarında Azərbaycana turizm məqsədilə gələn xarici vətəndaşların sayı 1 milyon nəfərdən çox olub. Turizmin canlanması, iaşə obyektlərinin və ticarət infrastrukturunun artması, eləcə də elektron kommersiya və kuryer xidmətlərinin inkişafı böyük şəhərlərdə yeni məşğulluq imkanları yaradıb.

2019-2024-cü illərdə Azərbaycanın illik qeyri-neft-qaz ixracı iki dəfə artaraq 3,4 milyard ABŞ dolları, ixrac olunan əmtəələrin sayı isə 15 faiz artımla 2810 olub. İqtisadiyyat naziri Mikayıl Cabbarov parlamentdəki müzakirələrdə bildirib ki, neft-qaz qiymətlərinin və hasilatının azalmasına baxmayaraq, ölkənin xarici ticarət dövriyyəsi 2022-ci ildən etibarən 50 milyard dollar səviyyəsində sabit qalıb. 2022–2024-cü illərdə xarici ticarət balansında, Dövlət Neft Fondunun qızıl idxalı istisna olmaqla, orta illik 16 milyard dollarlıq müsbət saldo qeydə alınıb.

Qeyri-neft-qaz xidmətləri ixracı isə 45 faiz artaraq 6,5 milyard dolları keçib. Nazir qeyd edib ki, 2018-ci illə müqayisədə 2025-ci il dövlət büdcəsinin gəlirləri 1,7 dəfə, qeyri-neft-qaz gəlirləri 2,2 dəfə, bu sahədə vergi daxilolmaları isə 2,3 dəfə yüksəlib. Qeyri-neft-qaz gəlirlərinin büdcədəki payı 2018-ci ildəki 40 faizdən 2025-ci ildə 52 faizə, 2026-cı il layihəsində isə 57 faizə çatdırılıb.

Qeyd edək ki, qeyri-neft-qaz sektorunda ixrac hər ötən il artım göstərir. Statistik göstəricilərdən görünür ki, qeyri-neft-qaz ixracı sistemli şəkildə yüksəlir və ölkənin iqtisadiyyatında diversifikasiya prosesini dəstəkləyir. Cari ilin yanvar-avqust aylarında Azərbaycanın qeyri-neft sektoru üzrə ixracı 2024-cü ilin müvafiq dövrü ilə müqayisədə 10,3 faiz artaraq 2,4 milyard dollar təşkil edib.

İqtisadi İslahatların Təhlili və Kommunikasiya Mərkəzinin (İİTKM) “İxrac icmalı”nın sentyabr sayına dair ilkin göstəricilərinə əsasən, yanvar-avqust aylarında yeyinti məhsulları üzrə ixrac 22,9 faiz artaraq 774,2 milyon dollara bərabər olub. İcmala əsasən, cari ilin 8 ayında ixrac olunan şəkər ötən ilin müvafiq dövrünə nəzərən 58,2 faiz, meyvə-tərəvəz 32,2 faiz, kimya sənayesi məhsulları 24,3 faiz, pambıq iplik 16,3 faiz, çay 2,1 faiz, qara metallar və onlardan hazırlanan məmulatlar 0,2 faiz artıb. 2025-ci ilin yanvar-avqust aylarında aqrar məhsullar üzrə ixrac 28,2 faiz artaraq 614,4 milyon dollar, aqrar-sənaye məhsulları üzrə ixrac isə 4,7 faiz artaraq 209,5 milyon dollara bərabər olub.

Bütövlükdə aqrar və aqrar-sənaye məhsullarının birgə ixracı 21,3 faiz artaraq 823,9 milyon dollar təşkil edib.

***Musa BAĞIRLI***
***XQ***



# Özbək miniatür ustasının Bakı sərgisi

**"İçərişəhər" Dövlət Tarix-Memarlıq Qoruğu İdarəsinin təşkilatçılığı ilə noyabrın 18-də tanınmış özbək miniatür ustası Cahangir Aşurovla görüş və ustad dərsi keçirilib, daha sonra isə sənətkarın əsərlərindən ibarət sərgi açılıb.**





Heydər Əliyev Fondunun vitse-prezidenti Leyla Əliyeva, Arzu Əliyeva və Alena Əliyeva, eləcə də sənət adamları tədbirdə iştirak ediblər.

Bakı Fotoqrafiya Evində keçirilən görüş zamanı Cahangir Aşurov iştirakçılarla yaradıcılıq təcrübəsini bölüşüb, iş texnikasını nümayiş etdirib və sualları cavablandırıb.

Tədbirdə rəssamlar, dizaynerlər, incəsənət araşdırmaçıları və sənətsevərlər iştirak edərək miniatür sənətinin incəliklərini yaxından tanımaq və onun sehrini hiss etmək imkanı əldə ediblər.

Daha sonra Bakı Fotoqrafiya Evindəki sərgi zalında Cahangir Aşurovun "Şərq miniatürü: Zamanla səyahət" sərgisinin açılış mərasimi təşkil olunub.

Sərgi miniatür sənətinin zəngin tarixini izləyicilərə çatdırmaq baxımından xüsusi əhəmiyyət daşıyır.

*XQ*

# Dövlət Komissiyasının İşçi Qrupunun hesabatı

**Bu ilin yanvar–oktyabr ayları ərzində narkomanlığa və narkotik vasitələrin, psixotrop maddələrin və onların prekursorlarının qanunsuz dövriyyəsinə qarşı mübarizənin nəticələri Narkomanlığa və Narkotik Vasitələrin Qanunsuz Dövriyyəsinə Qarşı Mübarizə üzrə Dövlət Komissiyasının daimi fəaliyyət göstərən İşçi Qrupu tərəfindən müqayisəli şəkildə təhlil edilərək ümumiləşdirilib.**

Hüquq-mühafizə orqanları tərəfindən narkomanlığa və narkotik vasitələrin qanunsuz dövriyyəsinə qarşı mübarizə sahəsində həyata keçirilmiş kompleks əməliyyat-axtarış tədbirləri nəticəsində, ümumilikdə, 7 min 30 cinayət faktı aşkarlanıb. Onlardan 2 min 232-si narkotik vasitələrin qanunsuz satışı, 4 min 611-i narkotik vasitələrin qanunsuz əldə edilib saxlanılması, 185-i narkotik tərkibli bitkilərin qanunsuz əkilib becərilməsi, 2-si bu kateqoriyadan olan digər cinayətlərlə bağlı olub. 7 ton 263 kiloqram narkotik vasitələrin və psixotrop maddələr müsadirə olunub. 1201,5 hektar sahədə yaş kütləsi 304 ton 762 kiloqram yabanı narkotik tərkibli məhv edilib.

Hüquq-mühafizə orqanları tərəfindən narkotik vasitələrin və psixotrop maddələrin qaçaqmalçılıq yolu ilə ölkə ərazisinə gətirilməsi ilə bağlı 212 fakt aşkar edilib, həmin faktlar üzrə qanunsuz dövriyyədən ümumi çəkisi 3 ton 87 kiloqram və 10 min 506 həb metadon narkotik vasitə və psixotrop maddə, 13 min 194 ədəd həb və 5,7 qram güclü təsir edən maddə çıxarılıb.

Ümumilikdə, aşkar edilmiş cinayətlərin 251-i qrup halında törədilib və həmin faktlar üzrə qanunsuz dövriyyədən çəkisi 2 ton 348 kiloqram 977,374 qram nakotik vasitə, psixotrop maddə və 36 qram güclü təsir edən maddə müsadirə edilib. 2 min 254 cinayət faktı əvvəllər məhkum olunmuş şəxslər tərəfindən törədilib və onlardan 1 ton 854 kiloqram 643,966 qram müxtəlif növ narkotik vasitə və psixotrop maddə müsadirə olunub.

Daxili İşlər Nazirliyi bütün növ sərxoşluq hallarının müəyyənləşdirilməsi üçün Səhiyyə Nazirliyinin Respublika Narkoloji Mərkəzinə 80 min 786 nəfər istiqamətləndirib. Onlardan narkotiklərdən istifadənin təyin edilməsi məqsədilə tibbi müayinədən keçirilmiş 4756 nəfərdən 2514 nəfərin istifadəçi olması müəyyən edilib və bununla bağlı zəruri tədbirlərin görülməsi təmin olunub.

Hazırda metadonla əvəzedici müalicə proqramı üzrə 3 məntəqədə (Respublika Narkoloji Mərkəzində 292, QİÇS-lə Mübarizə Mərkəzində 316, Sumqayıt Narkoloji Mərkəzində 126 nəfər) 734 xəstə müalicə alır.

Respublika QİÇS-lə Mübarizə Mərkəzinin verdiyi məlumata əsasən, ölkədə narkomanların İnsanın İmmunçatışmazlığı Virusuna yeni yoluxma hadisələrinin sayında azalma müşahidə olunur. 2025-ci ilin oktyabr ayının sonuna kimi aşkarlanmış İİV-ə yoluxmuş Azərbaycan vətəndaşları arasında 50 (4,7 faiz) nəfəri inyekson narkotik istifadəçiləri olub.

*XQ*

# Leyla Əliyeva STEAM Festivalında



**Noyabrın 19-da Heydər Əliyev Fondunun vitse-prezidenti, IDEA İctimai Birliyinin təsisçisi və rəhbəri Leyla Əliyeva, Bakı Media Mərkəzinin rəhbəri Arzu Əliyeva və Alena Əliyeva Elm və Təhsil Nazirliyinin dəstəyi və "STEAM Azərbaycan" layihəsinin təşkilatçılığı ilə Bakı Ekspo Mərkəzində keçirilən Beynəlxalq STEAM Azərbaycan Festivalını (SAF 2025) ziyarət ediblər.**



Elm və təhsil naziri Emin Əmrullayev qonaqlara festivalın məqsədləri, proqramı və müxtəlif istiqamətlər üzrə təqdim olunan layihələr haqqında ətraflı məlumat verib.

Ziyarət zamanı onlar stendlərə baxış keçirib, festival iştirakçıları ilə görüşərək gənc ixtiraçıların innovativ layihələri ilə tanış olublar.

Bundan əlavə, Leyla Əliyeva, Arzu Əliyeva və Alena Əliyeva iştirakçılarla səmimi söhbət edib və onlarla xatirə şəkilləri çəkdiriblər.

Qeyd edək ki, noyabrın 17-19-u tarixlərini əhatə edən Beynəlxalq STEAM Azərbaycan Festivalı robototexnika, süni intellekt, bərpaolunan enerji, dron və peyk texnologiyaları, incəsənət, innovativ layihələr və mühəndislik kimi sahələri əhatə edən kateqoriyaları ilə seçilir. Final mərhələsinə 1400-dən çox iştirakçı vəsiqə qazanıb, onların 202-si müxtəlif xarici ölkələri təmsil edir. Festivalda ümumilikdə 22 ölkə iştirak edir.

*XQ*



# Yeni Klinikada müasir mərkəzlərin açılışı





**Noyabrın 19-da Yeni Klinikada Yeni Robotik Reabilitasiya və Sümük İliyi Transplantasiyası mərkəzlərinin açılış mərasimi olub.**



Mərasimdə Heydər Əliyev Fondunun vitse-prezidenti Leyla Əliyeva, Bakı Media Mərkəzinin rəhbəri Arzu Əliyeva və Alena Əliyeva iştirak ediblər.

Əvvəlcə Yeni Robotik Reabilitasiya Mərkəzi ilə tanışlıq keçirilib. Bildirilib ki, 3 min 600 kvadratmetr ərazidə yerləşən Yeni Robotik Reabilitasiya Mərkəzi Azərbaycanın reabilitasiya sahəsində texnoloji inqilab yaradan ilk mərkəzlərindən biridir.

Əsas məqsəd pasiyentlərin funksional müstəqilliyini bərpa etmək, həyat keyfiyyətini yüksəltmək və hərəkət imkanlarını maksimum səviyyəyə çatdırmaq, həmçinin ölkəmizdə əlillik səviyyəsini minimuma endirməkdir. Mərkəz həm ambulator, həm də stasionar müalicə xidmətləri təqdim edir.

Mərkəzdə bir sıra sahələr üzrə robotik və klassik reabilitasiya xidmətləri təqdim olunur. Nevrologiya istiqamətində insult, beyin və onurğa beyni zədələnmələri, həmçinin sinir sistemi xəstəliklərindən sonra bərpa prosesi aparılacaq.

Yeni Robotik Reabilitasiya Mərkəzi dünyada həm robotik, həm də klassik reabilitasiya sahəsində lider mövqeyini möhkəmləndirməyi, elmi və texnoloji yenilikləri reabilitasiya proseslərinə inteqrasiya edərək Azərbaycanı innovativ reabilitasiya mərkəzinə çevirməyi hədəfləyir. Həmin istiqamətdə beynəlxalq akkreditasiyalar üçün rəsmi danışıqlara artıq başlanılıb.

Yeni Robotik Reabilitasiya Mərkəzinin noyabrın 20-dən etibarən fəaliyyətə başlayacağı diqqətə çatdırılıb.

Daha sonra Sümük İliyi Transplantasiyası Mərkəzinə baxış keçirilib. Qeyd olunub ki, mərkəz müasir tələblərə cavab verən yüksək ixtisaslaşmış tibbi mərkəz kimi formalaşdırılıb. Şöbənin hemato-onkoloji xəstəliklərin müalicəsində ən son elmi nailiyyətləri tətbiq edən, geniş təcrübəyə malik multidisiplinar komanda tərəfindən idarə olunması planlaşdırılır.

Mərkəzin əsas məqsədi pasiyentlərə təhlükəsiz, effektiv və yüksəkkeyfiyyətli müalicə təqdim etmək, elmi yenilikləri praktikaya gətirmək və ölkədə sümük iliyi transplantasiyası xidmətlərinin əlçatanlığını artırmaqdır.

Yeni yaradılmış mərkəz ilə tibb müəssisəsi hemato-onkoloji xəstəliklərin müalicəsində daha geniş imkanlar yaradacaq və müasir tibb standartlarının tətbiqində nümunəvi səhiyyə ocağı kimi fəaliyyət göstərməyə davam edəcək.

*XQ*

*20 Noyabr Ağdam Şəhəri Günüdür*

# Siyasi-diplomatik qələbənin Ağdam zəfəri

## *Qarabağın baş qapısının xilas edilməsindən 5 il ötür*





**Prezident İlham Əliyevin 2023-cü il 31 iyul tarixli sərəncamı ilə hər il noyabrın 20-si Ağdam Şəhəri Günü kimi qeyd olunur. Bu qərarın siyasi, tarixi və mənəvi əhəmiyyəti təkcə bir şəhərin adının təqvimə salınması ilə məhdudlaşmır. Əslində, Ağdamın azad olunması, onun yenidən Azərbaycanın bütövlüyünə qovuşması və bu tarixi hadisənin ildönümünün rəsmiləşdirilməsi müasir dövlətçilik salnaməmizin önəmli səhifələrindən birini təşkil edir. Bu gün Ağdamın 20 noyabr 2020-ci ildə düşmən tapdağından xilas olunmasının 5-ci ildönümü tamam olur. 5 il öncə baş vermiş həmin tarixi hadisə Azərbaycanın Vətən müharibəsində qazandığı daha bir qələbə – həm də döyüşsüz əldə edilmiş zəfər idi.**

27 il ərzində işğalda qalan Ağdam Ermənistan silahlı qüvvələrinin təcavüzkar siyasətinin qurbanlarından biri idi. Şəhər sistemli şəkildə dağıdılmış, infrastruktur məhv edilmiş, mədəniyyət abidələri talan olunmuş, bu qədim yaşayış məskəninin həyat izləri tamamilə silinmişdi. İşğal dövründə Ağdamın "Qafqazın Xirosiması" adlandırılması təsadüfi deyildi, bu, şəhərin üzləşdiyi həmin amansızlığın mahiyyətini özündə əks etdirirdi.

Prezident İlham Əliyev çıxışlarının birində bu barədə deyib: "Ağdam şəhəri də, rayonun bütün kəndləri də mənfur düşmən tərəfindən tamamilə dağıdılmışdı, bir dənə də salamat bina qalmamışdı. Bu, bir daha düşmənin xislətini göstərirdi. Təsadüfi deyil ki, bəzi xarici ekspertlər, jurnalistlər Ağdama səfər edərkən öz təəccübünü və hətta hiddətini gizlədə bilmirlər. Çünki uzun illər işğal dövründə xarici vətəndaşlar Ağdam bölgəsinə, Ağdam şəhərinə, şəhərdən qalan o yerlərə gələ bilmirdilər. İşğala son qoyulandan sonra həm Azərbaycan vətəndaşları, həm xarici qonaqlar gəlməyə başladılar və gördülər ki, biz hansı düşmənlə üz-üzə idik. Yəni işğal dövründə şəhər tamamilə söküldü, yerlə-yeksan edildi və Ağdamı "Qafqazın Xirosiması" adlandırırlar. Amma fərq ondadır ki, Xirosima atom bombası nəticəsində viran qoyulmuşdur, Ağdamı isə 30 il ərzində oğrular, talançılar, erməni talançılar sökərək daşlarını da aparıb müxtəlif yerlərdə satırdılar. Yəni, bu, misli görünməmiş vəhşilikdir".

Xatırladaq ki, Birinci Qarabağ müharibəsində ərazisi 1094 kvadratkilometr olan Ağdamın 882 kvadratkilometri, rayon mərkəzi ilə birgə 90 kəndi işğal olunmuşdu, 128 min sakin məcburi köçkün həyatını yaşamağa məcbur edilmişdi. İşğal nəticəsində rayonun 38 kolxozu, 12 sənaye obyekti, 74 məktəbi, 271 mədəniyyət evi, dünyada yeganə olan Çörək muzeyi, 67 idarə və 99 klubu düşmən əlinə keçmişdi. Ağdam uğrunda gedən döyüşlər zamanı 6 mindən artıq insan şəhid olmuş, minlərlə insan yaralanmış, əhali öz doğma ev-eşiyindən qovularaq məcburi köçkün kimi respublikamızın 59 rayonunun 875 yaşayış məntəqəsində məskunlaşmışdı.

BMT Təhlükəsizlik Şurasının 1993-cü il 29 iyul tarixli 853 saylı qətnaməsində işğalçı qüvvələrin Ağdam rayonu və digər işğal edilmiş Azərbaycan ərazilərindən dərhal, tam və qeyd-şərtsiz çıxarılması tələb edilirdi. ATƏT-in Minsk qrupunun 9 ölkəsi adından da bu hücum qətiyyətlə pislənilir, işğal olunmuş ərazilərdən qoşunların çıxarılmasına çağırış səsləndirilirdi. Ermənistan tərəfi isə beynəlxalq qərarlara tabe olmaqdan yayınırdı.

İşğal dövründə düşmən ölkə Cenevrə Konvensiyaları ilə üzərinə düşən öhdəliklərini kobud şəkildə pozaraq, Ağdam rayonunda coğrafi adların dəyişdirilməsi, oradakı mülkiyyətin talan edilməsi və ərazilərin yandırılması kimi qeyri-qanuni əməllər törətdi. Ümumiyyətlə, Ermənistan silahlı qüvvələri tərəfindən işğal olunmuş rayonların azərbaycanlı sakinlərinə qarşı etnik təmizləmənin törədilməsi qəsbkarın əsl niyyətinin hərbi təcavüz və işğal yolu ilə ərazi əldə edilməsi olduğunu qabarıq şəkildə nümayiş etdirdi.

Yeri gəlmişkən, Ağdam ərazisində qədim tarixə malik olan çoxlu memarlıq və incəsənət abidələri var. İşğalçı rejim İkinci Qarabağ müharibəsinin son günlərinədək Ağdamda qanunsuz arxeoloji qazıntılar apararaq tapılan artefaktları Ermənistana daşıyıb. Düşmən Ağdamda olan evləri dağıtmaqla yanaşı, onun daşlarını da söküb aparıb. Çörək, Tarix Ölkəşünaslıq muzeyləri və Ağdam Şəkil Qalereyası, Xaçındərbənd kəndindəki 1314-cü ildə tikilmiş Qutlu Sarı Musa oğlu türbəsi, Kəngərli yaşayış sahəsindəki XIV əsrə aid Türbə və Daş abidələr, Papravənd kəndində XVIII əsrə aid gümbəz və məscid, Xan qızı Xurşidbanu Natəvanın və onun oğlunun türbələri, Şahbulaq qalası və Karvansara vəhşicəsinə dağıdılıb. Şəhərin mərkəzində yerləşən qədim memarlıq abidəsi sayılan məscid və onun minarələri də vəhşicəsinə uçurulub. İşğalçının bu vəhşilikləri ilə "Tarix və mədəniyyət abidələrinin qorunması haqqında" Azərbaycan Respublikası Qanununun müddəaları, "Silahlı münaqişələr zamanı mədəni mülkiyyətin qorunması haqqında" 1954-cü il Haaqa Konvensiyasının 1999-cu il protokolunun, "Arxeoloji irsin qorunması haqqında" 1992-ci il tarixli Avropa Konvensiyasının tələbləri pozulub.

Lakin Azərbaycan xalqı heç vaxt bu şəhərdən imtina etmədi və dövlət səviyyəsində aparılan prinsipial siyasət nəticəsində "Qayıdış günü" hər zaman yaxınlaşdırılırdı. 2020-ci ilin payızında 44 günlük Vətən müharibəsi bu gözləntini reallığa çevirdi. Azərbaycan Ordusunun gücü, döyüş hazırlığı və Ali Baş Komandanın dəmir iradəsi qarşısında Ermənistan tərəfi həm canlı qüvvə, həm də hərbi texnika sarıdan ciddi itkilərə məruz qaldı. Müharibədə Azərbaycan Silahlı Qüvvələri elə bir üstünlük qazandı ki, Ermənistanın hərbi-siyasi rəhbərliyi davamlı müqavimət göstərməyin mümkünsüzlüyünü qəbul etməyə məcbur oldu.

2020-ci il noyabrın 10-da imzalanan üçtərəfli bəyanat bölgənin taleyini dəyişən sənədlərdən biri oldu. Azərbaycan Prezidenti İlham Əliyev, Ermənistanın Baş naziri Nikol Paşinyan və Rusiya Prezidenti Vladimir Putin tərəfindən imzalanan bu Bəyanat Ermənistanın kapitulyasiyasını rəsmiləşdirdi. Sənəddə nəzərdə tutulan şərtlərə əsasən, Ermənistan ordusu Ağdam rayonunu noyabrın 20-də tam şəkildə tərk etməli idi.

Nəticədə Ağdam rayonu bir güllə belə atılmadan, döyüşsüz şəkildə Azərbaycana qaytarıldı. Bu, həm Azərbaycan Ordusunun strateji üstünlüyünün, həm də dövlətimizin başçısının siyasi-diplomatik manevr qabiliyyətinin parlaq göstəricisi, həmin gün Ağdamda Azərbaycan bayrağının dalğalanması isə yalnız işğaldan azadolma aktı deyil, həm də milli ləyaqətin, ədalətin və tarixi yaddaşın bərpası idi. Eyni zamanda, bu, xalqımızın Zəfər tarixinə qızıl hərflərlə yazılan bir səhifəyə çevrildi. Prezident İlham Əliyev Ağdamın işğaldan azad edilməsi ilə bağlı xalqımıza müraciətində bu barədə demişdi: "Əziz ağdamlılar, siz artıq köçkün deyilsiniz. Siz doğma dədə-baba torpağınıza qayıdacaqsınız. Biz tarix yazırıq, yeni tarix. Xalqımızın, ölkəmizin yeni şanlı tarixini yazırıq. Bu, Zəfər tarixidir".

Ağdamın qaytarılmasından üç gün sonra – 2020-ci il noyabrın 23-də Prezident İlham Əliyev və birinci xanım Mehriban Əliyeva şəhərə səfər etdilər. Bu səfər sadəcə rəsmi protokol xarakterli tədbir deyildi. Prezidentin dağıdılmış Ağdamın mərkəzində üçrəngli bayrağı qaldırması, Azərbaycanın Qarabağda yeni dövrə qədəm qoyduğunu ifadə edirdi. Həmin səfərdə dövlət başçısı Ağdamın məhv edilmiş mənzərəsini təsvir edərək, işğalın miqyasını dünya ictimaiyyətinə çatdırdı və eyni zamanda bərpa işlərinin ən yüksək səviyyədə həyata keçiriləcəyinə dair qətiyyətini diqqətə çatdırdı. Bu, "Böyük Qayıdış" proqramının başlanğıc nöqtəsi kimi tarixə düşdü.

Ağdamda son 5 ildə həyata keçirilən bərpa-quruculuq layihələri Azərbaycanın dövlətçilik iradəsinin və ölkə rəhbərliyinin strateji baxışının real təcəssümüdür. Prezident İlham Əliyev və birinci xanım Mehriban Əliyeva dəfələrlə Ağdam rayonuna səfərlər edərək layihələrin gedişatı ilə yaxından tanış olublar. Bu səfərlər həm bərpa prosesinə nəzarətin yüksək səviyyəsini, həm də Ağdama verilən xüsusi siyasi və mənəvi önəmi göstərir.

Ötən müddətdə Ağdam şəhərinin Baş planı təsdiq edilib və sistemli şəkildə icrasına başlanılıb, yol-nəqliyyat infrastrukturu yenidən qurulub, 110 kV-luq yarımstansiyalar, içməli su və kanalizasiya şəbəkələri inşa edilib. "Ağdam Sənaye Parkı"nın təməli qoyulub və burada onlarla layihə üzrə fəaliyyətə start verilib. Bütün bunlarla bərabər, yaşayış məhəllələrinin salınmasına başlanılıb, ilk pilot məhəllələrdə tikinti sürətlə həyata keçirilib. Ağdam Dram Teatrı, İmarət kompleksi, məscidlər və digər tarixi-mədəni abidələrin bərpası üçün mühüm addımlar atılıb.

Ağdam bu gün iqtisadi potensialı, şəhərsalma modeli və strateji coğrafi əhəmiyyəti baxımından Qarabağ regionunun əsas inkişaf mərkəzlərindən birinə çevrilir. Xalqımız 2023-cü ildən etibarən Ağdam Şəhəri Gününün təsis edilməsini isə tarixi hadisənin anılması ilə bərabər, həm də dövlətin Qarabağla bağlı uzunmüddətli siyasi iradəsinin təsdiqi kimi dəyərləndirir. Bu günün rəsmi şəkildə qeyd edilməsi bir neçə mühüm məna daşıyır:

***– 2020-ci il noyabrın 20-si Ağdamın siyasi-diplomatik üstünlük nəticəsində döyüşsüz alınması qazanılan tarixi qələbənin məntiqi sonluğu olduğunu xatırladır;***

***– şəhərin azad olunması xalqın həmrəyliyinin və dövlətin gücünün birgə təzahürü idi;***

***– Ağdam Şəhəri Gününün qeyd edilməsi Qarabağın bərpası prosesinə həm mənəvi, həm də ictimai diqqəti gücləndirir;***

***– bu, qələbə gələcək nəsillər üçün öyünclü bir mesajdır, təkcə tarix deyil, həm də yeni reallığın təqvimdə qeyd olunmasıdır.***

Beləliklə, Ağdam artıq təkcə keçmişin dağıntıları ilə xatırlanan şəhər deyil. O, Azərbaycanın gələcək inkişaf xəritəsində xüsusi yer tutan, modern, "ağıllı" və "yaşıl" şəhər modelini özündə birləşdirən yeni başlanğıcdır. Prezident İlham Əliyevin iradəsi, dövlətin güclü planlaşdırma siyasəti və xalqın birlik ruhu Ağdamı yenidən canlı həyatın mərkəzinə çevirir.

Noyabrın 20-si Ağdamın azad olunmasının beşilliyi olsa da, əslində bu, Azərbaycanın dövlətçilik qələbəsinin, milli dirçəlişinin və tarixi ədalətin bərpasının rəmzidir. Qarabağda baş verən hər bir yenilik kimi, Ağdamın dirçəlişi də ölkənin bütövlüyünün, gücünün və gələcəyinin rəmzi olaraq tarixdə öz layiqli yerini tutmaqdadır.

Vətən müharibəsindən sonra düşməndən alınan tarixi torpaqlarımızda bərpa-quruculuq layihələrinin icrasına başlanılıb. Nazirlər Kabinetinin 2022-ci il 16 avqust tarixli qərarı ilə "Ağdam şəhərinin 2040-cı ilədək inkişafına dair Baş planı" təsdiqlənib. Sənəddə 100 min nəfər əhalinin yaşayacağı planlaşdırılıb və geniş tikinti-quruculuq işlərinə başlanılıb. 2025-ci ilin oktyabr ayına qədər Ağdamın yenidən məskunlaşdırılması proqramı çərçivəsində 825 ailənin, 3318 nəfərin öz doğma torpaqlarına köçürülməsi başa çatdırılıb.

Rayonda iqtisadiyyatın, yerli istehsalın inkişafı məqsədilə icra olunan layihələrdən biri Ağdam Sənaye Parkıdır. Prezident İlham Əliyevin 2021-ci il 28 may tarixli fərmanına əsasən yaradılan sənaye parkı 190 hektar ərazini əhatə edir. Sənaye müəssisəsinin yaradılmasında məqsəd işğaldan azad edilən ərazilərin dirçəldilməsi, Qarabağın sənaye potensialının reallaşdırılması, sahibkarlığın dəstəklənməsi, əhalinin istehsal sahəsində məşğulluğunun artırılmasıdır. Park rezident sayına görə Sumqayıt Sənaye Parkından sonra ölkədə ikinci ən böyük sənaye parkıdır. Burada hazırda 9 müəssisə fəaliyyət göstərir, 5-dən çox müəssisənin tikintisi isə davam etdirilir.

Noyabrın 20-si – bu əlamətdar gün Ağdamın zəngin mədəni irsini, tarixi yaddaşını və xalqımızın yenilməz əzmini xatırladaraq, şəhərin bərpası və gələcək inkişafı üçün bütün cəmiyyətin birgə fəaliyyətinin zəruriliyinin önəmini diqqətə çatdırır. Ağdamın yenidən qurulması prosesi təkcə bir şəhərin fiziki bərpası deyil, həm də respublikamızın postmünaqişə dövründə gerçəkləşdirdiyi regional inkişaf modelinin mühüm tərkib hissəsidir.

Şübhəsiz ki, davamlı şəkildə reallaşdırılan infrastruktur layihələri, müasir şəhərsalma yanaşmaları və dövlətin siyasi iradəsi Ağdamı yaxın illərdə Cənubi Qafqazın innovasiya və iqtisadi fəallıq mərkəzlərindən birinə çevirəcək. Bu proses həm ölkənin iqtisadi potensialının genişlənməsinə, həm də illərlə doğma yurdlarına qayıtmağı gözləyən keçmiş məcburi köçkünlərin Ağdama qayıdış prosesinin daha sürətlənməsinə mühüm təsir göstərəcək.

***Vaqif BAYRAMOV***
***XQ***

---

# "Ağ şəhər"in qara günləri tarixdə qalıb

**Artıq 3-cü ildir ki, bu gün ölkəmizin hər yerində Ağdam Şəhəri Günü kimi təntənəli şəkildə qeyd edilir. 20 noyabr təkcə 27 il sonra doğma Ağdam həsrəti sona çatmış ağdamlılar üçün deyil, bütün xalqımız üçün bayram ab-havalı tarixdir!**

Hamımız üçün qürurverici bu gün ərəfəsində vaxtilə Ağdam şəhərində yaşamış, indi sevinclə doğma şəhərlərinin azadlıq gününü qeyd edən, səbirsizliklə geri dönəcəkləri anı gözləyən Rəhimovlar ailəsinin qonağı olduq. Ağdamın Bənövşələr kəndində, keçmiş məcburi köçkünlər üçün salınmış qəsəbədə müvəqqəti məskunlaşmış ailənin başçısı, doğma yurdun azad edilməsini ömrünün ən xoşbəxt günü adlandırdı.

**73 yaşlı Fəxrəddin Rəhimov bildirdi ki, 32 il əvvələdək gözəl günlərinin keçdiyi şəhərlə bağlı bitib-tükənməyən xatirələrini illər boyu ürəklərində acı nisgil kimi yaşadıblar, Ağdama qayıdacaqlarına olan ümidlərini heç zaman itirməyiblər:**

– 1993-cü ildə öz ev-eşiyimizdən didərgin düşənə qədər şəhərin özündə, Qara İlyasov küçəsi-14 ünvanında yaşayırdıq. Evimiz 4-ü altda, 4-dü də ikinci mərtəbədə olmaqla 8 otaqlı idi, hər şəraitimiz vardı. Erməni vəhşilərinin aramsız hücumları nəticəsində Ağdamdan didərgin düşəndən sonra əvvəlcə Bərdədə 1 saylı çadır şəhərciyinə sığındıq. Sonra Bakıya köçdük. Ancaq gördük ki, Ağdamın havasını udmadan yaşaya bilmərik. Ona görə geri, rayonun işğal olunmamış ərazisinə qayıtdıq.

Dövlətimiz var olsun, o çətin günlərdə bizi tək qoymadı, Bənövşələr kəndində salınmış müasir qəsəbədə yeni evlə təmin olunduq. Torpaqlarımızın işğaldan azad ediləcəyinə həmişə inanmışıq. Çünki bizim İlham Əliyev kimi müdrik Prezidentimiz, qətiyyətli, müzəffər Ali Baş Komandanımız var. Çox şükür, artıq 5-ci ildir Ağdamımızın azad olunması gününü qeyd edirik.

**Söhbətə qoşulan evin xanımı Simuzər Rəhimova məcburi köçkünlük həyatının ağır günlərini xatırladı, bu acıların bitdiyini, indi Ağdam üçün, ağdamlılar üçün yeni, xoşbəxt dönəmin başladığını dedi:**

– Rahat, firavan yaşayırdıq. Fəxrəddin çörək zavodunda işləyirdi, mən isə uşaq bağçasında müdir idim. Yəni zəhmətimizlə dolanırdıq. Heç ağlımıza da gəlməzdi ki, Ağdam boyda şəhər işğal oluna bilər. Anam Ağdamın işğalına dözə bilmədi. Dedi, Ağdam, səndən sonra mən yaşaya bilmərəm. Dediyi kimi də etdi. Məcburi köçkün düşəndən dərhal sonra xəstələndi, qısa müddətdən sonra dünyasını dəyişdi.

Çox çətin günlərimiz olsa da, hamısına ümidlə sinə gərdik. Vətən müharibəsi başlayanda isə əmin olduq ki, daha həsrətimizin bitəcəyi günə çox qalmayıb. Gecə-gündüz televizorun qarşısını kəsdirmişdik, cəbhədən gələn qələbə müjdələrini sevinc



göz yaşları içində izləyirdik. Hər qarış torpağımız alınanda deyirdim ki, Sənə qurban olum, qəhrəman Prezidentimiz!

Simuzər xanımın atası Yaqub Əhmədov Ağdamın adlı-sanlı ustalarından olub, bənna, daşyonan kimi məşhurlaşıb. Şəhərdəki bir sıra binaların, abidələrin, bulaqların ərsəyə gəlməsində böyük xidmətlər göstərib, bu xidmətləri dövlət səviyyəsində qiymətləndirilib. Hətta tarixi İmarət kompleksi ötən əsrin 80-ci illərində bərpa olunan zaman dağılmış iki sütununu da o yonub. Rəhimovlar ailəsi Ağdam işğaldan azad olunandan sonra şəhərə ilk dəfə gedəndə İmarətə də baş çəkiblər. Simuzər xanım ağlayaraq, əyilib həmin sütunlardan öpüb. Bu yaxınlarda isə yenidən Ağdamda olublar, məscidi ziyarət ediblər. Şəhərin gündən-günə gözəlləşən siması, yeni tikilən binalar, salınan yaşıllıqlar onları valeh edib.

**Evin yeganə övladı, Ağdam şəhər 2 saylı tam orta məktəbdə müəllim işləyən Qadir həmin gün haqqında təəssüratlarını belə dilə gətirdi:**

– Fəxrlə düşündüm ki, 6 yaşımda çıxdığım doğma şəhərimə ailəmlə, 3 uşağımla qayıdıram. Onlar yeni tikilmiş evlərin həyətlərində quraşdırılmış attraksionlarda oynadılar. Sevinclərinin həddi-hüdudu yox idi. Ağdamı gəzdikcə, görülən işlərin, aparılan tikinti-quruculuq layihələrinin miqyasını gördükcə, həm heyrətləndik, həm də fəxr etdik. Sanki hər ucalan, dikələn bina Ağdamdan görünən dağların vüqarını da özünə qaytarıb, dağların da qəddi dikəlib.

Səbirsizliklə doğma şəhərimizə qayıdacağımız günü gözləyirik. Allah bizə xoşbəxt günləri bəxş edən Prezidentimizi qorusun! Şəhidlərimizin məkanı cənnət olsun, Allah ordumuzu hər zaman müzəffər etsin! Fürsətdən istifadə edib bütün ağdamlıları, bütün xalqımızı Ağdam Şəhəri Günü münasibətilə təbrik edirik!

Bu gün Şəhər Gününü qeyd etdiyimiz Ağdamın yenidənqurma, inkişaf, çiçəklənmə dövrü uğurla davam etdirilir. Rayonun Sarıcalı, Kəngərli və Xıdırlı kəndləri artıq doğma sakinlərinə qovuşub. Şəhərsalma mədəniyyətinin ən yeni nailiyyətləri əsasında yenidən, özü də heyrətamiz sürətlə qurulan Ağdam şəhəri də Böyük Qayıdışın növbəti ünvanına çevrilməyə hazırdır. Bütün bunlar ağdamlıların, eləcə də Rəhimovlar ailəsinin hədsiz sevincinə səbəb olur, gələcək arzularına qol-qanad verir. Biz də Qadir müəllimin təbrikinə qoşulur, onların timsalında bütün xalqımızın bayramı mübarək olsun deyirik. Günün mübarək, külündən doğulan, yoxdan var olan, gözəlləşən yeni Ağdam!

Qara günləri artıq 5 ildir ki, tarixdə qalmış Qarabağın ağ şəhərinin – Ağdamın dirçəlişi, bölgənin ən böyük yaşayış məntəqəsinə çevrilməsi uğurla davam etdirilir.

***Mahir RƏSULOĞLU,***
***XQ-nin Qarabağ müxbiri***

**Ağdam**

# Jurnalistlərin Zəfər ziyarətləri

## *Şuşa və Xankəndiyə mediaturun təəssüratı*

**Xalqımız 2020-ci il sentyabrın 27-dən noyabrın 8-dək davam edən 44 günlük Vətən müharibəsi zamanı ölkə Prezidenti, Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi, Azərbaycan Ordusunun misilsiz rəşadəti hesabına 30 ilə yaxın işğal altında olan torpaqlarımızın erməni vandallarından təmizlənməsinin 5-ci ildönümünü ümummilli təntənə ilə qeyd etdi.**






Tarixi zəfərimizin sevinc və qürur hissini yaşayan xalqımız şanlı qələbənin səhəri günündən torpaqlarımızda dağıdılmış, talan edilmiş infrastrukturu bərpa etməyə başlayıb. 5 ildir ki Qarabağın və Şərqi Zəngəzurun hər yerində böyük quruculuq və bərpa işləri sürətlə davam etdirilir. Artıq işğaldan azad edilmiş torpaqlara, bərpa edilmiş kənd və qəsəbələrə 30 mindən çox məcburi köçkün qaytarılıb. Bölgəyə bugünlərdəki səfərimizdə bütün bunları öz gözlərimizlə görüb bir daha sevindik, Azərbaycanın nəbzinin azad edilmiş torpaqlarda döyündüyünün canlı şahidi olduq.

### Şuşaya gedirik…

Şuşaya ilk dəfə 2022-ci ilin sentyabr ayında getmişdik. Həmin vaxt Mədəniyyət və Turizim Nazirliyinin dəstəyi ilə Şuşada keçirilən Xurşidbanu Natəvanın 190 illik yubileyində iştirak edirdik. Vətən müharibəsinin ağır günlərində nazirliyin vətənpərvərlik mövzusunda keçirdiyi şeir müsabiqəsinin qaliblərindən biri kimi həmin səfərə dəvət mənim üçün ikiqat sevincli olmuşdu.

Əmanətlərin Sığortalanması Fondunun bu yaxınlarda Şuşa və Xankəndiyə təşkil etdiyi mediaturda da məmnunluqla iştirak etdim. Şuşaya ilk səfərimiz qısamüddətli olduğu üçün şəhərin çox yerlərini gəzə bilməmişdik. O zaman Şuşa məscidlərini ziyarət etməyimiz təmir-bərpa işləri aparıldığından mümkün olmamışdı. Bu dəfəki səfər proqramı isə zəngin təəssüratlarla yadda qaldı.

...Bizi Şuşaya aparan xüsusi avtobus 8 Noyabr Zəfər Günündə səhər tezdən paytaxtdan yola düşdü. Birinci səfərimizdə Şuşaya Füzuli rayonundan keçərək yeni salınmış Zəfər yolu ilə getmişdik. Bu dəfə isə marşrutumuz Bakı–Qazax magistralı ilə Yevlax şəhərindən keçib, Ağdam–Xankəndi–Şuşa istiqamətində davam etdi. Bakıdan Ağdama kimi yol yoldaşlarımızla müxtəlif mövzularda söhbətlər edir, mümkün qədər Şuşaya tez çatıb bu qəhrəman şəhərlə daha yaxından tanış olmağı arzulayırdıq. Fondun əməkdaşları yolboyu jurnalistləri maraqlandıran suallara cavab verir, onlara qurumun fəaliyyətindəki şəffaflıq barədə ətraflı bilgilər çatdırırdılar.

### Ağdam – cəhənnəmdən cənnətə...

Bərdədən Ağdama keçərkən nəzarət buraxılış məntəqəsində polislər nəzakətlə sənədlərimizi yoxlayıb yolumuza davam etməyə icazə verdilər. Ağdam rayonunun ermənilər tərəfindən necə dağıdılmasını televiziya ekranlarında, qəzet səhifələrində, teleradio verilişlərində görüb-eşitmişdik. İndi isə hər kəs ermənilərin heç bir ölçüyə sığmayan vəhşiliklərinin şahidi olurdu. Yolun sağ və sol tərəfində yaşayış məntəqələrinin, bir vaxtlar bütün Azərbaycanda məşhur olan bərəkətli Ağdam torpaqlarının ürək ağrıdan mənzərəsi bizi rahat buraxmırdı.

Bütöv bir kənddə salamat bir ev qalmayıb. Yalnız uçulmuş divarları qalan, içərisində ağaclar, otlar bitən evlərə baxıb yanından sakit ötmək mümkün deyil. İlk ağlıma gələn fikir bu olur ki, görəsən, bu evlərin yiyələri sağdırmı? Onlar gəlib evlərini, kəndlərini, qəsəbələrini bu vəziyyətdə görəndən sonra düşmənin törətdiyi misilsiz vəhşiliyə necə dözüblər? Çox ağrılı mənzərədir.

Bir vaxtlar pambığı, üzümü ilə məşhur olan Ağdamdan indi ermənilərin viranə qoyduğu kəndlər, baxımsızlıqdan ot-alaq basan torpaqlar qalıb. Bir də müqəddəs torpaqlarımız uğrunda son damla qanına kimi döyüşərək əbədiyyətə yüksələn şəhid məzarları. Bir az diqqətlə baxanda yol kənarına yaxın yerlərdə başdaşı belə qalmayan qəbirlər, ayaq dəyməyən, illərlə ziyarətçiləri olmayan qəbiristanlıqlarla rastlaşırdıq. Həmin anda bu qərib məzarlarda yatanların ruhlarına dua oxuyuram. İnanıram ki, başımız üzərində dolaşan nigaran ruhlar 5 ildir ki, dinclik tapıblar, öz yaxınlarının kəndə dönəcəyi, rayonun abadlaşdırılacağı günü gözləyirlər.

...Xıdırlı kəndi böyük bir ərazidə qısa müddətdə tikilib istifadəyə verilən ilk kəndlərdəndir. Burada sakinlərin yaşayışı üçün hər cür şərait yaradılıb. Biz ərazidən keçərkən kənddə tikinti-quruculuq işlərinin aparılmasını aydın şəkildə seyr edə bilirdik.

İki sevindirici hadisə də diqqətdən yayınmadı. Birincisi, Ağdamdan Şuşaya kimi uzanan yol boyu hər yerdə yeni asfalt örtüyünün təzələnməsi, körpülərin, dağlıq ərazilərdə istinad divarlarının çəkilməsinin şahidi olduq. İkincisi isə, azad olunmuş torpaqlarda kənd təsərrüfatı məhsullarının, müxtəlif təyinatlı müəssisələrin yaradılması illərdən bəri baxımsız qalmış torpaqlara canlanma gətirib. Hər iki sahədə çalışan xeyli sayda insan həvəslə çalışır, tapşırılan işi yüksək səviyyədə yerinə yetirirdilər. Əsgərandan Xocalıya, oradan da Xankəndinin kənarı ilə sıldırım qayalıqlardan keçib yeni çəkilən yolla Şuşaya çatırıq.

### Şuşa – qəlbimizin şüşəsi

Şuşaya Xankəndidən çəkilən yeni yolla gəldik. Sıldırım qayalar, hündür təpələr, sərt döngələr keçdikcə avtobusumuz rahatlıqla irəliləyirdi. Sanki sürücümüz bu yola yaxşı bələd idi. Bayram günləri olmasına baxmayaraq, yol təsərrüfatı işçiləri hər tərəfdə işləyirdi. İlk növbədə, Şuşaya gələnlərin rahatlığını təmin etmək üçün onlar öz texnikaları ilə dağları hamarlayaraq müasir yollar çəkirdilər.

Səfər yoldaşlarımızla Şuşa hoteldə yerləşib bir az dincəldikdən sonra şəhərlə tanışlığa başladıq. Diqqətimizi çəkən ilk işlərdən biri şəhərdə tikintisi davam edən Şuşa məscididir. Məscidin minarələri o qədər hündür hazırlanıb ki, demək olar şəhərin hər tərəfindən baxanda diqqəti cəlb edir.

Öyrəndik ki, ikiminarəli, mozaika ilə bəzədiləcək günbəzli məscidin layihəsini azərbaycanlı və italyan memarlar birgə həyata keçirib. Məscidin xarici səthi Şuşanın qədim məscidinin minarələrində istifadə edilən həndəsi naxışlarla bəzədiləcək. Bu memarlıq elementi Şuşanın firavan və uğurlu gələcəyinə əminliyi, keçmişlə bu gün arasındakı əlaqəni təcəssüm etdirəcək. Buradan üzü aşağı düşüb Alban kilsəsinin yanından keçirik.

Ermənilərin bir vaxtlar öz adlarına çıxdıqları bu rus pravoslav məbədinin bir daşı belə tərpənməyib. Multikultural dəyərlərə sadiq dövlətimiz abidəni olduğu kimi qoruyub gələcək nəsillərə çatdırmaqda israrlıdır. Şəhərlə tanış olduqca üzlərdə sevinc, qürur dolu ifadələr artmağa başlayırdı. Hamı bir gün sonra tarixə çevriləcək bu səfərin daha çox yaddaşlara köçürmək üçün şəkil çəkdirir, təəssüratlarını bölüşür, daha çox yerləri görmək, gəzmək istəyirdi.

“Qarabağ” hoteli Şuşaya xüsusi yaraşıq verir. Müasir üslubda tikilmiş çoxmərtəbəli bina Saatlı məscidi ilə yanaşı inşa olunub. Şəhərin qaynayan həyatı, gələn turistlərin ən çox üz tutduğu ünvanlardan biridir bura. Gəzə-gəzə gəlib Şuşa Şəhər Xüsusi Nümayəndəliyinin yanına çatdıq. Xurşidbanu Natəvanın, Üzeyir bəyin və Bülbülün güllələnmiş heykəllərinə baxıb erməni vəhşiliklərini bir daha lənətlədik. Onu da deyim ki, ayağımız şəhidlərimizin qanı ilə zinətlənmiş Şuşa torpağına dəyən andan, 30 ildən sonra azadlığına qovuşan, tarixi sahiblərinə qaytarılan şəhərdə, sanki sevincimizdən uçurduq. Bu hissləri söz ilə ifadə etməkdə qələmin gücü acizdir.

Şəhərdə erməni vandallarının törətdiyi vəhşilikləri görmək üçün heç də uzağa getmək lazım deyildi. Şuşanın hər tərəfində mülki evlər, tarixi abidələr, məscidlər dağıdılmış, Azərbaycan mədəniyyətinə aid hər şey məhv edilmişdi. Qəlbimizdəki Şuşada olmağın sevincini şəhərdəki ürək ağrıdan mənzərələri gördükcə kədər hissləri əvəz edirdi.

Şuşa qalasını da ziyarət edib tarixi anları fotokameranın yaddaşına köçürürük. Axşam saat 21:00-da burada Zəfərimizin 5-ci ildönümünə həsr olunmuş atəşfəşanlıq olacaq. Artıq qaranlıq düşdüyündən hotelə qayıdırıq. Şuşa hotelində bir qədər dincəldikdən sonra yenidən səfər yoldaşlarımızla atəşfəşanlığı seyr etmək üçün Şuşa qalasına yollanırıq.

Qalanın ətrafı xeyli qonaq və yerli əhali ilə dolub. Hamı səbirsizliklə yaylım atəşlərinin başlanmasını gözləyir.

Saat 21-də başlayan atəşfəşanlığı böyük sevinclə seyr edib, otelə qayıdırıq. Otelin konfrans zalında Qarabağ Universiteti və Mədəniyyət Nazirliyinin birgə təşkilatçılığı ilə konsert proqramı davam edirdi. “8 Noyabr – Zəfərin təntənəsi” adlı konsert proqramında tanınmış incəsənət nümayəndələri və Qarabağ Universitetinin tələbələri rəngarəng nömrələrlə çıxış etdilər.

Konsert proqramında şəhər sakinləri, şəhid ailələrinin üzvləri və müharibə iştirakçıları, Şuşa rayonunda Azərbaycan Prezidentinin xüsusi nümayəndəliyinin və Şuşa Şəhəri Dövlət Qoruğu İdarəsinin nümayəndələri iştirak edirdilər.

### Bayram bayrama qarışır

Noyabrın 9-da Dövlət Bayrağı Günündə səhər tezdən oyanıb yenidən şəhərlə tanışlığa başlayırıq. Azərbaycan bayrağı ilə bəzədilmiş Qarabağ oteli, bir sıra obyektlər isə qalib ölkəmizin güc və qüdrətinin, xalqımızın quruculuq əzminin möhtəşəm təcəssümüdür.







Saatlı məscidi və Yuxarı Gövhərağa məscidində namaz qılıb, dualar etdikdən sonra səfər yoldaşlarımla birlikdə şəhərdə yeni tikilən binalar, istifadəyə verilən xidmət sahələri ilə tanış oluruq. Müxtəlif bankların, marketlərin filialları ya fəaliyyət göstərir, ya da tezliklə istifadəyə verilmək ərəfəsindədir. Bir sözlə, şəhər aparılan genişmiqyaslı tikinti quruculuq işlərindən sonra Şuşa günü-gündən böyüyür, gözəlləşir. Yerli sakinlərin həyət-bacalarını səliqəyə salması, ağaclara qulluq etməsi isə başqa bir hisslər yaşadır. Bəli, doğrudan da torpaqların əsl sahibləri qayıdıb. Öz evlərinin, şəhərlərinin dağılmış, uçulmuş yerlərini bərpa etməklə məşğuldurlar. Çünki onlar və sonra gələcək nəsillər burada əbədi yaşayacaqlar.

Gəzə-gəzə “Cıdır düzü”nə yaxınlaşırıq. Bu ərazinin bir ayrı havası, bir ayrı gözəlliyi var. İstər-istəməz sıldırım qayalardan aşağı baxdıqda rəşadətli Azərbaycan Ordusunun igid əsgərlərinin bu qayalıqları hansı hünərlə, hansı rəşadətlə qalxaraq düşmənə amansız zərbə vurmasını heyranlıqla xatırlayırdıq. Buradan baxanda Xankəndi ovuc içi kimi görünür.

“Cıdır düzü”ndən sonra Azərbaycan ədəbiyyatının görkəmli nümayəndəsi, ictimai-siyasi xadim Molla Pənah Vaqifin məqbərəsini ziyarət etdik. Erməni işğalı zamanı dağıdılmış, viran edilmiş məqbərə – qəbirüstü abidə qısa zamanda təmir edilmiş, abadlaşdırılmışdır.

Şəhərin hər küçəsində, hər məhəlləsində, demək olar ki, hər tərəfində erməni vəhşiliklərinin izini görmək mümkündür.

Yalnız dağıdılmış divarları qalmış evlər doğmalarının yolunu gözləyirmiş kimi dinməzcə gəlib-gedənə baxır, sanki “mənə yaxın gəl, qəlbinin istisi ilə məni yenidən dirçəlt”– deyirdi. Adama elə gəlir ki, ana dilimiz üçün qəribsəmiş, illərdən bəri öz doğmalarını gözləyən şəhər də sevinirdi, doğmalarını görüb sevinən insanlar kimi...

Şuşa şəhəri indi göz önündə abadlaşır, daha da gözəlləşir, burada lazımi infrastruktur yaradılır. Sevindirici haldır ki, artıq şəhərdə həyat qaynayır, qonaqların biri gəlir, biri gedir, təmir-bərpa işləri isə öz ahəngi ilə davam edir.

Şuşa səfərimizi başa vurub Xankəndiyə yollanırıq. Qəhrəman şəhərlə ayrılmaq istəməsək də sağollaşıb “yenidən görüşənədək, Şuşa”– deyirik. Şuşadan ayrılırıq, aldığımız səfər təəssüratları isə bir ömür boyu xatirələrimizdən silinməyəcək.

### Əlvida Şuşa, salam Xankəndi!

Bakıya dönərkən yolüstü Xankəndini də görmək, şəhərlə, qısa da olsa, tanışlıq fürsəti yarandı. Erməni separatçıları Xankəndini tərk edəndə, şəhər yağılardan azad ediləndə Azərbaycanın digər işğal olunmuş əraziləri kimi dağıdılmayıb. Şəhər, demək olar ki, əvvəlki görkəmində qalıb. Yeni tikilən binalar, bərpa quruculuq işləri isə şəhərə xüsusi yaraşıq verir.

Avtobusumuz Qarabağ Universitetinin yanından keçib şəhərin baş meydanında dayandı. Xankəndi şəhərində, Ağdərə və Xocalı rayonlarında Azərbaycan Respublikası Prezidentinin xüsusi nümayəndəliyinin qarşısındakı meydandan ilk dəfə gördüyümüz binaları seyr etdik, xatirə şəkilləri çəkdirdik. Aşağıda 2023-cü ilin dekabrnda təmirdən sonra istifadəyə verilən Xankəndi stadionu diqqətimizi çəkdi.







“Xankəndi” Biznes Mərkəzi, Konqres Mərkəzi yeni tikilən binalardandır və şəhərin memarlığına xüsusi rəng qatır. Xankəndidə də ölkənin müxtəlif dövlət və özəl təşkilatlarının xidmət sahələrinin fəaliyyət göstərdiyinin şahidi olduq. Qısa gəzintimizi başa vurub Xankəndidə Kəlbəcər təamlarının dadına baxıdıqdan sonra Bakıya qayıdırıq.

Sonda səfərimizi təşkil edən Əmanətlərin Sığortalanması Fondunun rəhbərliyinə, bizimlə birlikdə əziyyətimizi çəkən fondun bütün əməkdaşlarına bizə ikiqat bayram sevinci yaşatdıqlarına görə təşəkkür edirik.

***Qabil YUSİFOĞLU***
***XQ***

**Şuşa–Xankəndi**

# Milli dilçilik elmi və Azərbaycan dövlətinin dil siyasəti

## *AMEA Nəsimi adına Dilçilik İnstitutunda müzakirə*



**Hər bir xalqın, etnik toplumun varlığını müəyyənləşdirən, onu başqalarından fərqləndirən mühüm amillərdən ən başlıcası onun dilidir. Ana dilini yaşadan, inkişaf etdirən isə onu yaradan xalqdır.**

**Əsrlərin sınağından çıxaraq daş kitabələrdən üzü bu yana uzun, çətin, şərəfli yol keçib, Dədə Qorqud qopuzundan, Koroğlu sazından süzülüb gələn doğma dilimiz həzin və şirin ana laylası ilə canımıza, qanımıza hopub. Füzulinin, Nəsiminin, Şah İsmayılın, Vaqifin, Səməd Vurğunun sözündə, şeirinin avazında qanad açan, ana südü kimi təmiz, dağ çiçəyi kimi təravətli ana dilimiz ağız ədəbiyyatı nümunələri olan bayatılarla, qoşmalarla, nağıllarla, dastanlarla uzun, enişli-yoxuşlu yol keçib bu günümüzə çatıb.**

**"Mən fəxr edirəm ki, azərbaycanlıyam" deyən, hər kəsə öz ana dilində danışmağı tövsiyə edən Ümummilli lider Heydər Əliyev hələ sovetlər dönəmində Azərbaycan dilinin dövlət dili statusu qazanmasına nail olub. Yalnız Ulu öndər Heydər Əliyevin respublikamıza rəhbərlik etdiyi illərdə milli inkişafımızda faciələr doğurmuş mənfi halların qarşısı alınıb. Vətənimizin başı üstündə müstəqillik günəşi doğduqdan sonra isə ana dilimiz də öz haqqına qovuşub. Ulu öndərin rəhbərliyi ilə 1995-ci il noyabrın 12-də qəbul edilmiş Azərbaycan Respublikasının Konstitusiyasının 21-ci maddəsində Azərbaycan dilinin dövlət statusu təsbit olunub.**

**2001-ci ilin avqust ayında Prezident Heydər Əliyevin fərmanı ilə rəsmi olaraq latın əlifbasına keçid başlanıb. 2003-cü ildə "Azərbaycan Respublikasında dövlət dili haqqında" Qanun qüvvəyə minib.**

**Ümummilli lider deyirdi: "Azərbaycan dilinin dövlət dili kimi həyatımızın bütün sahələrində yaşaması və inkişafına hərtərəfli şərait yaradılmış, onun zənginləşməsi və dünya dilləri arasında layiqli mövqe tutması üçün daha geniş perspektivlər açılmışdır... Hansı ölkədə yaşamasından asılı olmayaraq hər bir azərbaycanlı öz ana dilini, dinini, milli ənənələrini heç zaman unutmamalıdır".**

**Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev bu il noyabrın 3-də Azərbaycan Milli Elmlər Akademiyasının 80 illik yubileyinə həsr olunmuş yığıncaqdakı çıxışında ana dilimizin qorunması ilə bağlı çox mühüm mesajlar verdi. Azərbaycan dilinin təmizliyinin, saflığının yad təsirlərdən qorunmasını alim, dilçi, şair və yazıçıların qarşısında mühüm vəzifə olaraq qoydu, onları bu məsələyə münasibət bildirməyə və dəstək göstərməyə çağırdı.**

**Dövlət başçısının çağırışına çevik cavab verən AMEA Nəsimi adına Dilçilik İnstitutunda qarşıya qoyulan Ümummilli önəm daşıyan məsələ geniş müzakirə olunub. Dilçi alimlərin məsələ ilə bağlı söylədikləri fikir, mülahizə və təklifləri, müəyyənləşdirilən elmi fəaliyyət istiqamətlərini oxucularımıza təqdim edirik.**

**Bb a MƏHƏRRƏMLİ,**
**elmi işlər üzrə direktor müavini,**
**filologiya üzrə fəlsəfə doktoru, dosent**

– Prezident İlham Əliyevin AMEA-nın 80 illik yubileyindəki tarixi çıxışında Azərbaycan ədəbi dilinin saflığının qorunması məsələsinə xüsusi yer verilməsi dövlət başçısının ana dilimizə böyük diqqət və qayğısının parlaq təzahürüdür. Cənab Prezident qeyd etdi ki, əgər biz bir xalq, bir millət kimi dilimizi qorumasaq, o zaman milli kimliyimiz sarsıla bilər. Nəsimi adına Dilçilik İnstitutunun bütün əməkdaşları dövlət başçısının bu tarixi çıxışını ana dili ilə bağlı inkişaf konsepsiyası kimi yüksək qiymətləndirirlər və bu çıxışdan irəli gələn vəzifələri həll etmək üçün daha da səylə çalışacaqlar.

XX əsrin əvvəllərində Üzeyir Hacıbəylinin, Yusif Vəzir Çəmənzəminlinin, Ömər Faiq Nemanzadənin mətbuatda ana dilimizin saflığı ilə bağlı publisistik yazıları bu gün də aktuallığını qorumaqdadır. Azərbaycan xalqının genetik yaddaşını, milli stereotiplərini, etnik psixologiyasını yaşadan ana dilimizi qorumaq hər bir vətəndaşımızın, ziyalımızın mənəvi borcudur. Televiziya ekranlarında, mətbuatda, reklam və afişalarda, ictimai iaşə obyektlərinin adlarında ədəbi dil normalarının pozulması yolverilməzdir. Televiziya məkanında nitqin saflığına nəzarət gücləndirilməlidir. Bəzən teleaparıcılar sözləri qardaş Türkiyə türkcəsinin orfoepiyasına uyğun olaraq tələffüz edirlər (məsələn, filan deyil, falan, digər deyil, diyər şəklində). Hətta türk dilinin qrammatik formaları süni şəkildə dilimizə gətirilir (məsələn, gəlib də, gedib də və s.).

Bakı Şəhər İcra Hakimiyyəti, Dövlət Reklam Agentliyi paytaxtda müxtəlif obyektlərin adlandırılmasındakı qüsurlara, reklamlardakı nöqsanlara göz yummamalı, sahibkarlar öz obyektlərinin adlarını milli adlarla adlandırmalıdırlar.

Bu gün şəhərimizdə bir çox restoran və kafelərin, şadlıq saraylarının adları Avropa mənşəlidir. 2002-ci il 30 sentyabr tarixində qəbul olunmuş "Dövlət dili haqqında qanun"da Azərbaycan dilinin dövlət dili səviyyəsində müxtəlif sahələrdə tətbiqi və işlənməsi məsələsi dəqiq təsbit olunmuşdur. Bu qanuna görə, dövlət dilinin normalarının pozulması ilə bağlı fiziki, hüquqi və vəzifəli şəxslər məsuliyyət daşıyırlar.

Nəsimi adına Dilçilik İnstitutu elmi-tədqiqat müəssisəsi olduğundan dil pozuntularına görə inzibati tədbirlər həyata keçirmək səlahiyyətinə malik deyil. İnstitut bununla bağlı ancaq tövsiyələr verir, hesabatlar hazırlayır və müvafiq qurumlar qarşısında məsələlər qaldırır. Fikrimizcə, dil pozuntularına nəzarət etmək üçün müvafiq dövlət qurumlarına müəyyən səlahiyyətlər verilməlidir. Müqayisə üçün göstərək ki, Baltikyanı ölkələrdə dil qurumlarının icazəsi olmadan, heç bir obyektə ad qoyula bilməz. Həmin ölkələrdə "dil polisi" mövcuddur.

Ədəbi dil ana dilimizin inkişafının ən yüksək mərhələsidir. Düzgün ədəbi dildə danışmaq üçün bədii mütaliə gücləndirilməli, gənclər arasında təşviqat işləri aparılmalı, istər dövlət, istərsə də özəl televiziyalarda ana dili ilə bağlı verilişlər təşkil olunmalıdır. Bir sözlə, ana dilimizin səlisliyi probleminə həssas yanaşılmalı, bəzi hallarda isə məcburiyyət olduqda inzibati tədbirlər görülməlidir. Cənab Prezidentin tarixi çıxışını yüksək qiymətləndirir və hər bir vətəndaşımızı dilimizi göz bəbəyi kimi qorumağa çağırırıq.

**Sayalı SADIQOVA,**
**terminologiya şöbəsinin müdiri,**
**filologiya elmləri doktoru, professor**

– Prezident İlham Əliyevin alimlərimizin qarşısında qoyduğu məsələlər, problemlər cəmiyyətin və elmi mühitin yeni inkişaf meyarlarını müəyyənləşdirmək baxımından olduqca əhəmiyyətlidir. Ümummilli lider Heydər Əliyevin Azərbaycan dilinin taleyi barədə təməl düşüncələrini şərtləndirən dil quruculuğu haqqında ideya istiqaməti bu gün də dövlət siyasətinin tərkib hissəsi kimi müasir siyasi baxışlara uyğun səviyyədə aparılır. "Hər bir millət, hər bir xalq üçün onun Ana dili onun milli mənsubiyyətinin əsas amilidir və bu istiqamətdə bütün ictimai fəallar, bütün ictimaiyyət bir nöqtəyə vurmalıdır" çağırışı dövlətin dil siyasətinin manifestidir. Cənab Prezidentin ana dilinin geniş, maneəsiz işləkliyi üçün göstərdiyi siyasi qətiyyət, milli iradə, gördüyü məqsədyönlü işlər Azərbaycan dilinin nüfuzunun yüksəlməsinə xidmət edir.

Beynəlxalq əlaqələrin inkişafı, dünya elminə inteqrasiya dilin lüğət tərkibini zənginləşdirir. Dil dünya sivilizasiyasının, ictimai həyatın əksi olan müxtəlif elm sahələrini birləşdirdiyi kimi, ayrı-ayrı dillərin fonetik, leksik, qrammatik xüsusiyyətlərini də özündə cəmləşdirir. Ona görə də alınma və beynəlmiləl termin axını dilə daxil olan alınmaların tənzimlənməsi və dilimizin tələblərinə uyğunlaşdırılması kimi aktual problemlər meydana çıxarır.

Azərbaycan dilində müxtəlif elm sahələrinə aid terminoloji baza dilin daxili imkanlarından əlavə, rus və Avropa dillərindən alınmış beynəlxalq terminlər əsasında formalaşmışdır.

Yaranan terminlər dilin qrammatik qaydalarına uyğun olmaqla bərabər, anlayışı da məntiqi cəhətdən düzgün təyin etməlidir. Bu məsələnin həlli həm vahid beynəlxalq terminologiyanın yaradılmasına, həm də elmlərin inkişafına təkan verir. Elmlərin inteqrasiyası, elmi biliklərin müxtəlif istiqamətlərdə inkişafı, elmi təcrübələrin, informasiyaların asanlıqla yayılması, başa düşülməsi üçün vahid terminoloji bazaya üstünlük verilməlidir. Terminoloji fondun yaradılması üçün müxtəlif sahələrə aid terminoloji lüğətlərin tərtibi vacibdir.

Teleradio kanallarında və digər kütləvi informasiya vasitələrində materiallar digər tələblərlə yanaşı, ədəbi dil normalarına da cavab verməlidir. Ancaq son zamanlar ölkəmizdə KİV-lərin fəaliyyətinin genişlənməsi, internetin cəmiyyətin bütün həyatına nüfuz etməsinin sürətlənməsi nəticəsində alınmalardan istifadə olunur. Belə şəraitdə dilin yad təsirlərdən qorunması, inkişaf etdirilməsi mühüm vəzifələrdən hesab edilir. Müasir şəraitdə Dil Komissiyasının fəaliyyəti məhz bu tələblər nəzərə alınmaqla qurulmalı, alınma sözlərin dilimizin tələblərinə uyğunlaşdırılması prinsipləri hazırlanmalıdır.

Son zamanlar ölkəmizin iqtisadi-siyasi həyatında, ictimai fikrində baş verən proseslər, yeniliklər dilin lüğət tərkibində dəyişmələrə səbəb olmuşdur. Bu nəzərə alınaraq Avropa dillərindən daxil olan terminlərin izahlı lüğətini hazırlamaq üçün Azərbaycan dilində orfoqrafiya prinsipləri təkmilləşdirilməlidir. Bununla yanaşı, dildə yaranan terminləri vahid mərkəzə toplamaq, elmin, texnikanın müxtəlif sahələrində çalışanlara terminlərin izahını və müxtəlif dillərdə qarşılığını asanlıqla əldə etməyə yardımçı olmaq, həmçinin termin yaradıcılığına cəmiyyətin müxtəlif təbəqələrini, o cümlədən xaricdə yaşayan soydaşlarımızı cəlb etmək üçün terminoloji baza yaradılmalıdır.

Şübhəsiz, Azərbaycan mədəniyyəti, elmi inkişaf etdikcə, müstəqil dövlətimiz möhkəmləndikcə, Azərbaycan dili daha da zənginləşir, daha müasir, daha qlobal, analitik düşüncənin dilinə çevrilir. Buna görə də Azərbaycan dilində işlənən, o cümlədən yeni yaranan terminləri toplayaraq izahlı yeni terminlər lüğətlərin nəşri davam etdirilməlidir.

Prezident İlham Əliyevin çıxışında qarşıya qoyduğu problemlərin aradan qaldırılması ictimai-mənəvi həyatımızın bütün sahələrində Azərbaycan dilinin tam tətbiqinə rəvac verir. Dünya azərbaycanlılarının ümumi ünsiyyət vasitəsi, Azərbaycan Respublikasının dövlət dili olan Azərbaycan dilinin lokal tarixi və müasir nüfuzunun qorunub saxlanması milli-ictimai ehtiyac, mənəvi-mədəni borcumuzdur.

**Aynel MƏŞƏDİYEVA,**
**elmi katib, filologiya elmləri doktoru**

– Prezident İlham Əliyev təntənəli mərasimdə vurğuladı ki, dil yalnız ünsiyyət vasitəsi deyil, həm də milli varlığın, dövlət müstəqilliyinin və mədəni kimliyin əsas göstəricisidir. Ana dilinin saflığının və ədəbi normalarının qorunması milli-mənəvi kimliyimizin əsas dayağıdır. Prezidentin "əgər Azərbaycan dilində əzəli bir kəlmə varsa, başqa dildən söz gətirmək nəyə gərəkdir?" fikri ana dilinin daxili potensialına əsaslanma prinsipinin dövlət səviyyəsində dəstəkləndiyini nümayiş etdirir.

Bu çağırış fonunda Azərbaycan dilinin saflığına təsir edən amillər - KİV-də yad üslub elementləri, sosial mediada dilin ünsiyyət səviyyəsinə enməsi, gənclərin nitq mədəniyyətindəki təhriflər dilçi alimlər qarşısında mühüm vəzifələr qoyur. Bu baxımdan, AMEA-nın Nəsimi adına Dilçilik İnstitutunun prioritet istiqamətləri aşağıdakı kimi müəyyən edilə bilər:

– Nitq mədəniyyətinin formalaşdırılması: gənc nəslin ədəbi və düzgün danışıq bacarıqlarının inkişaf etdirilməsi, nitq mədəniyyətinə diqqətin artırılması.

– Milli terminologiyanın inkişafı: Azərbaycan dilinin daxili imkanları əsasında yeni anlayışların yaradılması və sistemləşdirilməsi.

– Dilin saflığının qorunması: yad leksik elementlərin təsirinin elmi əsaslarla təhlili və milli söz yaradıcılığının təşviqi.

– Ədəbi norma və üslubun müasirləşdirilməsi: orfoqrafiya, orfoepiya və üslub qaydalarının təkmilləşdirilməsi və geniş ictimaiyyətə çatdırılması.

– Rəqəmsal dilçilik: Azərbaycan dilinin informasiya və texnologiya mühitində tətbiqi imkanlarının artırılması, rəqəmsal platformalarda istifadəsinin genişləndirilməsi.

– Dövlət dil siyasətinin elmi əsasları: dil siyasətinin konseptual istiqamətlərinin işlənməsi və müasir tələblərə uyğunlaşdırılması.

Nəticə etibarilə, Prezidentin çıxışı Azərbaycan dilinin gələcəyi üçün strateji istiqamət müəyyən edir. Bu istiqamətin elmi təminatı Dilçilik İnstitutunun əsas vəzifəsi olmalı, institutun fəaliyyəti həm elmi, həm də ictimai səviyyədə dilin saflığına və milli kimliyin qorunmasına xidmət etməlidir.

**İlhami CƏFƏRSOY,**
**qədim dillər və mədəniyyətlər**
**şöbəsinin müdiri, professor**

– Dövlət başçısı alimlərimizin 80 il ərzində gördükləri mühüm işlərdən bəhs etdi və Nəsimi adına Dilçilik İnstitutunun gələcək fəaliyyəti, elmi tədqiqatların dərinləşdirilməsi üçün dəyərli fikirlərini söylədi.

Dilçilik İnstitutunun bütün əməkdaşları bu çıxışdan irəli gələn vəzifələri rəhbər tutaraq öz tədqiqatlarının məzmununu daha da dərinləşdirməlidirlər. Qədim dillər və mədəniyyətlər şöbəsinin bu sahədə həyata keçiriləsi vacib planları var. İlk növbədə, Ön Asiyanın mixi yazı mənbələrinin türkoloji leksikası elmi tədqiqat obyektinə çevrilməlidir. Bu istiqamətdə Urartu mixi yazılı mətnlərinin, şumer gil lövhələrinin dili haqqında məqalələr çap etdirilmişdir. Bu iş davam etdiriləcək, Xatti, Assur dillərinin də prototürk leksikası öyrəniləcək. Son illər Avropa dillərinin türk leksikasının elmi tədqiqinə başlamış, ölkəmizdə, Türkiyə və Macarıstanda çap olunan məqalələrdə elmi ictimaiyyətin müzakirəsinə çıxarılmışdır.

Qədim dillər və mədəniyyətlər şöbəsinin əməkdaşları Avropanın qədim xəritələri və salnamələri əsasında Avropa dillərindəki türk sözlərini öyrənirlər. Çap olunan məqalələrdə göstərilir ki, almanlar eramızın VIII əsrinə qədər türk dillərinə qohum olan ləhcələrdə danışmışlar. Alman dilçilərinin özləri də təsdiq edirlər ki, franklara qədər mövcud olan həmin dil qrammatik quruluşuna görə iltisaqi olub türk dillərinə qohum idi.

Şöbənin əməkdaşları erməni dilinin türk leksikasını araşdırıb, məqalələr çap etdirirlər. Tədqiqatlar nəticəsində müəyyən olunmuşdur ki, qrabar adlanan qədim erməni dili indiki ermənilərin dili deyil, qrammatik quruluşuna görə iltisaqi olub qıpçaq dillərinə qohum idi. Aşxarabar dili isə flektivdir, hind və fars dillərinin əsasında yaranmışdır.

Vətən müharibəsindən sonra şöbənin əməkdaşları Qarabağın şəhər və kəndlərinə ezam olunmuş, kənd, şəhər, kilsə adlarının dəyişdirilmiş variantını toplamış, əvvəlki formalarını bərpa etməyə başlamışlar. Müəyyən olunmuşdur ki, 1828-ci il rus işğalına qədər Qarabağda və Naxçıvanda heç bir erməni kəndi olmamışdır. Bütün kəndlərin əhalisi xristian qıpçaqlar, uzlar, peçeneqlər, berendiqlər idilər. Onlar uşaqlarını rus işğalından sonra açılan erməni məktəblərinə göndərmiş və tədricən öz dillərini unutmuşlar.

Ruslar Qarabağı tutanda Çanaxçı məlikləri müsəlman idilər. Onlar başqa xristian tayfalarla vuruşaraq Cıdır düzünün o biri üzündə Məlik Şahnəzər kahasına sığınmışdılar. Bu həmin Şahnəzərdir ki, Pənah xana Bayat qalasından sonra Şuşa qalasını tikdirməyi məsləhət bilmişdir.

Şöbənin əməkdaşları toponim, hidronim, oronim, oykonimlərlə yanaşı, kilsə adlarını da öyrənirlər. Son 10 ildə aparılmış tədqiqatlar nəticəsində müəyyən edilmişdir ki, Qarabağda kilsə adlarının hamısı türkcə olmuş, sonradan dəyişdirilmişdir. Ermənilərin Amaras adlandırdıqları kilsənin ilkin adı Ağoğlan, Axçinik kilsəsinin ilkin adı isə Ağqız olmuşdur.

Məlum olmuşdur ki, ölkəmizdə Qarabağdan başqa Ağbağ vilayəti də var idi. Qarabağ əhalisi islam dinini qəbul etmiş, Ağbağ əhalisi isə xristian olaraq qalmış, bağlara çəkilərək Laçın və Xaçın şəhərlərini salmışlar. Ermənilər Ağbağın nəslindən çıxan elm və din xadimlərini Axbaxetsi, Haxbaxetski adlandırır, Müqəddəs Şuşanikin iztirablarını erməni Aqioqrafik abidəsi kimi təqdim edirlər. Nəşr olunmuş məqalə və kitablarda sübuta yetirilir ki, Müqəddəs Şuşanikin iztirabları, çoxlu kilsə salnamələri türk dillərinin müxtəlif ləhcələrində yazılmışdır. 488-ci ildə keçirilən kilsə məclisindən sonra onlar tərcümə olunmuş, ilkin nüsxələri Tərtər çayına atılmışdır.

Şöbənin əməkdaşları ölkə başçımızın çıxışından irəli gələn vəzifələri rəhbər tutaraq reklamların, elanların, market adlarının yabancı dillərdən təmizlənməsi üçün elmi tədqiqata başlamışlar. Bu sahədə işlər davam etdiriləcək, Qarabağın tarixi toponimiyası bərpa ediləcək.

**Xədicə HEYDƏROVA,**
**Azərbaycan dili tarixi şöbəsinin**
**müdiri, filologiya üzrə fəlsəfə**
**doktoru, dosent**

– Dövlət başçısının qeyd edilən çıxışında dilimizi yad ünsürlərdən qorumağın vacibliyini vurğuladı, dilçi alimlərə bu məsələyə münasibət bildirmələri və dəstək göstərmələri üçün çağırış etdi. Azərbaycan dili tarixi şöbəsinin əməkdaşları İlham Əliyevin çağırışına dəstək olaraq aşağıdakı təklifləri irəli sürür:

Müasir Azərbaycan dilində işlək olan ərəb, fars, rus, ingilis mənşəli sözləri klassik ədəbiyyatımızdakı Azərbaycan türkcəsi qarşılıqları ilə əvəz etmək. Məsələn, XIII əsrə aid İbn Mühənna lüğətində alcuğ, müasir Türkiyə türkcəsində alçı sözləri işlənir. Bu iki sözdən birini müasir dilimizə gətirmək olar. Səfəvi dövrünə aid əsərlərdə hərbi terminologiya ilə bağlı bir çox türk mənşəli sözlər var. Məsələn, mühafizəçi – qorçu, mühafizə xidmətinin rəhbəri – qorçubaşı, komendant – qalabəyi adlanır.

Klassik ədəbiyyatda alim "bilgə", elm "bilim", kitab "bitik", nəticə "sonuc", təcrübə "sınama, sınaq", qanun "törə, yasaq" və s. kimi sözləri seçib təkliflər planı şəklində təqdim etmək üçün şöbəmizin kollektiv əsəri olan 3 cildlik "Türk mənşəli arxaizmlər lüğəti"ndən (XIII-XVIII əsrlər Azərbaycan yazılı abidələri əsasında) istifadə oluna bilər.

Ölkə Prezidentinin elmə rəqəmsallaşmanı tətbiq etmək təklifini nəzərə alaraq təklif edirik ki, 3 cildlik "Türk mənşəli arxaizmlər lüğəti" və hazırda şöbənin iş planı olan "Azərbaycan dilinin müxtəsər tarixi lüğəti" çoxcildliyi onlayn lüğət şəklində AMEA-nın Nəsimi adına Dilçilik İnstitutunun rəsmi saytına yerləşdirilsin. Türkiyədə klassik ədəbiyyatla bağlı bir çox onlayn lüğətlər vardır ki, onların təcrübəsindən istifadə etmək və nümunə götürmək olar. Amma təəssüflər olsun ki, ölkəmizdə klassik ədəbiyyatın leksikasına həsr olunmuş belə bir onlayn lüğət yoxdur. Azərbaycan dili tarixi şöbəsi bu işi həyata keçirə bilər.

**Vəfa ABDULLAYEVA-NƏBİYEVA,**
**beynəlxalq əlaqələr şöbəsinin müdiri,**
**filologiya üzrə fəlsəfə doktoru, dosent**

– Akademiyanın yubiley yığıncağındakı çıxışında ölkə rəhbəri dövlətin elmi inkişaf strategiyası ilə yanaşı, dil, milli kimlik və mədəni özünüdərk məsələlərinə xüsusi diqqət yetirilmişdir. Cənab Prezidentin qeyd etdiyi kimi, elmin inkişafı yalnız texnoloji tərəqqi deyil, eyni zamanda dil və düşüncə müstəvisində milli intellektual transformasiyanın əsas dayağı olmalıdır. Bu kontekstdə Azərbaycan dilinin qorunması, inkişafı və beynəlxalq elmi-mədəni müstəviyə çıxarılması strateji əhəmiyyət daşıyır. Bu çıxışdan irəli gələrək, Nəsimi adına Dilçilik İnstitutunun Beynəlxalq əlaqələr şöbəsinin qarşısında duran əsas vəzifə Azərbaycan dilinin beynəlxalq elmi diskursda mövqeyinin möhkəmləndirilməsi və dövlət dil siyasətinin elmi əsaslarda beynəlxalq səviyyədə təqdimatıdır.

**(ardı 13-cü səhifədə)**

# Milli dilçilik elmi və Azərbaycan dövlətinin dil siyasəti

(əvvəli 12-ci səhifədə)

Bu məqsədlə aşağıdakı fəaliyyət istiqamətləri nəzərdə tutulur.

Dövlət dil siyasətinin beynəlxalq elmi sistemdə təqdimatı:

– Prezidentin çıxışında vurğulanan elmin milli prioritetlərlə uzlaşdırılması tezisindən çıxış edərək, Azərbaycan dilinin funksional potensialını beynəlxalq akademik məkanlarda tanıtmaq məqsədilə beynəlxalq qurumlarla elmi-kommunikativ əməkdaşlıq layihələri hazırlamaq;

– Azərbaycan dilinin terminoloji müasirliyi və qlobal elmi diskursa inteqrasiyası üçün "Azərbaycan dili qlobal elmi kommunikasiya müstəvisində" adlı beynəlxalq konfransın təşkili;

– Xarici dillərdə aparılan dilçilik tədqiqatlarına Azərbaycan dilinə dair modulların daxil edilməsi üçün ortaq elmi proqramlar və mübadilə mexanizmləri hazırlamaq.

Azərbaycan dilinin elmi nüfuzunun beynəlxalq səviyyədə yüksəldilməsi:

– Prezidentin "Azərbaycan elminin dünya elminə inteqrasiyası milli inkişafın mühüm şərtidir" fikrinə əsaslanaraq Azərbaycan dilinin elmi dil statusunun gücləndirilməsi üçün beynəlxalq jurnallarda ikidilli (Azərbaycan–ingilis) nəşrlərin təşviqi;

– Azərbaycan Dil Mərkəzi brendi altında yeni elmi platformanın yaradılması. Mərkəz beynəlxalq tədqiqatçılar üçün Azərbaycan dilində korpus, tərcümə və linqvokulturoloji resurslar təqdim edəbilər.

– Dilçilik sahəsində beynəlxalq birgə layihələrdə (məsələn, süni intellektdə təbii dil modelləri üzrə) Azərbaycan dilinin modulyar iştirakının təmin olunması;

Milli dilin mədəni kod kimi elmi təqdimatı:

– Prezidentin vurğuladığı "milli kimlik – müstəqil dövlətçiliyin ideoloji sütunudur" prinsipinə uyğun olaraq, Azərbaycan dilinin mədəni kod daşıyıcısı kimi funksional-sintaktik və semantik sisteminin beynəlxalq elmi diskursda təqdimatının planlaşdırılması. Bu istiqamətdə "Dil və milli kimlik" adlı beynəlxalq tədqiqat layihəsinin hazırlanması və regional universitetlərlə birgə icra olunması.

– Azərbaycan dilinin klassik və müasir mərhələlərinin müqayisəli təhlilini əhatə edən akademik nəşr seriyası "Azərbaycan dilçilik irsi seriyası" nın hazırlanması.

Terminoloji və texnoloji yeniliklər kontekstində fəaliyyət:

– Azərbaycan rəhbərinin elmi-texnoloji innovasiyaların önə çəkilməsi barədə tövsiyəsi nəzərə alınaraq, dilin rəqəmsal infrastrukturunun inkişafı istiqamətində "Azərbaycan dilinin intellektual rəqəmsal xəritəsi" layihəsinin təqdimatı. Bu layihə beynəlxalq səviyyədə süni intellekt-linqvistika və təbii dil emalı (NLP) texnologiyalarında Azərbaycan dilinin istifadə imkanlarını genişləndirməyi nəzərdə tutur.

– Beynəlxalq əməkdaşlıq çərçivəsində milli terminoloji bazanın rəqəmsallaşdırılması.

Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin çıxışında səsləndirilən çağırışlara uyğun olaraq, Nəsimi adına Dilçilik İnstitutunun Beynəlxalq əlaqələr şöbəsi Azərbaycan dilini qlobal elmi-mədəni müstəviyə çıxarmaqla dövlət dil siyasətinin strateji məqsədlərinə elmi təminat yaratmağı nəzərdə tutur. Bu Fəaliyyət Planı Azərbaycan dilinin elmi potensialını beynəlxalq səviyyədə nümayiş etdirməklə yanaşı, Azərbaycanın intellektual suverenliyini və milli kimlik dayanıqlılığını təmin edəcək.



**Lalə QURBANOVA,**
**Hind-Avropa dilləri şöbəsi, baş elmi işçi, filologiya elmləri doktoru, dosent**

Akademiyanın yubileyində Azərbaycan dili ilə bağlı söylədiyi məntiqli fikirlər hər kəsi ana dilini daha dərindən öyrənməyə, işlədiyi sahədən asılı olmayaraq doğma dilinin inkişafı üçün əlindən gələni əsirgəməməyə və dövlət dili haqqındakı qanunlara riayət etməyə çağırır.

Ulu öndər Heydər Əliyev deyirdi: "Hər bir xalq öz dili ilə yaranır. Ancaq xalqın dilini yaşatmaq, inkişaf etdirmək və dünya mədəniyyəti səviyyəsinə qaldırmaq xalqın qabaqcıl adamlarının, elm, bilik xadimlərinin fəaliyyəti nəticəsində mümkün olur". Hər bir xalqın ana dili onun varlığını təsdiq edir, mədəniyyətinin, milliliyinin, elm və təhsilinin inkişafında başlıca rol oynayır. Xalqımızın keçdiyi tarixi-siyasi inkişaf yolu milli sərvətimiz olan ana dilində öz əksini tapır. Azərbaycanın tarixən multikultural və tolerant ölkə olmasına baxmayaraq, bu dövlətdə yaşayan hər kəs Azərbaycan dilinin saflığının qorunması və inkişafı uğrunda mübariz olmalıdır.

Azərbaycan dilinin inkişafı müxtəlif sistemli dillərlə elmi müqayisəli təhlildən keçir. Təklif edirik ki, Azərbaycan dili linqvistik təhlillə yanaşı, ekstralinqvistik təhlil edilməli, dilin mənimsənilməsi eksperimental tədqiqata cəlb olunmalıdır.

Sosio-psixoloji tədqiqatlar dilimizin inkişafına, dil qaydalarının qorunmasına və geniş kütlə arasında yayılmasına kömək edəcək. Azərbaycan dilinə gələn yeni sözlər dil qaydalarının bütün səviyyələrindən keçərək işlədilməli, Azərbaycan dili və xarici dillər üzrə mütəxəssislər qarşılıqlı təhlillər aparmalıdırlar.

Hind-Avropa dilləri şöbəsinin 2026-cı il üçün müəyyənləşdirdiyi planda Azərbaycan dili və müxtəlif sistemli dillərin fonetik təhlili, eksperimental-fonetik tədqiqatı, Azərbaycan dilinə müxtəlif sistemli dillərdən alınan sözlərin linqvistik və ekstralinqvistik təhlili nəzərdə tutulur.

**Məsud MAHMUDOV,**
**süni intellekt və kompüter dilçiliyi şöbəsinin müdiri, filologiya elmləri doktoru, professor**

– Prezident İlham Əliyev Azərbaycan dilinin inkişafı və saflığının qorunması ilə bağlı bir çox məsələlərə aydınlıq gətirdi. Ölkə başçısı vurğuladı ki, hər bir millət, hər bir xalq üçün ana dili onun milli mənsubiyyətinin əsas amilidir və bu istiqamətdə bütün ictimaiyyət bir nöqtəyə vurmalıdır. Əlli milyon insan üçün ana dili olan Azərbaycan dili çox zəngin dildir və bu dildə lüzumsuz olaraq xarici kəlmələrin işlədilməsinə ehtiyac yoxdur. Əgər biz öz dilimizi qorumasaq, dilimizi saf və təmiz saxlamasaq, onu tədricən itirə bilərik.

Prezident İlham Əliyevin çıxışından irəli gələn göstəriş və tövsiyələrin icrası ilə bağlı Süni intellekt və kompüter dilçiliyi şöbəsində bir sıra tədbirlərin həyata keçirilməsi nəzərdə tutulur:

– Azərbaycan dilinin saflığının qorunması və inkişafı ilə əlaqədar mətbuatda, elmi məcmuələrdə məqalələrlə çıxış etmək və təkliflər vermək;

– Sosial şəbəkələrdə, müxtəlif saytlarda dilimizin qaydalarının pozulması hallarına yol verməmək, bununla bağlı sayt rəhbərlərinə məktublarla müraciət etmək;

Kütləvi informasiya vasitələrində, radio və televiziyalarda Azərbaycan dilinin saflığının qorunması ilə bağlı müzakirələrdə fəal iştirak etmək;

Elmi-tədqiqat planlarının və məqalələrin yazılışı prosesində lüzumsuz olaraq xarici terminlərin istifadəsini məhdudlaşdırmaq və ana dilimizin daxili imkanları əsasında yaradılmış terminlərdən istifadəyə nail olmaq.

**Elçin İSMAYILOV,**
**toponimika şöbəsinin müdiri, filologiya üzrə fəlsəfə doktoru, dosent**

– Prezident İlham Əliyev Azərbaycan dilinin inkişafı və onun saflığının qorunması məsələlərinə son çıxışında da xüsusi diqqət yetirmişdir. Dövlət başçısı vurğulamışdır ki, hər bir xalq üçün ana dili milli kimliyin və mənəvi dəyərlərin əsas göstəricisidir. Ana dilinin qorunması, zənginləşdirilməsi və gələcək nəsillərə saf şəkildə ötürülməsi milli varlığımızın davamlılığını təmin edən mühüm amillərdəndir.

Toponimika şöbəsi olaraq Prezident İlham Əliyevin çıxışından irəli gələn tapşırıqların icrası məqsədilə şöbədə bir sıra tədbirlərin - Qərbi Azərbaycan toponimlərinin izahlı lüğətinin 2-ci cildinin, işğaldan azad olunmuş rayonların toponimlərinin izahlı lüğətinin, Azərbaycan coğrafiyasının və Türk dünyasının areal toponimlərinin izahlı lüğətinin hazırlanmasını planlaşdırırıq.

Bu mövzularla əlaqədar olaraq Azərbaycan toponimlərinin qorunması və yer adlarının düzgün işlədilməsi məqsədilə mətbuatda, saytlarda və televiziya proqramlarında maarifləndirici çıxışların və təqdimatların təşkili nəzərdə tutulur.

**Rasim HEYDƏROV,**
**təhsil şöbəsinin müdiri**

– Prezident İlham Əliyevin proqram xarakterli çıxışında Akademiyanın elmin inkişafındakı rolunu bir daha vurğuladı. Dövlət başçısının çıxışında bir sıra məsələləri xüsusilə qeyd etmək lazımdır. Bura, ilk növbədə, süni intellektin dünya elmində artan rolu, dilimizə dövlət qayğısı və bu istiqamətdə görülən işləri aid etmək olar. Təhsil şöbəsi deyilən fikirləri nəzərə alaraq doktorant və dissertantlara aşağıdakı istiqamətdə mövzuların verilməsini nəzərdə tutur:

– Dilin saflığının qorunması, Azərbaycan dilinin xaricdə yayılma arealının genişləndirilməsi və ana dilinin öyrənilməsi, Süni intellekt, respublikamızda dil siyasəti və sosiolinqvistik şərait, xaricdə kompakt halda yaşayan azərbaycanlıların dillərinin və dialektlərinin öyrənilməsi ilə bağlı mövzular. Alınma sözlərin dilə təsiri və son illər dilə daxil olan sözlərin tədqiqi.

**İsmayıl MƏMMƏDLİ,**
**tətbiqi dilçilik şöbəsinin müdiri, filologiya elmləri doktoru, professor**

– Prezident İlham Əliyev müzakirə edilən mövzu ilə bağlı önəmli məsələlərə toxundu, Azərbaycan ədəbi dilinin qorunması ilə bağlı tövsiyə və təkliflər verdi. 50 milyondan çox azərbaycanlının danışdığı, zəngin inkişaf tarixinə və lüğət tərkibinə malik olan dilimizin bütün sahələrdə qorunmasının vacibliyini vurğuladı, həmçinin bildirdi ki, ölkəmiz dünyada baş verən proseslərə həm uyğunlaşdırılmalı, həm də bir çox təşəbbüslər irəli sürməlidir. Bu məqsədlə, Azərbaycan alimləri, o cümlədən dilçilər, ana dilimizin saflığının qorunması məsələsinə xüsusi diqqət yetirməlidirlər.

Tətbiqi dilçilik şöbəsinin əməkdaşları cənab İlham Əliyevin çağırışına dəstək verərək dilimizin saflaşdırılması, işləkliyinin artırılması, orfoqrafiya və izahlı lüğətin funksional və müasir hala gətirilməsi üçün aşağıdakı təklifləri irəli sürür:

– Dilimizdə yanlış işlənən sözlərin siyahısını hazırlayıb gündəlik danışıqda diqqətçəkən səhv ifadələr üzərində təkmilləşdirmə işləri aparaq Azərbaycan dilinin orfoqrafiya lüğətini tərtib etmək,

– Təhsil ocaqlarında – məktəblərdə, universitetlərdə və istimai yerlərdə düzgün danışıq mövzusunda seminarlar, vebinarlar keçirmək, lüğətlərin əhəmiyyətini vurğulamaq.

– Azərbaycan dilində işlək olan alınma sözlərə rəsmi şəkildə milli qarşılıq taparaq Azərbaycan dilinin Böyük izahlı lüğətini zənginləşdirmək.

**Nərgiz HACIYEVA,**
**müasir Azərbaycan dili şöbəsinin müdiri, filologiya elmləri doktoru, dosent**

– Dövlətin atributları gerb, bayraq və bir də onun dilidir. Dil hər bir xalqın milli sərvətidir. Dili olmayan xalq məhvə məhkumdur. Azərbaycan xalqının dilinin, mədəniyyətinin, iqtisadiyyatının, siyasətinin formalaşmasında mühüm xidmətləri olan Ulu öndər Heydər Əliyev deyirdi ki, "Mən fəxr edirəm ki, azərbaycanlıyam!". Ulu öndərin dil siyasətini uğurla davam etdirən, ana dilinin inkişafına, təkmilləşdirilməsinə xüsusi diqqət yetirən Prezident İlham Əliyev demişdir: "... Azərbaycan dilinin saflığının qorunması hər bir Azərbaycan vətəndaşının işi olmalıdır... On il ərzində lazımi tədbirlər görüldü ki, biz dilimizi kənar kəlmələrdən qoruya biləк. Amma yenə də oradan-buradan eşidirəm, - həm televiziyalarda, həm yazılı mediada, həm də bəzi insanların çıxışlarında – buna heç bir gərək yoxdur. Yəni biz xalq kimi, millət kimi öz dilimizi qorumasaq, onda yavaş-yavaş bizim milli kimliyimiz də sarsıla bilər".

Həqiqətən də, yad kəlmələri dilimizdən uzaqlaşdıraraq bir çox sözləri xalq dilindən, dialektlərdən alıb lüğət tərkibinə sala bilərik. Alınma sözlər öz sözlərimizlə əvəz olunsa, dilimizin lüğət tərkibi daha da zənginləşər. Prezident İlham Əliyev gənc nəslin ana dilini bilməsini vacib sayaraq qeyd edir ki, bir neçə xarici dili bilmək lazımdır, lakin ana dilini qorumaq, onu bilmək hər bir şəxsin vəzifəsidir. Hazırda müstəqillik dövründə uşaq yazıçılarının əsərlərində yeni, uydurma, fantastik alınma adlarla yanaşı, milli adlara çox üstünlük verilir, Vətən, vətənpərvərlik, Qarabağ, təbiət mövzusuna geniş yer ayrılır, eyni zamanda gənc nəslin ətraf mühitin qorunması məsələsi ön plana çəkilir.

"Azərbaycan dilində dar coğrafi ərazidə işlənən alınma toponimlər"ə aid məqaləmdə bir çox toponimlərin tat, talış, fars, ərəb və başqa dillərdə qalmasına qarşı çıxmış və bu adların ana dilində öz adlarımızla əvəz olunması ideyasını irəli sürmüşəm. Güman edirəm ki, mənasız, anlaşılmayan, dilimizə yad sözlərlə işlənən toponimlərimizin öz kəlmələrimizlə əvəz olunmasının vaxtı gəlib çatmışdır.

Ümid edirik ki, milli dilinə qayğı daha da artacaq və onun yad təsirlərdən qorunma işində yeni nailiyyətlər əldə olunacaq.

*Müzakirə materiallarını hazırladı:*
***Mehparə ƏLİYEVA***
***XQ***

*Təqdimat*

# Ortaq türk əlifbası ilə yeni nəşrlər

**Noyabrın 19-da Ankarada Beynəlxalq Türk Mədəniyyəti Təşkilatı və Türk Akademiyası tərəfindən ortaq türk əlifbası ilə nəşr olunmuş iki kitabın - Abay Kunanbayevin "Qara sözlər" və Çingiz Aytmatovun "Cəmilə" əsərlərinin təqdimat mərasimi keçirilib.**





TÜRKSOY-un Baş katibi Sultan Raev iştirakçılara müraciətində kitabların təqdimatını Türk dünyası üçün ortaq gələcək konsepsiyasının reallaşdırılması istiqamətində mühüm addım adlandırıb.

Türk Akademiyasının prezidenti Şahin Mustafayev, öz növbəsində, 34 hərfdən ibarət ortaq türk əlifbasının qəbul edilməsinin əhəmiyyətini vurğulayıb. O qeyd edib ki, türk dövlətlərindən olan siyasətçilər və alimlər illərdir türk xalqlarını bir-birinə daha da yaxınlaşdıran tədbirlərin həyata keçirilməsi istiqamətində mühüm bir addım olaraq ortaq, türk əlifbası üzərində razılığa gəlməyin zəruriliyini dəfələrlə vurğulayıblar.

Təqdimat panel müzakirələri ilə davam edib.

***XQ***

# Qarsda Mirzə Fətəli Axundzadə ünvanı




**Qars şəhərində fəaliyyət göstərən Qafqaz Universitetinin Ahmet Arslan Konqres və Mədəniyyət Mərkəzinin salonlarından birinə böyük mütəfəkkir, Azərbaycan milli dramaturgiyasının banisi, görkəmli ictimai xadim və maarifçi Mirzə Fətəli Axundzadənin adı verilib.**

Diplomatların, ziyalıların, digər ictimaiyyət nümayəndələrinin iştirak etdikləri tədbirdə Universitetin İncəsənət fakültəsinin dekanı Mitat Durmuş, Ərdahan Universitetinin rektoru Öztürk Emiroğlu və ölkəmizin Qarsdakı baş konsulu Zamin Əliyev çıxış edərək M.F.Axundzadənin zəngin yaradıcılığından bəhs ediblər.

Açılışını bildirən rəmzi lent kəsilib.

Sonra İncəsənət fakültəsinin tələbələrinin ifasında M.Axundzadənin "Xırs quldurbasan" komediyası nümayiş olunub.

*Üzeyir Hacıbəyli – 140*

# Dahi bəstəkarın mədəni quruculuq missiyası

**Bəstəkar, musiqişünas, ictimai xadim, publisist, dramaturq, pedaqoq Üzeyir Hacıbəylinin yaradıcılıq yolu çox mürəkkəb, çətin, keşməkeşli olmuşdur. Onun zəngin və geniş yaradıcılıq fəaliyyəti Azərbaycan tarixinin, mədəniyyətinin ən ziddiyyətli, təlatümlü, fırtınalı dövrlərinə təsadüf etmişdir.**

Taleyinə fərqli ictimai formasiyalarda - rus imperiyasında, Azərbaycan Xalq Cümhuriyyətində, Sovet-kommunist rejimində yaşamaq nəsib olan Üzeyir Hacıbəyli bütün bu quruluşlarda hər cür təzadlıqlara, təqiblərə baxmayaraq, hər zaman öz əqidəsinə, məsləkinə, ideallarına sadiq qalmış, ömrünün sonunadək xalqına, vətəninə sədaqətlə qulluq etmişdir.

Həyatında bir çox sınaqlardan çıxmış Üzeyir Hacıbəylinin təqiblərdən xilas olmasında və repressiya qurbanına çevrilməsinin qarşısının alınmasında xalqa, vətənə müstəqil Azərbaycanın gələcəyi naminə göstərdiyi misilsiz xidmətləri həlledici rol oynamışdır. Dahi bəstəkar yaradıcılığı boyu çoxtərəfli fəaliyyəti ilə xalqın savadlanmasına, hüquqlarının qorunmasına, qəflət yuxusundan oyanmasına, maariflənməsinə, musiqisinin və mədəniyyətinin qorunması və inkişafına yol açan böyük işlərə imza atmışdır.

Həyatının ilk təhlükəli dövrü gənc yaşlarında, 1905-ci ildə Cəbrayıl qəzasında erməni – daşnakların azərbaycanlılara qarşı törətdikləri qırğın ilə bağlı olmuşdur. Əmək fəaliyyətinə 1904-cü ildə Qarabağda, Cəbrayıl qəzasının Hadrut kəndində müəllim kimi fəaliyyətə başlayan gənc Üzeyir xalqının acınacaqlı həyatını, maarif məsələlərini, xüsusilə də, ermənilərin kəndlərdə törətdikləri qırğınları, qarətləri əməkdaşlıq etdiyi "Kaspi" qəzetində işıqlandırmışdır. Onun bu fəaliyyətinin düşmənləri tərəfindən qisasla nəticələnməsindən xəbərdar olan xeyirxahlar Ü.Hacıbəylinin gecə ikən kənddən uzaqlaşıb Bakıya yola düşməsinə şərait yaratmaqla onu böyük təhlükədən xilas edirlər.

Bakıda Ü.Hacıbəyli olduqca məhsuldar və geniş olan ədəbi-publisistik fəaliyyətini "İrşad", "Həyat", "Tərəqqi" (1909-cu il iyun-sentyabr), "Həqiqət" (baş redaktor – qısa müddətə), "Yeni iqbal" (1914-1918-ci illər baş redaktor), daha sonra Azərbaycan Demokratik Respublikasının ən aparıcı nəşri olan "Azərbaycan" qəzetlərində (1918-1920-ci illər baş redaktor) davam etdirir. Bu qəzetlərdə Ü.Hacıbəylinin alovlu, cəsarətli çıxışları onun əsl vətənpərvər, xalqı və milləti düşünən ziyalı, siyasi cəhətdən püxtələşmiş jurnalist olduğunu göstərir. Lakin publisistik fəaliyyəti ilə yanaşı, Ü.Hacıbəyli muğam operaları, musiqili komediyalar bəstələyir, cəmiyyətdəki çatışmazlıqları tənqid və ifşa edən dramaturq kimi çıxış edir.

Lakin o, yaradıcılığında musiqiyə üstünlük verməklə məşhur bəstəkar kimi şöhrət tapır. Onun Bakıda dövrünün görkəmli şəxsiyyətləri - Həsən bəy Zərdabi, Əli bəy Hüseynzadə, Əhməd bəy Ağayev, Məmmədəmin Rəsulzadə və b. ilə yaxın əlaqələri onun ictimai xadim kimi fəaliyyətinə böyük təsir göstərir. Onu da qeyd edək ki, Üzeyir Hacıbəylinin 1907-ci ildə nəşr etdirdiyi "Siyasi, hüquqi, iqtisadi və hərbi sözlərin türkü-rusi və rusi-türkü" lüğətinin redaktoru və naşiri, ön sözün müəllifi Məhəmməd Əmin Rəsulzadə olmuşdur.

1918-ci ildə Bakıda vətəndaş müharibəsinin başlaması, 26 Bakı komissarlarının rəhbəri Stepan Şaumyanın təşkilatçılığı ilə daşnak-bolşeviklərin Mart qırğınları zamanı Üzeyir Hacıbəylinin yaxın dostu Nəriman Nərimanovun təhrikilə buradan uzaqlaşaraq İrana uzunmüddətli qastrol səfərinə çıxması onun və bir çox sənət adamlarının həyatının xilas edilməsi üçün yeganə çıxış yolu olur. Milli dirçəliş ideyaları ilə yaşayan Üzeyir bəy Bakıda erməni–bolşevik hökmü altında ömür sürməyi özünə sığışdıra bilmədiyinə görə, ehtimal ki, onun həmin dövrdə İrana qastrol səfəri də məcburi olub.

Azərbaycanın müstəqilliyinə qarşı hücumlar Ü.Hacıbəylinin musiqisinin, əsərlərinin düşmənlərimiz tərəfindən "işğalı", onun özünə qarşı təhdid və "donoslar"la paralel aparılmışdır. Belə ki, bəstəkar İranda olduğu zaman Bakıda rus-erməni birliyinin tüğyan etdiyi dövrdə Sentrokaspi diktaturasının himayəsi altında dünyaca məşhur "Arşın mal alan" operettası Mayılov teatrında ermənicə oynanılır və erməni musiqisi kimi qələmə verilirdi. Belə mənimsəmə faktı artıq ənənə halını almağa başlayır. Hələ çar Rusiyası dövründə operettanı erməni dilində bir çox şəhərlərdə səhnəyə qoymağa icazə alan Sidrak Maqalyan Üzeyir bəylə razılaşdırılan müqavilə şərtlərini pozaraq əsəri 1921-ci ildə ABŞ-da da nümayiş etdirir və erməni əsilli rejissor Ruben Mamulyana satmaqla 1937-ci ildə eyniadlı filmin çəkilişinə imkan yaradır. Beləliklə də, "Arşın mal alan" erməni xalqının bədii məhsulu kimi təqdim olunur.

Üzeyir Hacıbəyli 1920-ci il 16 yanvar tarixində qardaşı Ceyhun Hacıbəyliyə yazdığı məktubunda da İstanbuldakı səfirimiz Yusif Vəzirovun məlumatına əsaslanaraq ermənilərin fransızca "Renessans" qəzetində "Arşın mal alan"ın müəllifinin erməni olduğu haqqında iddianı böyük həyəcanla bildirir.

Təəssüf ki, uzun zaman dahi bəstəkarın həyatının bu səhifələri "qaranlıq" qalmış, üstündən səthi keçilmişdir. Belə neqativ halların qarşısını məhz İkinci Dünya müharibəsinin ən qızğın çağında İosif Stalinin göstərişi ilə operettanın ekranlaşdırılması alır.

Üzeyir Hacıbəylinin istər publisistik, istərsə də musiqi sahəsindəki fəaliyyəti erməni millətçilərini həddən artıq hiddətləndirirdi ki, bu da onları xalqımıza məxsus milli, maddi-mədəni sərvətləri mənimsəməyə, bunu bacarmadıqda isə məhv etməyə gətirib çıxarırdı. 1918-ci ilin qanlı Mart hadisələri bunu əyani sübut edirdi. Nəinki Bakıda, Azərbaycanın digər bölgələrində onların törətdikləri vəhşiliklər, vandalizm aktları xalqımıza məxsus olan maddi-mədəni abidələrin dağıdılmasına, tarixin səhifəsindən yox etməyə yönəlmişdi. Bunun biz XX əsrin sonlarında da canlı şahidi olduq.

Azərbaycan Demokratik Respublikası elan edildikdən sonra Ü.Hacıbəyli və onun truppası İran səfərindən Bakıya döndükdə artıq şəhər düşmənlərdən təmizlənmişdi. Cümhuriyyət illərində onun Azərbaycan, türkçülük uğrunda çalışan, xalqı "müsəlman ümmətindən türk millətinə" çevirmək uğrunda mübarizə aparan, milli dirçəliş, milli özünüdərk ideyasına xidmət göstərən şəxsiyyətlərlə dostluq münasibətləri, Demokratik Respublikanın Dövlət himninə musiqi bəstələməsi, həmçinin doğma qardaşı Ceyhun Hacıbəylinin mühacirətdə olması Ü.Hacıbəylinin yaradıcılığının sonrakı dövründə onun təqib edilməsinə əsas verən ciddi səbəblər idi.

Həqiqətən, 1919-cu ilin sentyabrından 1920-ci ilin 27 aprel tarixinədək Ü.Hacıbəylinin redaktəsi ilə buraxılan "Azərbaycan" qəzetinin səhifələrindəki çıxışlarında ictimai-siyasi publisistikanın önə çıxması onu bu janrın ən qabaqcıl nümayəndələri –



Əhməd Ağaoğlu, Cəlil Məmmədquluzadə, Ömər Faiq Nemanzadə, Məhəmməd Əmin Rəsulzadə, Yusif Çəmənzəminli ilə bir səviyyəyə qaldırırdı. Məqalələrində Üzeyir Hacıbəylinin istiqlal ideallarına sadiqliyi, vətənpərvərliyi, türkçülüyü, xalqın problemlərinə diqqətlə yanaşması və bunların həlli yollarının göstərilməsi və s. dolğun əksini tapır, məzmun və mövzu baxımından nikbinliyi, ruh yüksəkliyi ilə seçilirdi. Hər bir çıxışında gələcəyə, istiqlalın qorunub saxlanılmasına böyük ümid, inam aydın ifadə olunurdu.

1920-ci il aprelin 28-də bolşeviklərin hakimiyyətə gəlməsindən sonra Üzeyir bəyin həbs edilərək qətlə yetirilməsi təhlükəsi getdikcə artırdı. Onu bu təqiblərdən yalnız yazdığı dəyərli musiqi əsərləri və musiqi mədəni quruculuq fəaliyyəti xilas edir. Azərbaycanda sovet hakimiyyəti qurulduğu ilk günlərdən Ü.Hacıbəyli musiqi təhsil ocaqlarının açılması ilə məşğul olur, musiqi kollektivlərinin təşkili, musiqi dərsliklərinin və proqramlarının hazırlanması istiqamətində fəal iş aparır ki, bu da onun şəxsiyyətinin daha bir vacib cəhətini - ictimai fəaliyyətini nəzərə çatdırır.

Buna baxmayaraq, bəstəkarın əleyhdarları onun keçmiş siyasi baxışlarını qabardaraq ("millətçi", "pantürkist", "müsavatçılıq" və s.) yeni quruluşa düşmən mövqedə olmasını sübut etməyə çalışırdılar. Belə təftiş xarakterli yazıların və çıxışların bolşevik mətbuatında da özünə yer alması Ü. Hacıbəylinin gələcək fəaliyyəti üçün ciddi təhlükə doğururdu.

Bu yazılar arasında erməni əsilli müəlliflər xüsusi canfəşanlıq göstərirdilər. Onlardan Azərbaycan musiqiçiləri ilə sıx yaradıcılıq əlaqəsində olan və onların yaradıcılığından çox şeyi öyrənən kamança ifaçısı Saşa Oqanezaşvili paradoksal olsa da, "Üzeyir Hacıbəyovu Azərbaycan musiqisinin inkişafında lazımınca çalışmamaqda" ittiham etməklə öz məkrli niyyətini ortaya qoyurdu. Belələri arasında "özümüzünkülər" də fəallıq göstərirdi.

Bunlardan biri "Kommunist" qəzetində Azərbaycanda sovet hakimiyyətinin qurulmasının 10 illiyi münasibətilə nəşr etdirdiyi məqalədə Ü.Hacıbəylinin Cümhuriyyət dövrünə atmacalarla onun keçmişini yenidən yada salaraq yazır: "Gözünə girsin, Məhəmməd Əmin Rəsulov! Azərbaycanın 10 illiyi gecəsində... 200-ə qədər türk qızı Azərbaycan himni oxuyurdu! Hələ bu himnin kim tərəfindən yazıldığını bilsən, bağrın çatlar. Onu Üzeyir Hacıbəyov yazmışdır. O Üzeyir ki, sənin çıxardığın mürtəce "Azərbaycan" qəzetinə müvəqqəti müdirlik edirdi. O Üzeyir ki, indi çıxışda bulunaraq öz təşəbbüsü ilə Azərbaycanın 10 illiyi himnini yazmış, türk qızlarına oxutdurur və özü dirijorluq edir. Görürsənmi, vaxtilə bel bağlamaq istədiyin adamlar belə sizə nifrət edərək üz çevirmiş və Şuralar Azərbaycanın mədəni quruluşu işlərində ən aktiv iştirak edir".

Nə qədər təxribat xarakterli olsa da, belə yazılarda yalnız bir məqam həqiqəti əks etdirir ki, bu da Üzeyir Hacıbəylinin Azərbaycan xalqına, mədəniyyətinə, ölkənin mədəni-siyasi dirçəlişinə eyni əzmlə xidmət göstərməsi idi.

Belə hücumlar, xüsusilə, Ü.Hacıbəylinin 1936-cı ildə SSRİ Ali Sovetinə keçirilən seçkilərdə xalq deputatları sıralarında yer tutduqdan sonra daha da artır. Azərbaycan professional musiqisinin banisi, sovet musiqi mədəniyyətinin qabaqcıl nümayəndələrindən biri olmasına baxmayaraq, belə anonimlərin yuxarı instansiyalara çatdırılması dahi bəstəkarın həyatının daim təhlükə və qorxu içində keçməsinə, mənəvi sarsıntılar keçirməsinə zəmin yaradırdı.

Cümhuriyyət dövründəki fəaliyyəti unudulmasa da, dahi Ü.Hacıbəylinin sənəti, musiqisi xalq tərəfindən sevildiyinə görə onun Şura hökuməti sıralarında yer alması möcüzə, yoxsa düşünülmüş addım idi? Yəqin ki, belə bir şəxsiyyətin nüfuzundan istifadə edərək onun mədəni quruculuğa cəlb edilməsi dərin siyasi məna daşıyırdı. Bəlkə də bu səbəbdən keçmiş ictimai-siyasi fəaliyyətinə görə repressiyalar əvəzinə müxtəlif təltif, mükafat və fəxri adlara layiq görülməsi Ü.Hacıbəyliyə keçmişi unutdurmaq, əqidəsini dəyişmək, yeni rejimə qulluq etmək üçün atılan addım idi. Rejimin və siyasi vəziyyətin mürəkkəbliyini, mənfur əməllərini görən Ü.Hacıbəyli iztirab, təlaş, daxili təşviş və mənəvi sıxıntı keçirərək yalnız və yalnız öz xalqına sonadək qulluq edəcəyinə əmin idi. Belə ki, Cümhuriyyət dövründə onun ətrafında olan yaxın dostları və məsləkdaşları - Əhməd Cavad, Mikayıl Müşfiq, Hüseyn Cavid və bir çoxları artıq çoxdan repressiya qurbanı olmuşdular.

Maraqlıdır ki, məhz bu dövrdə Ü.Hacıbəyli publisistikadan uzaqlaşaraq özünün türkçülük, müstəqil dövlətçilik, qəhrəmanlıq, milli özünüdərk ideyalarını sözlə deyil, məhz musiqi dili ilə öz əsərlərində canlandırırdı. Bunun da bariz nümunəsi "Koroğlu" operası oldu. Milli musiqi mədəniyyətinin inkişafında böyük roluna, musiqi və teatr sənətindəki xidmətlərinə görə Ü.Hacıbəyli 1938-ci ildə SSRİ Xalq artisti adını alan ilk Azərbaycan bəstəkarı olmuşdur. Bu fəxri adların alınmasında 1938-ci ildə Moskvada keçirilən Azərbaycan incəsənəti və mədəniyyətinin ongünlüyündə "Koroğlu" operasının "Böyük teatr"ın səhnəsində nümayiş etdirən Azərbaycanın incəsənət xadimlərinin möhtəşəm çıxışları səbəb olmuşdur. Stalin iki dəfə seyr etdiyi bu operanın bəstəkarı və əsas iştirakçılarını ölkənin ən yüksək və nüfuzlu fəxri adlarına layiq görmüşdür.

Bunun ardınca Ü.Hacıbəyli 1938-ci ildə Lenin ordeni kavaleri, 1941-ci ildə "Koroğlu" operasına, 1946-cı ildə isə "Arşın mal alan" filminə görə Stalin mükafatına layiq görülür.

Qeyd etdiyimiz kimi, 70-ə yaxın dilə dublyaj edilən "Arşın mal alan"ın ekranlaşdırılması ilə onun şöhrəti bütün dünyanı dolaşır ki, bu da ölkəyə indiyədək görünməmiş həcmdə, heç bir filmdən əldə olunmayan miqdarda böyük gəlir gətirir. Filmin məşhurlaşması onun baş qəhrəmanı - Əsgər rolunun ifaçısı gənc Rəşid Behbudovun da ilk debyutu olaraq onun populyarlaşmasında və tanınmasında mühüm rol oynayır.

"Arşın mal alan"ın ekranlaşma sayəsində korifey sənətkarların səhnə fəaliyyətinin əyaniləşməsi və tarixi sənədləşməsi baş verdi. Məhz belə uğurlu yaradıcılıq birliyi sayəsində yaranan filmin yaradıcılarına - bəstəkar və libretto müəllifi Ü.Hacıbəyliyə, rejissor Rza Təhmasibə, Rəşid Behbudova, Leyla Bədirbəyliyə, Ələkbər Hüseynzadəyə, Lütfəli Abdullayevə, Münəvvər Kələntərliyə 1946-cı ildə Stalin mükafatı təqdim olunur.

Musiqi əsərləri ilə bərabər, Ü.Hacıbəyli fundamental elmi-tədqiqat işi apararaq 1945-ci ildə "Azərbaycan xalq musiqisinin əsasları" əsərini yazıb nəşr etdirməklə XX əsr müasir Azərbaycan musiqi elminin bünövrəsini qoymuş və onun gələcək inkişaf yolunu müəyyənləşdirmişdir. Həmin ildə təşkil olunan Azərbaycan Milli Elmlər Akademiyasına seçilən ilk 15 həqiqi üzvdən biri də Üzeyir Hacıbəyli idi. Onun, həmçinin Azərbaycan Bəstəkarlar İttifaqının ilk sədri kimi böyük bəstəkar nəslinin formalaşmasında müstəsna rolu olur.

Üzeyir Hacıbəyli mənalı və şərəfli həyat yolu keçmişdir. Bütün çətinliklərdən və sınaqlardan üzüağ, alnıaçıq çıxan dahi sənətkar həyatdakı öz missiyasını - Azərbaycan mədəniyyətinin inkişafı və tərəqqisi uğrunda var qüvvəsi ilə çalışaraq onun yüksək nailiyyətlər qazanmasında tarixi rolunu yerinə yetirmiş, maarif, incəsənət, publisistika yoluna saldığı işıq bu gün də öz parıltısını itirməmişdir.

***Akif QULİYEV,***
***Azərbaycan Milli Konservatoriyası musiqinin tarixi və nəzəriyyəsi kafedrasının müdiri, Əməkdar incəsənət xadimi, sənətşünaslıq üzrə fəlsəfə doktoru***

***Gəray Fəzli – 100***

# Ulu sözün əbədiyyətinə qovuşmuş sənətkar

**XX əsr Azərbaycan ədəbiyyatının tanınmış siması Gəray Fəzlinin anadan olmasının 100 illiyi münasibətilə Azərbaycan Yazıçılar Birliyində keçirilən yubiley mərasimində populyar nasir və nəğməkar şair, nüfuzlu publisistin mənalı ömür yoluna və zəngin yaradıcılığına geniş nəzər salındı, yüksək insani keyfiyyətləri qədirbilənliklə xatırlandı.**



Məclisin aparıcısı Azərbaycan Mətbuat Şurası, Ahıl Jurnalistlər Məclisinin sədri, Əməkdar jurnalist Tahir Aydınoğlu bildirdi ki, Gəray Fəzli 1925-ci il noyabrın 14-də anadan olub, Qax rayonunun İlisu kəndində boya-başa çatmışdı. Ötən əsrin ikinci yarısında qələmini nəsrdə, poeziyada, publisistikada, teleradio jurnalistikasında uğurla sınayan, 1952-ci ildən Azərbaycan Yazıçılar İttifaqının üzvü olan ustad qələm sahibinin poema və romanları ədəbi ictimaiyyətin, məşhur söz adamlarının diqqətini çəkib, layiqli qiymətini alıb. Səməd Vurğun, Mirzə İbrahimov, Rəsul Rza, Süleyman Rüstəm, Məmməd Rahim, Bəxtiyar Vahabzadə onun əsərləri haqqında ölkə mətbuatında müsbət rəylərini bildirmişdilər.

Azərbaycan Kinematoqrafçılar İttifaqının redaktoru, yazıçı-publisist Akif Cabbarlı bildirdi ki, özünə həyat müəllimi, söz ustadı saydığı Gəray Fəzlinin yetkin qələm sahibi kimi imzası orta və yaşlı nəslin yaxşı yadındadır. İkinci Dünya müharibəsindən salamat çıxmış ziyalılar arasında onun da adı ehtiramla çəkilir – nasir, şair, publisist, televiziya və radio jurnalisti kimi. Gəray müəllim sağlam əqidəli, səmimi, qayğıkeş, prinsipial, mərd insan, əsl vətəndaş idi.

1995-ci il dekabrın 26-da Gəray Fəzli bu dünyaya – əzizlərinə, oxucularına, onu tanıyan, xətrini əziz tutan hər kəsə əlvida dedi. Təbii ki, bu tarix onun mənalı ömür yolunun, zəngin yaradıcılığının nöqtəsi, taleyinin əbədiyyətə qovuşma anı olsa da, 35 ildən bəri xatirələrdə yaşamasının başlanğıcıdır. Gözəl insanın, oxunaqlı romanlar və poemalar müəllifinin, nəğməkar şairin 100 illik yubileyi onun parlaq obrazını yenidən iri planda gündəmə gətirib.

Sonra ədəbiyyatşünaslar Vaqif Yusifli yubilyar ədibin poetik, Əsəd Cahangir nəsr, yazıçı-publisist Seyran Səxavət sənədli yaradıcılığının özünəməxsusluğundan söz açdılar. Onlar qeyd etdilər ki, 70 illik ömründə Gəray müəllim çox məhsuldar yaradıcılıq yolu keçib, şərəfli həyat sürüb. Ədəbi fəaliyyətə gənc yaşlarından başlayan yazar "Ölkəm", "Mənim səsim", "Təzə ünvan", "İldırımlı dağlar", "Kəhrəba işığında", "Səadətin ünvanı", "Yeddi ulduzlu səma", "Gecə günəşi", "Bir qəlbin asimanı", "Xatirəli dünyam" və s. kitabların müəllifi idi. "Portret cizgiləri" seriyasından sənədli povestlər, oçerklər, sənədli televiziya filmləri üçün ssenarilər yazmışdı. Şairin sözlərinə yazılmış, bu gün də təravətini itirməyən mahnıları tanınmış sənətkarlar səsləndiriblər.

Bildirildi ki, Gəray müəllimin həyata, gələcəyə ünvanlanan, onun yaradıcılıq bioqrafiyasının fəlsəfəsini açıqlayan misraları bu gün də örnək olacaq bir obrazı təqdim edir: "Sevgiyə, sevdaya vətəndir könlüm, Yalnız el yükünə vətəndir könlüm". Poetik avtoportretindən də göründüyü kimi, Gəray müəllim genişqəlbli, səxavətli, saf düşüncəli insan idi.

Mərasimdə çıxış edən Əməkdar jurnalistlər Vaqif Musayev, Fazil Güney və Adil Cəmil, şairlər Ağacəfər Həsənli, Zaməddin Həmişəyev, filosof Firuz Mustafayev, jurnalistlər Şəfəq Əlibəyli, Hacı Mehman Fərzullayev, Tamxil Ziyəddinoğlu və Mübariz Süleymanlı, iqtisadçı Qənimət Səfərli, istefada olan zabit Hamlet İsmayılov yubilyarın zəngin irsinin milli-mənəvi dəyərlərimizin yeni nəsillərə ötürülməsində gərəkli mənbə olduğundan danışdılar, xatirələrini söylədilər.

Qaxdan gəlmiş ziyalılar həmyerlilərinin Gəray Fəzli ilə öyündüklərini və xatirəsinin daim əziz tutulduğunu söylədilər. Yubilyarın ailəsi adından çıxış edənlər göstərilən diqqətə, deyilən səmimi sözlərə görə razılıqlarını bildirdilər.

***T.RÜSTƏMLİ***
***XQ***

*Gəlimli-gedimli dünya...*

# Onun tarı həmişə oxuyacaq...

**Azərbaycan musiqi mədəniyyətində elə şəxsiyyətlər var ki, onların adını zaman musiqi tariximizə qızıl hərflərlə yazır. Belə ustadların, unudulmazların sırasında olmaq haqqını, görkəmli tarzən və pedaqoq, Dövlət mükafatı laureatı, "Şöhrət" və "Şərəf" ordenli, Xalq artisti Ramiz Quliyev də qazanmışdır.**



Bu il oktyabrın 15-də musiqi mədəniyyətimizə ağır itki üz verdi. Ömrünün 78-ci yaşında amansız ölüm sevimli sənətkarımız Ramiz Quliyevi aramızdan apardı. Bu hadisə onu sevən milyonlarla sadə dinləyicini, onunla ünsiyyətdə olmuş sənət yoldaşlarını, saysız-hesabsız tələbələrini, fəaliyyət göstərdiyi elmi-tədqiqat laboratoriyasının əməkdaşlarını dərindən kədərləndirdi.

Son illərdə Ramiz müəllimlə uzun illərdən bəri çalışdığı Ü.Hacıbəyli adına Bakı Musiqi Akademiyasında, bəlkə də, ən çox ünsiyyətdə mən olmuşam, onu daha yaxından tanımışam. Görmüşəm ki, onun sənətinin vurğunları arasında təkcə musiqiçilər deyil, şair, yazıçı, rəssamlar da çoxdur. Azərbaycanın Xalq şairləri – Bəxtiyar Vahabzadə, Zəlimxan Yaqub, şair-publisist Əli Vəkil və başqaları onun nadir sənətini vəsf etmişdilər.

Əgər biz Ramiz müəllimin keçdiyi həyat və fəaliyyətinə nəzər salsaq, onda onu qısaca belə xarakterizə edə bilərik: ustad sənətkar, pedaqoq, ictimai xadim və doğma torpağını sonsuz sevən əsl vətəndaş.

Ramiz Quliyev 30 aprel 1947-ci ildə Azərbaycanın dilbər güşəsi Qarabağın Ağdam şəhərində anadan olmuşdur. Görkəmli tarzən ilk musiqi təhsilini doğulduğu şəhərdə almış, 1964–1969-cu illərdə Azərbaycan Dövlət Konservatoriyasında tar və dirijorluq ixtisası üzrə tanınmış bəstəkar Adil Gərayın sinfində oxumuşdur. Ramiz Quliyev ömrünün 50 ildən artıq müddətini şərəfli müəllim peşəsinə həsr etmişdir. O, müəllimlik fəaliyyətinə Bakıda 1 saylı musiqi məktəbində başlamış, sonra Azərbaycan Dövlət Konservatoriyasının xalq çalğı alətləri kafedrasında müəllim, baş müəllim, dosent, professor olmuşdur. Ramiz müəllim uzun illər həmin kafedranın müdiri vəzifəsində çalışmışdır.

Ramiz Quliyevin onlarla tələbəsi beynəlxalq və respublika müsabiqələrinin laureatıdır. Onun məktəbini keçmiş tələbələr nəinki Azərbaycanın hər bir bölgəsində, eləcə də Türkiyə və İranda sənətkardan öyrəndikləri sirləri gənc ifaçılara aşılayırlar.

Ustadımızın məharətli ifasının pərəstişkarları dünyanın bir çox ölkələrində də var. Ramiz Quliyev dəfələrlə müxtəlif ölkələrdə qastrollarda çıxış etmiş və öz ecazkar ifaları ilə milli musiqimizi tərənnüm etmişdir. Xarici qastrolların birində Parisdəki məşhur "Liberasyon" qəzeti Ramiz Quliyevi "Tarın Paqaninisi" və "Şərqin Paqaninisi" adlandırmışdır.

1987-ci ildə xalq musiqisinə həsr olunmuş Səmərqənd simpoziumunda "Sadıqcan" triosunun ifasını dinləyən məşhur tədqiqatçı-alim İ.Zemtsovski onun ifasını "sensasiya" kimi qiymətləndirmişdir. Görkəmli bəstəkar Tofiq Quliyev isə Ramiz Quliyevi bütün yaxın Şərgin ən yaxşı tarzəni adlandırmışdır.

Ulu öndər Heydər Əliyev də Ramiz Quliyevin ifasını çox bəyənirdi və çaldığı C.Cahangirovun "Ana" mahnısını sevə-sevə dinləyirdi. Dünyaşöhrətli violonçel ifaçısı Mstislav Rostropoviç Ramiz Quliyevin oğlu Əyyubla ifasını dinləyərkən onları "Musiqi möcüzəsi" adlandırmış, Ramiz müəllimi isə çətin klassik əsərlərin obraz-emosional məzmununu çatdıran "parlaq virtuoz" kimi dəyərləndirmişdir.

O, musiqini təkcə barmaqları ilə deyil ürəyi ilə səsləndirirdi. Bir çox bəstəkarlarımız məhz görkəmli tarzənin ifalarından ilhamlanıb, onun bədii və texniki imkanlarını nəzərə alıb, ona müxtəlif formalı əsərlər həsr etmişdilər. Bunların arasında Hacı Xanməmmədov, Səid Rüstəmov, Süleyman Ələsgərov, Ramiz Mirişli, Tofiq Bakıxanov və digər bəstəkarların tar və simfonik orkestri üçün konsertlərini göstərmək olar. Ramiz müəllim bu mürəkkəb musiqi əsərlərini öz interpretasiyasında dinləyiciyə o qədər dolğun və dəqiq çatdırırdı ki, insan onları dinləyərkən heyranlığını gizlədə bilmir.

Gələcək nəsillərin musiqi təhsilini düşünən pedaqoq kimi Ramiz müəllim müsahibələrinin birində gileylənərək söyləmişdir: "Təsəvvür edin ki, Süleyman Ələsgərovun bir neçə pyesini nəzərə almasaq, konsertdə ifa etməyə, eləcə də dərs keçməyə tar üçün orijinal əsər yoxdur. Yazan da ancaq konsert janrına müraciət edir". Bu səbəbdən o, 1985-ci ildən 10-dan artıq "Azərbaycan və xarici bəstəkarların əsərlərinin tar və fortepiano üçün işləmələri" adlı dərs vəsaitini, 2004-cü ildə yaradıcılığının 40 illiyinə həsr olunmuş "Ramiz Quliyev" (poemalar, rəylər, məqalələr, intervyu və xatirələr) kitabını tərtib etmişdi.

Tarzən 2021-ci ildə Üzeyir Hacıbəyli adına BMA-nın 100 illik yubileyinə həsr olunmuş "Azərbaycan və xarici bəstəkarların əsərlərinin tar və fortepiano üçün köçürmə və işləmələri" adlı ikicildlik kitabın da müəllifidir. Burada Ramiz müəllim görkəmli bəstəkarlarımız Ü.Hacıbəyli, Q.Qarayev, F.Əmirov, Niyazi, C.Cahangirov, S.Rüstəmov, S.Ələsgərovdan tutmuş, müasir bəstəkarlara kimi çoxsaylı sənətkarın müxtəlif balet parçalarını, romans və rəqslərini tar üçün işləmiş və özü də onları redaktə etmişdir.

Ramiz müəllimin gördüyü hər iş mükəmməl idi. Bakı Musiqi Akademiyasında təşkil olunan, demək olar ki, bütün konfransların fəal iştirakçısı idi. Onun bölüşdüyü xatirələrə və nəzəri biliklərə əsaslanan çıxışlarına baxanda, olduqca geniş dünyagörüşünə malik, musiqişünaslığın müəyyən problemlərinə öz baxışı olan bir alimi görürük. Elmi-tədqiqat laboratoriyasında birgə işlədiyimiz zaman mən hər dəfə onun məsləhətlərini çox diqqətlə dinləyir və əməl etməyə çalışırdım.

Onun şahidi olduğum bir cəhətini də xüsusi vurğulamaq istərdim. Ustad dərslərini keçirərək o, öz bilik və bacarıqlarını gənclərlə paylaşmağı özünə borc bilirdi.

Ramiz Quliyevin 1993-cü ildə Fərhad Bədəlbəyli və digər tanınmış ziyalılarımızla "təmas xəttində" Ağdamın Şelli kəndindəki əsgər kazarmasının önündə güllə yağışı altında konsertdə çıxış etməsi əsl vətənpərvərlik nümunəsi idi.

Uzun illər yurd nisgili ilə yaşamış Ramiz müəllimin son 5 ildə gözləri gülürdü. Doğma Ağdam şəhəri II Qarabağ müharibəsi zamanı azad edilmişdi. Prezident İlham Əliyev Ağdam şəhərinin bərpasına start verəndə Ramiz müəllim oğlu Əyyub Quliyevlə tanınmış ağdamlıların arasında idi. Xatırladaq ki, Ramiz müəllimin canlı əsəri – oğlu Əyyub Quliyev istedadlı dirijor, Əməkdar artistdir. Hazırda o, Opera və Balet Teatrının baş dirijorudur.

Bu yerdə Ramiz müəllimin son vaxtlar dediyi sözlər yadıma düşür: "Ölkəmizin bu çiçəklənən dövründə yaşayıb-yaratmağa dəyər!" Heyif ki, Ramiz müəllim bu yaşamalı dünyadan əbədiyyətə köçdü. Axı o, hələ yaşayıb neçə-neçə kamil tarzən yetişdirə bilərdi. Ramiz Quliyevin xatirəsi xalqımızın qəlbində daim yaşayacaq. Yazdığı elmi əsərlər, yetişdirdiyi tələbələr onun sənət yolunu yaşadacaq.

*Nuridə İSMAYILZADƏ,*
*Üzeyir Hacıbəyli adına BMA-nın laboratoriya müdiri,*
*fəlsəfə doktoru, dosent*

# Türkmən xalqının Milli Lideri, Türkmənistan Xalq Məsləhətinin sədri Zati-aliləri cənab Qurbanqulu Berdiməhəmmədova

**Hörmətli Qurbanqulu Məlikquliyeviç!**

Azərbaycan və türkmən xalqları arasında əsrlər boyu formalaşmış dərin tarixi, mədəni, etnik, dil və dini bağlar iki qardaş ölkə arasındakı münasibətlərin etibarlı təməlini təşkil edir. Bu möhkəm təməllər üzərində qurulan dostluq və qardaşlıq münasibətlərimiz Zati-alilərinizin humanitar təşəbbüsləri ilə daha da dərinləşib.

Fəxrlə qeyd etməliyik ki, Zati-alilərinizin adını daşıyan Qurbanqulu Berdiməhəmmədov adına Himayəyə Ehtiyacı Olan Uşaqlara Yardım Fondu mərhəmət, xeyirxahlıq, humanizm kimi ali mənəvi dəyərlərin yaşadılması ilə yanaşı, dost və qardaş xalqlarımız arasında mənəvi körpü missiyasını böyük uğurla həyata keçirir.

Bu nəcib missiyanın ən parlaq nümunələrindən biri də Sizin Azərbaycanın işğaldan azad edilmiş Füzuli şəhərində məscid inşa etmək təşəbbüsünüzdür. Biz bu təşəbbüsü böyük məmnuniyyət və dərin minnətdarlıq hissi ilə qarşıladıq. Qarabağın bərpa prosesinə dəyərli töhfə olan bu humanist addımınız iki ölkə arasında dostluq və qardaşlıq münasibətlərinin, dini-mənəvi həmrəyliyin, humanitar əməkdaşlığın və qarşılıqlı etimadın bariz təcəssümüdür.

Oktyabrın 7-də Qəbələ şəhərində keçirilən Türk Dövlətləri Təşkilatının Dövlət Başçıları Şurasının Zirvə Görüşü çərçivəsində türk dövlət və hökumət başçıları ilə birgə Füzulidə inşa ediləcək məscidin onlayn formatda təməlinin qoyulması bu xeyirxah layihəyə əlavə mənəvi və tarixi məna qazandırıb. Bu təşəbbüs, həmçinin Türk dünyasının ortaq dəyərlərinə, İslam mədəniyyətinə və azad olunmuş torpaqlarımızın mənəvi dirçəlişinə verilən yüksək önəmin göstəricisidir.

Xüsusilə qeyd etmək istərdik ki, Türk Dövlətləri Təşkilatı, eləcə də Təşkilatın Ağsaqqallar Şurasındakı uğurlu fəaliyyətiniz, Türk dünyasının birliyi, həmrəyliyi və inkişafı naminə səsləndirdiyiniz müdrik çağırışlar və verdiyiniz mesajlar böyük hörmət, ehtiramla izlənilir və yüksək qiymətləndirilir.

2025-ci ilin iyul ayında Zati-alilərinizin Qarabağa səfəri, o cümlədən Şuşa şəhərində yerləşən Yuxarı Gövhər Ağa məscidini ziyarətiniz zamanı Vətən uğrunda şəhidlik zirvəsinə ucalan qəhrəmanlarımızın ruhuna etdiyiniz dualar qardaşlıq, mənəvi dəyərlərə sədaqət və tarixi irsə hörmətin parlaq nümunəsi kimi xalqımız tərəfindən böyük ehtiramla qarşılanıb.

İnanırıq ki, Zati-alilərinizin təşəbbüsü ilə Füzuli və Arxadağ şəhərlərinin qardaşlaşması insanlararası təmasların daha da intensivləşməsinə təkan verəcəkdir.

Hörmətli Qurbanqulu Məlikquliyeviç, Sizin yüksək diqqət və mənəvi dəstəyiniz Füzuli sakinləri tərəfindən böyük rəğbətlə qarşılanır və qəlbimizdə dərin minnətdarlıq hissi oyadır, bölgənin mənəvi həyatına yeni ruh, inam və ümid gətirir. Bu nəcib addım qardaşlığımızın və həmrəyliyimizin tərənnümü kimi qədirbilən Azərbaycan xalqının yaddaşında əbədi qalacaqdır.

Füzuli şəhərində inşa edilən və Azərbaycan-Türkmənistan qardaşlığının mənəvi rəmzinə çevriləcək bu məscidin yaxın zamanda Zati-alilərinizin iştirakı və xeyir-duaları ilə açılışını biz Füzuli sakinləri olaraq böyük səbirsizliklə gözləyirik.

Fürsətdən istifadə edərək, göstərilən yüksək diqqət və qayğı üçün bütün Füzuli sakinləri adından Zati-alilərinizə bir daha dərin təşəkkürümüzü bildirir, Sizə möhkəm cansağlığı, uzun ömür və Türkmənistan xalqının rifahı naminə gələcək fəaliyyətinizdə davamlı uğurlar arzu edirik. Ulu Tanrıdan qardaş Türkmənistana və xalqına firavanlıq, sülh, əmin-amanlıq və daimi tərəqqi diləyirik.

Azərbaycan Respublikasının Füzuli şəhərinin sakinləri adından dərin hörmətlə,

***Əliyev Vidadi Əziz oğlu***
***Hüseynov Məhəmməd Səyyad oğlu***
***Rzayev Atabəy Saleh oğlu***
***Əhmədov Taleh Famil oğlu***
***Xanlarov Vaqif Əsgər oğlu***
***Əliyeva Sevda Yaqub qızı***
***Quliyeva Aygün Oktay qızı***
***Abdullayev Nizami Ağabala oğlu***
***Qəhrəmanova Xuraman Hüseyin qızı***
***Quliyev Elman Süleyman oğlu***
***Əliyev Füzuli İbrahim oğlu***
***Camalxanov Tehran Məmmədəli oğlu***
***Abdullayev Məmmədbağir Abdulla oğlu***
***Məmmədov Alik Calal oğlu***
***Məmmədova Nüşabə Həmid qızı***
***Hüseynova Mahnur Eldar qızı***
***Əliyeva Fəridə Kamil qızı***
***Əliyeva Rəhilə Ənvər qızı***
***Nəsirova Gülbahar Allahverdi qızı***
***Hüseynova Fəridə Rəhbər qızı***

**Füzuli şəhəri, 19 noyabr 2025-ci il.**

***Replika***

# Avenesov cəfəngiyyatı

## *Yaxud hayın "şiə məscidi təəssübkeşliyi"*

***Deməli, Ermənistanda bəzi qüvvələr var ki, istəkləri Bakı–İrəvan sülh prosesinə maneçilik törətmək, ölkəmizi regionda destruktiv qüvvə olaraq göstərməkdir. Onlar bunun üçün hər cür cəfəngiyyatı dilə gətirməkdən çəkinmirlər. Belələrinin bir zamanlar Azərbaycanın, guya, Qarabağın xristian mədəni irsini məhv etdiyini deyib vay-şivən qopardıqlarını da bilirik. İndi bu əbləhlər həyasızlığın yeni metodunu tapıblar. Məqsədləri isə təkcə nifaq yaradaraq barışa xələl gətirmək deyil...***

Deməli, özünü keçmiş "dqr"in mədəni irs ombusdmanı kimi saxta vəzifədə təqdim edən Ovik Avenesov adlı hay bildirib ki, azərbaycanlılar Qarabağdakı İslam dini abidələrini məhv edirlər. Bəli, düz oxudunuz, İslam dini abidələrini. Özü də bu "din təəssübkeşi" həyasızlığın dozasını xeyli artıraraq, sırf şiə məscidinin "məhvi" üzərində dayanıb. Sən demə, dağıdılan məscid Qubadlı rayonunun Əfəndilər kəndində imiş. Bu xəbəri yayan "Novosti Armenii" (news.am) portalıdır. Media qurumu, hətta məscidin şəklini də paylaşıb. Fotoşəkildən aydın görünür ki, tikili həddən artıq köhnədir və ilk baxışdan heç dini abidəyə də oxşamır.

Göründüyü kimi, ümumən, Azərbaycanı gözdən salmaq niyyəti güdülür. Amma konkret məqsədlər də var. Birincisi, ölkəmizin, guya, İslam dini dəyərlərinə etinasız yanaşdığını göstərmək. İkincisi, bir halda ki, vurğu sırf şiə məscidi üzərinə qoyulur, deməli, burada həm də Azərbaycanı İranla konfliktə çəkmək kimi sərsəmlik istisna deyil. "News.am"ın materialındakı daha bir misli görünməmiş cəfəngiyyat isə budur: Guya, Azərbaycan Silahlı Qüvvələri 2020-ci ilin 44 günlük müharibəsi zamanı Şuşadakı Yuxarı Gövhər ağa məscidini də dağıtmışdılar.

Avenesov ağlına gələn başqa şeylərdən də danışıb. Məsələn, o iddia edib ki, Azərbaycanın hərəkəti ölkənin yalnız milli kimlik davası aparmadığını, ümumən dağıdıcı xislətdə olduğunu göstərir. Ruslar demiş, "каждый судит в меру своей испорченности" (hər kəs öz təfəkkürünün çərçivəsində mühakimə yürüdür). Amma bu hayın üfunət qoxan digər dediklərini diqqətə çatdırmaq niyyətindən uzağıq. Həm də ona görə ki, vurğulamağı lazım bildiyimiz mühüm mətləblər var.

Əvvəla, işğal illərində torpaqlarımızda müsəlman mədəni irsini, məscidlərimizi və digər dini abidələrimizi yerlə-yeksan edən, məscidlərdə donuz saxlayan, onları mal-qara damına çevirən Avenesov kimi allahsızlar olublar. Onların bir qismi Bakı həbsxanalarındadırlar və barələrində çıxarılacaq hökmü gözləyirlər. İkincisi, Azərbaycan dövləti tərəfindən işğaldan azad edilmiş ərazilərdə neçə-neçə məscid inşa olunub, neçə-neçə dini abidənin əsaslı təmiri aparılıb. Üçüncüsü, əsl vandallığı avenesovlar Ermənistan ərazisində törədiblər. Ölkənin müxtəlif bölgələrindəki yüzlərlə müsəlman dininə məxsus abidədən əsər-əlamət yoxdur. Yəni belə bir durumda heç bir hay qırığının danışmağa sözü olmamalıdır. Amma görünür, utanmazlar üçün oynamaq heç nədir.

Sonda qeyd edək ki, "News.am"ın materialının başqa məqsədi də var. Nəzərə alaq ki, yazıda vurğu Azərbaycanın işğaldan azad edilmiş ərazilərdə apardığı tikinti və quruculuq işləri üzərinə qoyulur. Hiss olunur ki, Ermənistanda kimlərsə bu fəaliyyətin həddən artıq geniş miqyas almasından çox narahatdır. Onu da nəzərə alaq ki, ölkəmiz tikinti-quruculuq işləri ilə həm də doğma yurda sahibləndiyini göstərir və bu mənada Azərbaycan dünyaya nümunədir.

Bəli, Qarabağda və işğaldan azad edilmiş digər ərazilərimizdəki mövcud durum, yəni misli görünməmiş tikinti-quruculuq bumu Ermənistandakı revanşist və şovinistləri, o cümlədən onları hərəkətə gətirən xarici qüvvələri ciddi şəkildə narahat etdiyi üçün Avenesov kimi əbləhləri danışdırırlar. Danışsınlar, necə deyərlər, it hürər, karvan keçər...

***R.ƏVƏZ***
***XQ***


# "Səba" Açıq Səhmdar Cəmiyyəti səhmdarlarının nəzərinə!

"Səba" ASC səhmdarlarının 18 noyabr 2025-ci il saat 15.00-a təyin edilmiş növbədənkənar ümumi yığıncağının Azərbaycan Respublikası Mülki Məcəlləsinin 107-2.1. maddəsinə müvafiq olaraq baş tutmadığını nəzərə alaraq Azərbaycan Respublikası Mülki Məcəlləsinin 107-2.2. maddəsinə əsasən həmin məcəllənin 107-1.8-ci maddəsində müəyyən edilmiş qaydada "Səba" ASC səhmdarlarının 18 noyabr 2025-ci il saat 15.00-a təyin olunmuş növbədənkənar ümumi yığıncağının gündəliyi dəyişdirilmədən 24 dekabr 2025-ci il saat 15.00-da Bakı şəhəri, Yasamal rayonu, Cəfər Cabbarlı küçəsi 60 nömrəli ünvanda "Səba" ASC səhmdarlarının növbədənkənar ümumi yığıncağı keçiriləcəkdir.

Ümumi yığıncağın gündəliyinə aşağıdakı məsələlərin müzakirəsi daxil edilmişdir:

***1. "Səba" ASC-nin yeni redaksiyada nizamnaməsi haqqında.***
***2. "Səba" ASC-nin direktorlar şurası haqqında.***
***3. "Qarabağ Taxıl" MMC-nin (VÖEN: 5000268351) "Səba" ASC-yə qoşulması haqqında.***
***4. "Biləsuvar Aqro" MMC-nin (VÖEN: 4100179981) "Səba" ASC-yə qoşulması haqqında.***
***5. "Səba" ASC-də dividendlərin elan edilməsi haqqında.***

Cəmiyyətin bütün səhmdarlarına izah olunur ki, səhmdarlar ümumi yığıncağın gündəliyinin layihəsinə aid təkliflər vermək və ümumi yığıncağa 15 (on beş) gün qalmış gündəliyə daxil edilmiş bütün məsələlər üzrə müvafiq sənədlərlə AZ1065, Bakı şəhəri, Yasamal rayonu, Cəfər Cabbarlı küçəsi 60 nömrəli ünvanda yerləşən cəmiyyətin ofisində tanış olmaq hüququna malikdirlər.

Ümumi yığıncağa gələn səhmdarlar şəxsiyyəti təsdiq edən sənəd, səhmdarların nümayəndələri isə şəxsiyyəti təsdiqləyən sənəd və nümayəndənin səlahiyyətləri barədə etibarnamə təqdim etməlidirlər.

**Əlaqə telefonu: (+99450) 201 20 15 – direktor**
**(+99455) 215 08 60 – hüquqşünas**
**Ünvan: Bakı şəhəri, Yasamal rayonu, Cəfər Cabbarlı küçəsi 60.**

***"Səba" ASC-nin direktoru Vüqar Baloğlanov***

Xalq qəzeti

XQ

xalqqazeti.az

№ 246 (30940) 20 noyabr 2025-ci il, cümə axşamı

## İDMAN

# Qadın güləşçimiz qızıl medal aldı



**Azərbaycanın qadın güləşçisi Jalə Əliyeva Səudiyyə Ərəbistanının paytaxtı Ər-Riyadda keçirilən VI İslam Həmrəyliyi Oyunlarında qızıl medal qazanıb.**

57 kiloqram çəkidə çıxış edən idmançı finalda türkiyəli Elvira Süleymanı 6:2 hesabı ilə üstələyərək Oyunların qalibi olub.

Elnurə Məmmədova (50 kiloqram) isə bürünc medal qazanıb.

Qeyd edək ki, daha əvvəl yunan-Roma güləşçilərindən Həsrət Cəfərov (67 kiloqram) və Murad Əhmədiyev (97 kiloqram) ikinci yeri tutublar.

# Soydaşımız Avropada voleybol oyununu idarə edəcək



**Azərbaycanın beynəlxalq dərəcəli hakimi Zaur Hacıyev Avropa Voleybol Konfederasiyası (CEV) tərəfindən təyinat alıb.**

Azərbaycan Voleybol Federasiyasından verilən məlumata görə, o, 18 yaşadək oğlanlar arasında keçiriləcək Şərqi Avropa Voleybol Zonal Assosiasiyasının (EEVZA) çempionatında hakimlik edəcək.

Yarış noyabrın 20-23-də Latviyanın Dauqavpils şəhərində baş tutacaq.

Turnirdə Azərbaycan, Gürcüstan, Ukrayna, Estoniya, Latviya və Polşanın milli komandaları mübarizə aparacaq.

# Türkiyə futbol millisinin rəqibləri bəlli olub



**DÇ–2026-nın seçmə mərhələsinin son oyununda İspaniya millisi ilə heç-heçə oynayan Türkiyə komandası öz qrupunu ikinci pillədə tamamlayıb.**

Beləliklə, pley-off matçlarında ümumilikdə 16 kollektiv iştirak edəcək. Püşkatmada 1-ci səbətdə yer alacaq "ay-ulduzlular" 4-cü səbətdəki 4 komandadan biri – Rumıniya, İsveç, Şimali İrlandiya və ya Şimali Makedoniya ilə yarımfinal oyununa çıxacaq. Qalib gələn yığmalar finala vəsiqə qazanacaqlar.

*Qabil YUSİFOĞLU*
*XQ*

**OXUCULARIN VƏ MƏTBUAT YAYIMI TƏŞKİLATLARININ NƏZƏRİNƏ!**

**XALQ QƏZETİ**

**Abunə yazılışını davam etdirir!**

*Abunə respublikanın bütün poçt şöbələri tərəfindən aparılır. Eyni zamanda, aşağıda göstərilən mətbuatyayımı qurumlarına müraciət edə bilərsiniz:*

1. "Azərmətbuatyayımı" ASC (012)-440-16-26.
2. "Azərpoçt" MMC (012)-598-49-55, (051)-225-02-13.
3. "Qaya" firması (012)-566-77-80, (050)-214-40-53.
4. "SƏMA-M" MMC (012)-594-02-52, (050)-333-69-69.
5. "ZİYA" LTD (012)-497-76-96, (050)-306-77-44.
6. "PRESSİNFORM" MMC (012)-598-49-52, (050)-456-08-35.

1 illik – 156 (yüz əlli altı) manat.
6 aylıq – 78 (yetmiş səkkiz) manat.
3 aylıq – 39 (otuz doqquz) manat.
1 aylıq – 13 (on üç) manat.



5 il əvvəl biz hamımız Vətən dedik!

Xalq qəzeti

Prezident İlham ƏLİYEV:

Ərazi bütövlüyümüzü, tarixi ədaləti, beynəlxalq hüququ və milli ləyaqətimizi biz özümüz bərpa etdik!

Üç dövlət, üç qardaş – tək ürək

**Hörmətli abunəçilər!**
**Abunə yazılışı ilə əlaqədar hər hansı bir problemlə rastlaşsanız, (012)-498-85-29 nömrəli telefonla əlaqə saxlaya bilərsiniz.**

**Hörmətli oxucular!**
**ABUNƏ YAZILMAĞA TƏLƏSİN!**

# Bakıda Üzgüçülük üzrə Dünya Kuboku keçiriləcək



**Azərbaycanın gələn il ev sahibliyi edəcəyi Üzgüçülük üzrə Dünya Kubokunun vaxtı dəqiqləşib.**

Gənclər və İdman Nazirliyindən verilən məlumata görə, Azərbaycan Üzgüçülük Federasiyasının prezidenti Zaur Əliyev və Dünya Su İdmanı Federasiyasının (World Aquatics) prezidenti Hüseyn Əl-Müsəlləm yarışın 2026-cı ilin 1-3 oktyabr tarixlərində Bakıda keçirilməsinə dair rəsmi müqavilə imzalayıblar. İmzalanma mərasimində gənclər və idman naziri Fərid Qayıbov da iştirak edib.

Qeyd edək ki, "Silk Way" Dünya Kubokunun ilk mərhələsi Bakı Su İdman Sarayında təşkil olunacaq. Yarışın növbəti mərhələləri isə 8-10 oktyabrda Daşkənddə (Özbəkistan), 15-17 oktyabrda isə Astanada (Qazaxıstan) keçiriləcək.

*Hər daşın altında bir tarix yatır*

# 4 əsrlik "Çökək hamam"ın bəyaz sirri

## *"Gəncəyə gedirəm, yüküm yumurta"*



**Gəncə – qədimliyi və mədəni irs zənginliyi ilə hər daşında bir tarix, hər küçəsində bir nağıl uyuyan ulu məkan. Bu şəhərin binalarına diqqətlə baxanda, sanki, daşlar dil açır, divarlardan yayılan isti bir nəfəs duyulur. Kimi deyir ki, bu nəfəs illərin yaddaş izləridir. Bəziləri eşidib-bildiyi bilgi ilə söyləyir: "Bu hərarət yumurtanın nəfəsidir".**

Bəli, məsələ məhz yumurta ilə bağlıdır. Xalq arasında deyildiyinə görə, Gəncədə bəzi tarixi binaların tikintisində yumurta ağından bərkidici məhlul kimi istifadə olunub. Bu, nağıl, uydurma deyil, tarixi gerçəkdir, keçmiş sənətkarların məharətindən xəbər verir.

XVII əsrdə tikilmiş "Çökək hamam" nadir tarixi abidə kimi Gəncənin mərkəzində, qədim məhəllələrin qoynunda bu günə gəlib çatıb. Bu hamamın tikintisində o dövrün ustaları adi əhəng məhluluna bir qədər də "can" vermək üçün bu üsula əl atıblar. Hər daşın arası, hər kərpicin birləşməsi daha möhkəm olsun deyə, əhəngə yumurta ağı da qatıblar. Onu da söyləyirlər ki, bu hamamın inşasında 20 minə yaxın yumurtadan istifadə olunub.

Bir anlıq təsəvvür edək ki, o dövrün Gəncəsində bu qədər yumurta nə demək imiş? Broyler yox, toyuq ferması da yox. Hər yumurta ya bir kəndlinin hinindən, ya da bazarın bir küncündəki piştaxtadan gətirilirmiş. Bu qədər yumurta Gəncəətrafı Hacıkənd, Zurnabad, Qızılhacılı, Topalhəsənli kəndlərdən ədəd-ədəd yığılırmış. Hər kənd öz payını verirmiş, sanki, bir səfərbərlik var imiş. Düşünürsən ki, bu hamamın tikintisində nə qədər adamın marağı olub. Bu abidədə minlərlə insanın iştirak payı var.





Sual oluna bilər, niyə məhz yumurta? Təbii ki, o dövrdə indiki anlamda sement yox idi. Əhəng və torpaq məhlulu binanı birləşdirsə də, divarlar uzunömürlü olmurdu. Gəncəli ustalar isə təcrübədə görüblər ki, yumurta ağı əhənglə qarışanda daha möhkəm hörgü əmələ gətirir. Üstəlik, quruduqdan sonra çatlamır, su keçirmir, hamar və parlaq olur. Bu səbəbdən hamamların günbəzi, minarələrin səthi, məscidlərin bəzəyi üçün bu üsuldan istifadə edilirmiş.

Gəncədə təkcə "Çökək hamam" deyil, "Şah Abbas məscidi", "Cümə məscidi" və bəzi karvansaralar da bu üsulla inşa olunmuşdu. Ustalar belə bərkidicini "yumurtalı əhəng" adlandırırmışlar. Hətta aralarında belə bir deyim də var imiş: Əhəngə can verən yumurta, binaya ruh verən ustadır".

Gerçəkdə, bir damcı yumurta ağı, binaya uzunömürlük, gətirirmiş. Gəncə ustalarının bu üsulu Avropa memarlarını da təəccübləndirib. Sonralar aparılan araşdırmalar da göstərib ki, belə tikililərdə istifadə olunan məhlulun tərkibi bioloji kalsium və albuminlə zəngindir. Yəni elmi baxımdan da yumurta ağında olan maddələr əhəngi bərkitməyə, onu uzunömürlü etməyə qadirdir.

Maraqlıdır ki, əsrlər keçsə də, həmin məhlul öz dayanıqlılığını itirmir. "Çökək hamam"ın divarlarını bir balaca cızsan, altdan ağappaq bir parıltı görünür. Bu işıq və onun hərarəti nə əhəngdən, nə də daşdan gəlir. Bu, minlərlə yumurtanın bəyazlığı, neçə-neçə kənd camaatının əllərinin izi, nəfəslərinin hərarətidir.

Bu hadisə Gəncədə bir növ xalq hekayəsinə dönüb. Bəzən yaşlı ustalar gənclərə zarafatla deyirlər: "O binanı tikmək üçün Gəncənin bütün toyuqları növbə ilə yumurtladı". Amma bu zarafatın arxasında bir həqiqət dayanır. Çünki o dövrün insanları təbiətin verdiyi hər neməti dəyərləndirməyi bacarırdılar. Onlar üçün yumurta təkcə qida deyil, yaradıcı zəkanın açdığı sirr, yararlandığı kəşf idi.

Bu gün "Çökək hamam"ın qarşısında dayanıb, divarlarına baxanda, sanki, xəyalında o qədim ustaların əllərinin necə bir möcüzə yaratdığını görürsən. Hər daş, hər naxış bir sənətkarın adını pıçıldayır. Gəncənin o ağ divarlarında adi yumurtanın hikmətindən xəbər verən möhkəmlik yaşayır.

Sonda inanırsan ki, qədim Gəncənin tarixi abidə sayılan binaları təkcə daşdan deyil, insan zəkasından istilik və dözüm almış yumurta ağından yoğrulub.

Əgər o zamanlar şəhərdən gedənlər "Gəncədən gəlirəm yüküm xurmadır", – deyə çalıb-çağırıblarsa, yəqin, qatarlaşıb "Çökək hamam"a yumurta daşıyan kəndlilər də zümzümə edirmişlər:

***Gəncəyə gedirəm yüküm yumurta,***
***Ustalar yolumu gözləyir orda...***

***Hamlet QASIMOV,***
***XQ-nin bölgə müxbiri***

## *HAVA*

# Bir az çiskin, arabir də duman...

**Ekologiya və Təbii Sərvətlər Nazirliyinin Milli Hidrometeorologiya Xidmətindən verilən məlumata görə, bu gün Bakıda və Abşeron yarımadasında hava şəraitinin dəyişkən buludlu olacağı, arabir tutulacağı, əsasən yağmursuz keçəcəyi gözlənilir. Lakin səhər yarımadanın bəzi şəhərətrafı ərazilərində az çiskinli olacağı ehtimalı var. Mülayim cənub-qərb küləyi əsəcək.**

Havanın temperaturu gecə 10-14, gündüz 17-22 dərəcə isti olacaq. Atmosfer təzyiqi normadan yüksək – 768 millimetr civə sütunu, nisbi rütubət gecə 80-85, gündüz 70-75 faiz təşkil edəcək.

Azərbaycanın rayonlarında havanın əsasən yağmursuz keçəcəyi proqnozlaşdırılır. Bəzi yerlərdə arabir duman olacaq. Şərq küləyi əsəcək. Havanın temperaturunun gecə 5-10, gündüz 17-21, dağlarda gecə 1-5, gündüz 7-12 dərəcə isti olacağı bildirilir.



*Q.ƏLİYEV*
*XQ*

***✓ Azərbaycan Respublikasının İqtisadiyyat Nazirliyi yanında Əmlak Məsələləri Dövlət Xidməti tərəfindən "SƏFALI TİCARƏT MƏRKƏZİ" ASC-yə verilmiş emissiya prospekti itdiyi üçün etibarsız sayılır. (VÖEN-2000095511).***

***✓ Azərbaycan Respublikasının İqtisadiyyat Nazirliyi yanında Dövlət Vergi Xidməti tərəfindən Hacıyev Samir Malik oğlunun adına verilmiş xidməti vəsiqə itdiyi üçün etibarsız sayılır.***

**ALLAH RƏHMƏT ELƏSİN!**

Kliniki Tibbi Mərkəzin kollektivi mərkəzin direktoru Könül Ələkbərova anası

**GÜLZAR ƏLƏKBƏROVANIN**

vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

**DİREKTOR – BAŞ REDAKTOR**

**ƏFLATUN AMAŞOV**

**TELEFONLAR:**
**Reklam və elanlar: 493-82-21**
**Qəbul şöbəsi: 493-24-75**
**Məsul katib: 493-61-02**
**Texniki şöbə: 493-59-64**
**Mühasibatlıq: 498-85-29**
**Email: xalqqazeti@gmail.com**
**info@xalqqazeti.az**
**+994 (51) 280-16-44**

**"Xalq" qəzeti redaksiyası" MMC-nin kompüter mərkəzində yığılıb və səhifələnib, "Azərbaycan" nəşriyyatında çap olunub.**

**ÜNVANIMIZ:**
**AZ-1000, Bakı şəhəri, Bülbül prospekti, 30.**
**Şəhadətnamə 022273**

**İNDEKS 0282**
**TİRAJ 3481**
**SİFARİŞ 2323**
**QİYMƏTİ 60 qəpik**

**Növbətçi redaktor**
**Nurlan ABDALOV**
**Çapa imzalanmışdır 00:00**